AĞAMİR CAVAD

# YANMIŞ BUDAQ ÜSTƏ OXUYAN BÜLBÜL

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı – 2013

**Nəşrə hazırlayan:** Mirhafiz Bahadır

**Redaktor:** İltifat Saleh

**AĞAMİR CAVAD. YANMIŞ BUDAQ ÜSTƏ OXUYAN BÜLBÜL ( şeirlər ) Bakı 2013, 200 səh.**

Müasir Azərbaycan şeirinin istedadlı nümayəndələrindən olan Ağamir Cavad səksənincilər ədəbi nəslinə mənsubdur. "Çəkdiyim şəkillərin ruhu"(2002), "Eşq işığı"(2007), "İşıq adam"(2009) adlı poetik topluları oxucular tərəfindən rəğbətlə qarşılanmış, yaddaşlarda silinməz iz buraxmışdır. Öz nəfəsi, öz səsi, öz üslubu ilə seçilən, bənzərsiz şairlərdən olan Ağamir Cavadın bu kitabı da şübhə etmirik ki, müəllifinə daha sanballı uğur gətirəcəkdir.

ISBN 5-87459-091-9

**©Ağamir Cavad**

## ÖN SÖZ ƏVƏZİ

# POEZİYA TANRI SƏNƏTİDİR.

( ESSE )

Sənətin yolu gözəllikdən, saflıqdan, məhəbbətdən keçir.

Poeziya gözəllikdir. Həyatda hər şeyi gözəl görmək istəyindən yaranır şeir. Mayası gözəlliklə yoğrulmuş bütün yaranmışların bətnində işıq var. İşıqlı söz həyatın gözəlliklərini özündə ehtiva edir. Şeir də işıqdır.

İşıqlı ürəklərin arzu və diləklərinin təzahürüdür.

Poeziya saflıqdır. Saf ürəklilərin bütün qəlbləri pak görmək istəyindən doğulur şeir. Bütün insanların mayasında saflıq gizlənib. İnsanı o müqəddəs saflığa qayıtarır şeir.

Poeziya məhəbbətdir. Sözlərin hikməti ilə yaşayan, səslərin, hisslətin ahəngi, musiqisi ilə çırpınan qəlblərin sevgisindən, eşqindən işıq alıb bar verir şeir. Ülfət, ünsiyyət, dostluq yaradır şeir. İnsanları birləşdirir, əsrləri birləşdirir, həyatın, zamanın yolunu yaradır. Bu yol ən uzun bir yoldur. Bu yol Adəmdən başlayıb. İlk şeiri Adəm peyğəmbər yazıb. Həvvasına vurulanda, gözəlliyi önündə heyrətdə qalanda, qara sevdaya düşəndə, onun xətrinə qadağan olunmuş meyvəni dadıb min bir əzaba qatlaşmağı özünə rəva biləndə.

Şairlik Tanrı vergisidir. Şairlər tanrının işini, əməllərini davam etdirənlərdir. Odur ki, tanrıya ən yaxın məqamdadırlar.

Tanrının hər əməli gözəldir. Dünyanı, insanı gözəl yaratdı Tanrı. Əməli gözəl olmayanlar, gözəlliyə qənim kəsilənlər iblisə uyanlardır.

Şairlər Tanrının yaratdığı gözəllikləri daha da artırmaq, bu gözəllikləri mədh etmək üçün doğulmuşlar. Dünyanı dünyanın özündən gözəl, insanı insanın özündən gözəl yaratmaq istəyidir şair istəyi. Bu istəyin ruhu, canı, qanı isə sözdür, ahəngdir, musiqidir.

Poeziya da bir yoldur. Tanrı dərgahına ünvanlanan yol. Ən qısa və ən uzun yol. Tanrıya qədər məsafə bir misranın boyu qədərdir. Bir misranın boyu isə əsrlərin zaman sərhəddini yarıb keçir.

Tanrıya gedən bu yol həqiqət yoludur. Saflıqdan, məhəbbətdən, gözəllikdən keçir bu yol. Bu yol bitmir, tükənmir. Bu yolda bir əbədilik, müqəddəslik var. Ahəng, söz, musiqi ilə yoğrulub bu yolun çəhlimləri, eniş-yoxuşları, zirvələri, yüksəklikləri.

Tanrı şeirin dili ilə, musiqinin dili ilə danışır. Gözəlliklərdən Tanrının səsi gəlir. Hər ayəsində dünya qədər fikir, musiqi yaşadan səmavi kitablardan boylanan avaz kimi.

Şəhidlər də şairdirlər. Haqq yolunda cihad ən böyük şairlikdir. ”Şairlər olub ki, bir misra belə yazmayıblar”. Qələm yox, süngü işlədiblər. Tanrının yaratdığı gözəllikləri qorumaq üçün axıtdıqları hər damla qandan həqiqət göyərib. Kərbəla müsibətində şəhid olan İmam Hüseynin əsir düşən bacısından soruşurlar: “Siz Kərbəlada nə gördünüz?” O, qürurla cavab verir: “Biz orada gözəllikdən başqa bir şey görmədik”. Haqq uğrunda, həqiqət uğrunda, vətən uğrunda, qeyrət uğrunda şəhid olmaq ən böyük gözəllikdir, ən böyük poeziyadır. İmadəddin Nəsiminin ən böyük əsəri əqidəsi yolunda diri-diri soyulmasıdır. İnsanları kamilliyə aparan yolda ölüm də gözəlləşir.

Tanrı insan yaratmaq fikrini mələklərə söylədikdə ilk öncə mələklərin etiraz nidası ucalır: “Yenədəmi Yer üzündə qan tökən, qan içən canlı yaratmaq fikrindəsən?” Tanrı cavabında deyir: “Mən biləni siz bilməzsiniz”. Nə idi tanrının bildiyi, görəsən? Onun bildiyində dünyanın insana etibarımı gizlənmişdi? İnsanın bətnində gizlənən saflığa olan inamı idimi Tanrıya bu sözləri dedirən? Yoxsa, Tanrının insana verdiyi yaratmaq eşqi idi bu inamın mayası? Hər nədirsə, insan Tanrının bu inamını, bu etibarını doğrultmalıdır. Bu inamı, bu etibarı dərk edib doğrultmaya çalışanlar ilk öncə şairlərdir. Odur ki, şairlik

zəhmətdir, əzabdır. Ürəklərin qarasını yumaq, gözlərin ləkəsini silmək, fikirlərin boyasını təmizləməkdir şairlik. Bundan ağır, bundan əzablı iş varmı? Şeiri bitirəndə daddığın intellektual həzzin çəkisi necə də ağırdir! Ən böyük, ən ali həzzdir bu. Çünki bətnində saflıq var, məhəbbət var, gözəllik var.

Xalq arasında belə bir fikir söylənilir: “Namaz üstə, ibadətlə keçən vaxt ömürdən sayılmır”. Məncə, şeir yazan zaman ötən vaxt da ömrə yazılmır. Çünki şeir də duadır, ibadətdir. Şeir yazanda zaman dayanır, ötmür. Gözəllik önündə, saflıq içində, məhəbbət anında olduğu kimi.

Baharı da, qışı da gözəldir şeir-sənət aləminin. Yayı odlu-atəşli, payızı barlı-bərəkətli olur bu aləmin. Gündüzü günəşli, gecəsi aylı-ulduzlu olur. Ancaq yaşadığımız dünyadan daha gözəl, daha işıqlı, daha yaşanılası bir aləmdir poeziya aləmi. Ürəklərə bahar gətirən, arzuların çiçək açması üçün istilik, hərarət paylayan sənətdir poeziya sənəti. Bəyaz qarı altda dünyanı ayazdan, şaxtadan qaruyan sənətdir poeziya sənəti.

Şeytan şər toxumu səpir torpağa. İnsanın qəlbindəki ocağı söndürüb, dünyasını yandırmaq istəyidir şeytan xisləti. Şeytana aldanan, iblisə uyan insan ondan daha pis, daha amansızdır. Dünyanı alaqlardan, ürəkləri şeytan hiyləsindən təmizləməkdir şairlərin amalı. Ürəklərdə Tanrı ocağı çatmaq, dünyanın müqəddəs eşq odunu qorumaqdır şairlərin amalı. Şairlər dünyanın odqoruyanları, dünyanın dərdini çəkənlərdilər.

Dünyanın bir sönmüş ocaq dərdini
Atəşi müqəddəs sananlar bilər.
Ağacın bir yanmış budaq dərdini
Bizimtək eşqində yananlar bilər.
Yanmış budaq üstə oxuyan bülbül,
Yanıqlq-yanıqlı nə oxuyursan?

Hicran atəşində yanan, qanlı goz yaşı axıdıb gecə-gündüz həsrətlə ötən bülbülün naləsində şair yanğısı var. Bu yanğı müqəddəs yanğıdır.

“Poeziya nədir?” sualına belə bir cavab da versmək istəyirəm:

- Yanmış budaq üstə oxuyan bülbülün öz yanıqlı səsi ilə yanmış budağı göyərtməsidir poeziya.

Yanmış budaqları göyətmək Tanrı işidir. Poeziya sənəti Tanrı sənətidir.

Şairlər Tanrı sənətini davam etdirənlərdir.

5 fevral 2013-cü il

# TƏRCÜMEYİ-HAL

Allahın adı altında,
Zamanın xoş saatında,
Göylərin yer adlı qatında
Doğru buğ göyərən gün
Bir doğru ruh da göyərdi-
        Mələk ruhu
Allahdan kiçik, insandan uca,
Tanrı bir dolça su səpdi
        bu ruhun ardıyca.
Bu ruh milyon ildi yol gəlir
Adəmdən, Həvvadan üzü bu yana
Haqqın həqqətin oduna yana-yana
Zaman-zaman
   neçə tufan küləyindən keçdi bu ruh,
İblislərin köynəyindən, bələyindən keçəmmədi.
Neçə arzu-diləyindən keçdi bu ruh,
Bu dunyanın kələyindən keçəmmədi,
Baxdılar bu ali ruhun adı insan adına,
Bilmədilər, duymadılar mələk olduğunu
Elə bildilər o da bu dunyanın
        Əlisi ya Vəlisidi.
Gördülər yanır haqqın oduna,
Güldülər, dedilər:dəlidi.
Ancaq demədilər:haqq dəlisidi.
Haqqın kəbə daşı oldu,
Qüreyş oldu, haşim oldu
Yetmiş iki ad altında
Yetmiş iki qoşun oldu,
        Kəlbəlada.
Şəhid oldu, şahid oldu bu dünyada
Bu ruh milyon il də yol gedəcək
    Haqqa-həqiqətə doğru,
Bir ilahi məhəbbətə doğru
Hər kəlməsi qoşun olacaq,
Sözü sapand daşı olacaq,
Şeytanlarla, iblislərlə
      savaş olacaq
Məhşər günündə-
Dünya, zaman çalxananda
üzə çıxan xeyirlə şər günündə,
Bir gün gələr
Ali mələk ürəyindən keçər bu ruh,
Adəm kimi həvvasından,
Bu dünyanın mələyindən keçənməz
Bir gün gələr
    bu dünyanın ələyindən keçər bu ruh

bu zamanınələyindən keçəmməz,
Bu göyərmiş ruh
Dünyanın bətnində doğan ağıdı.
Allaha ən yaxın olan mələyin
ən kədərli anında
Üzünü yerə tərəf tutub çəkdiyi ahidi.
Bu göyərmiş ruh
kiminə adi bir insan,
kiminə zamanı arxasıyca apara bilən
Dahidi.

## SALAM , ƏLLİ YAŞIM

Könlün əzəl gündən haqqa olub yar,
Həqiqət yoluna olmusan süvar.
Həyat meydanında söz silahın var,
Haqdan qüvvət almış silahın xeyir,
Salam, əlli yaşım, sabahın xeyir.

Açıqdı həmişə yaxan dağlara,
Bənzədin bu qartal, şahin dağlara.
Ah çəkdin, yol aldı ahın dağlara,
Dağlara yaraşan hər ahın xeyir,
Salam, əlli yaşım, sabahın xeyir.

Çəkib ürəyini min dara sevda,
Səni qaldırıbdı gör hara sevda.
Üzünü ağ edib bir qara sevda,
Sevgi günahdırsa, günahın xeyir,
Salam, əlli yaşım, sabahın xeyir.

İlham Allahdandı, şeir Allahın,
Odur ki, qələmim öyür Allahın.
Zərər şeytanındı, xeyir Allahın,
Çıxarsın qarşına Allahın xeyir,
Salam, əlli yaşım, sabahın xeyir.

Həyatın sirrindən olandan agah,
Savab işlərində qərq oldu günah.
Daima apardın Allaha pənah,
İnamın, imanın, pənahın xeyir,
Salam, əlli yaşım, sabahın xeyir.

İlhamın müdriklik olubdur daha,
Hər anın qiymәti qızıldan baha.
Əllini haqladın, şükür Allaha,
Gözü yüzdə qalan tamahın xeyir,
Salam, əlli yaşım, sabahın xeyir.

## DÜNYANIN HAVASI

Bu qərib dünyaya qədəm basandan

Öz doğma dünyamla davaya düşdüm.
Dünyanın havasın çəkdim içimə,
Gah isti, gah soyuq havaya düşdüm.

Qoşulub hər dərdin, qəmin köçünə,
Dünyanı bir ömür kədər sanmışam.
Bu dünya hava tək dolub içimə,
Boy atıb, dirçəlib havalanmışam.

Göylərmi məskənim, torpaqmı yerim,
Doğma vətənimdə yuvam çatışmır.
Göy üzü qaralıb, havam tutulub
Nəfəsim çatışmır, havam çatışmır.

Başıma düşəndən eşqin havası,
Buzda alışmışam, odda yanmışam.
Məhəbbət ağlımı alıb başımdan,
Məj nun tək, Kərəm tək havalanmışam.

Kədəri ən uj uz sərvət olubdur,
Çaldığı tütəyin nəvası düşmür.
Dünyanın hər yeri qürbət olubdur,
Mənəsə qürbətin havası düşmür.

Ömrə qiymət qoyub sata bilmirik,
Ola bilməyirik ömrə havadar.
Dünyanın havasın tuta bilmirik,
Dünyanın başında başqa hava var.

Düşmüşük gah qara, gah ağ rənginə,
Sox zaman bu dünya ürəyə yatmır.
Elə qol açsaq da hər havasına,
Dünyanın havası sümük oynatmır.

## YANMIŞ BUDAQ ÜSTƏ OXUYAN BÜLBÜL

Yanmış budaq üstə oxuyan bülbül,
Yanıqlı-yanıqlı nə oxuyursan?!

Bu quru budağın qara taleyi
Səni salmışmıdır dərdə, fərağa?!
Sevən ürəyində oj aq qalayıb,
Yasmı saxlayırsan yanmış budağa?!

Sənin kədərinə, qəminə şərik
Şair təbiətli bir oğlanam mən.
Nə olar quş dili başa düşməsəm,
Quş dərdi anlayan Süleymanam mən.

Dünyanın bir sönmüş oj aq dərdini
Atəşi müqəddəs sananlar bilər.

Ağaj ın bir yanmış budaq dərdini
Bizim tək eşqində yananlar bilər.

Yanmış budaq üstə oxuyan bülbül,
Yanıqlı-yanıqlı nə oxuyursan?!

## NƏ VAXTSA

Nə vaxtsa bu dünyada yaşamışam,
Tanışdı mənə sərvətlərinin adı,
nemətlərinin dadı.
Dərələrin sükutu,
dağların ahı.
Dünəni, bu günü, sabahı
tanışdı mənə.
Hər bulaq şırıltısı,
hər yarpaq pıçıltısı,
hər qaya, hər daş
yaddaşımı varaqlayıb
bir xatirə danışdı mənə.
Tanıyıram bu dünyanın
sevincini, kədərini, ahını.
Tanıyıram iblisini,
tanıyıram Allahını.
Bu dünyada yaşamışam nə vaxtsa,
yaxına buraxmamışam
yalanı, şəri.
Bir vaxtlar mən olmuşam
saf, saya dünyamızın
bir çoban peyğəmbəri.

## QATIĞIN RƏNGİ

İtirib min bir rəngin, boyasın,
boz rəngdədir dünya,
boz rəngdədir zaman.
Tutub dünyanı dördəlli
üzü boz,
əqidəsi boz insanlar.
Bürüyüb dünyanı boz duman.
Hökm edir dünyaya bozlar dünyası.
Boz dünyanın
bozdu dostluğu,
bozdu sevdası.
Bu boz cəmiyyətdə
əqidədən qiymətlidir daş-qaş,
qurunun oduna yanır yaş.
Zaman boz olanda
qatığın rəngi də boz olur, qardaş.

## DÜNYANI ƏDALƏT TUTACAQ

Deyirlər əfv fərmanı olacaq
Azadlığa buraxılacaq bütün tutulanlar.
Çıraq tutacaqlar bütün səhvlərə,
Hamı hər şeydən xəbər tutacaq.
Biləcəklər kimini alqış, kimini qarğış tutub,
Kimini günəş, kimini qar, qış tutub.
Baş tutanlar başın tutacaq,
Dil tutanların dili tutulacaq.
Xəbər tutanlar bayraq tutub çıxacaqlar yollara,
Nitqi tutulanlar tamaşa edəcəklər bu qeylü-qalllara.
Ayrılacaq məqsədlər, hərə bir yolu tutacaq,
Bölünəcəklər, kimi sağı, kimi solu tutacaq.
Yenə meydanı alaq tutacaq
Yaltaqlar yalaq tutacaq
Kimi yıxılmamaq üçün dayağından tutacaq,
Kimi aşağı dartmaq üçün ayağından tutacaq.
Başbilənlərlə dil tutanlar baş tutacaq,
əllərində gül tutanlar daş tutacaq.
Sonra yenə başlayacaq tuthatut.
Göz tutanların oyağın tutacaqlar,
Cırtdanların ayığın tutacaqlar.
Görəcəklər kim vaxtında özünü tutub,
Biləcəklər kim dediyi sözünü tutub,
Kim çəkilib özünə ismətini, arını tutub,
Kim yaşamaq üçün dünyanın damarını tutub.
Biləcəklər kim ipini boş tutub,
Kim işini yaş tutuub,
Kimin başını papaq, kimin başını daş tutub.
Kim sıxılmış dişlərində hirsini tutub,
Kim möhkəm-möhkəm oturduğu kürsünü tutub.
Can tutub cani tutanlar,
Rüşvətlə dünyanı tutanlar
Indi meydan sulayıb cin tutacaqlar,
Özlərini Allahla tən tutacaqlar
Qarışacaq məzhəblər, dinlər,
Dünyanı şər tutacaq.
O gün İsrafil sur tutacaq.
Bu səsi eşidənlər kimi Şeytanı, kimi Allahı
Özünə hami tutacaq.
Elə bil dünyanı sunami tutacaq.
Hər yanı yağış, tufan , külək tutacaq,
Zaman əlinə ələk tutacaq,
ələyəcək yaxşı-yamanı.
Gələcək dünyanın məhşəri,
dağıdacaq sisi, dumanı.
Haqsevərlər hər şeyə mizan tutacaqlar.
Qaz vurub qazan tutanlar
Haqqa gəlib azan tutacaqlar.
O gün yaxşılar iblislərə qarşı silah tutacaq.
Yamanları lənət tutacaq.
O gün ürəkləri Allah,
Dünyanı ədalət tutacaq.

## PAYIZIN XATUNU DƏMİRAĞACI

Ötürüb ömrünün nəğməli yazın,
Eşqin alovunda qovrulur sacı.
Dəyişib yamyaşıl yaz libasını
Payızın xatunu dəmirağacı.

Saralmış yarpaqlar sıxır qəlbimi,
Yığılıb, içinə çəkilib qalıb.
O qıza həsr olan günlərim kimi
Ağaclar altına tökülüb qalıb.

Qoyubdur başına məhəbbət tacın,
Bu eşqin nə qədər götürək nazın.
Qızıla bürünmüş dəmirağacı
Yaşayır ömrünün qızıl payızın.

Görən bu payızın nədir kələyi,
Aparmır özünü öydüyüm kimi.
Sərgərdan dolanan qərib küləyi
Döyür pəncərəni döydüyüm kimi.

Kölgəsi boş qalan tənha budaqlar
Açaraq qoynunu "gəl-gəl" eyləyir.
Həsrətdən üşüyən sarı yarpaqlar
Qızınmaq eşqiylə vaxtı əyləyir.

Payızsa küləyə verib ovsunu,
Göylərin həsrəti şimşəktək çaxır.
Dua etmək üçün açıb ovcunu,
Ovcuna göylərdən yağışlar yağır.

Düşüb tilsiminə bu yerin, göyün,
Payız küləyiylə darayır saçın.
Çəkib başı üstə qızıl örpəyin,
Xatipə danışır dəmirağacı.

Baxıb pəncərədən kövrəlir o qız,
Min rəngli payızın qızıl hökmünə.
Nəğməli baharı ötdü qayğısız,
"Əlvida" söyləyir hər ötən günə.

## NƏ YAXŞI, , .

Nə yaxşı dağların ucadır başı,
Bəyazlıq yaraşar dağlar başına.
Müdrik sərkərdətək çatılar qaşı,
Silsilə qayalar bənzər qoşuna.

Zaman qar ələyər başının üstə,
Höknü, iddiası çaşdırar göyü.
Qara buludlardan asılı qalar

Dağların tanrıya çatmaq istəyi.

Çatlayar dağların torpaq ürəyi,
Qıvrılar başında şimşəyin simi.
Qeyzli çayların qılınc axarı
Soyar dabanını Nəsimi kimi.

Qüruru yandırar torpağı, daşı,
Qeyrət xəzinəsi, ismət barı var.
Nə yaxşı dağların ucadır başı,
Nə yaxşı dağların dağ vüqarı var.

## SƏNİN QALXDIĞIN ZİRVƏ

Nizami Gəncəviyə

Ey Şeyx Nizani, yox sənə əvəz,
Yazdığın hər əsər haqqın səsidir.
Tanrı kəlamıtək təmiz, müqəddəs,
Dünyanın sonuncu möcüzəsidir.

Yaratdın ən gözəl söz gülüstanı,
Hikmətin bar verən cənnət bağıdır.
Hər beytin şərh edir böyük Quranı,
Qalxdığın Tur dağı, Sina dağıdır.

Sözün Tanrı sözü, səsin haqq səsi,
Tanrı dərgahına qoymusan ayaq.
Hər beytin sanki bir Quran ayəsi,
Hər sözü demisən peyğəmbərsayaq.

Müdrik fikirlərdən tutmusan çətir,
Köməyə gəlirsən hər çətin anda.
Xoşbəxtlər ölkəsi bizim ölkədir,
Səntək dahisi vardır cahanda.

Yayılıb cahana hər sözün sənin,
Fatehlər içində varmı sənə tən?
Qardaşlıq olubdur imanın, dinin,
Bəşər ibrət alır nəsihətindən.

Başımız üstündə dayanıb sözün,
Hər kəlmən sabaha aparan yoldu.
Tanrı kainatı nizama düzdü,
Hər sözü nizama düzən sən oldun.

Ədalət önündə şahları əyib,
Verdin qiymətini ulu sözün sən.
Böyük fatehləri məğlub eyləyib,
Cahanı fəth edən fateh özünsən.

Varmı sənin qədər Allaha yaxın?
Haqqın keşiyində durmusan ayıq.
Biz sənin qalxdığın zirvəyə qalxıb,
Oradan Allahla danışmalıyıq.

## EY VƏFASIZ

Ey vəfasız quşcuğaz,
  gəlin sərçəni budaqda qoyub
    hara uçursan?
Ey vəfasız kəpənək,
  bir gün yaşayacaqdınsa,
    niyə özünü sevdirdin mənə?
Ey vəfasız ürək,
  sənə güvənirdim,
    məni sevməyəni niyə sevdin?
Ey vəfasız gözəl,
  sənə həsr etdiyim gözəl misralar
    kəndirə dönüb boğmurmu səni?
Ey vəfasız dost,
  gözlərimə baxa bilmlrsənsə,
    qarşımda niyə dayanmısan?
Ey vəfasız ağıl,
  istəyini dünya malına dəyişəndə
    nə düşünürdün?
Ey vəfasız ömür,
  niyə tələsirsən sona çatmağa?
    Axı nə qədər arzu qalıb həyata keçiləsi.
Ey vəfasız dünya,
  Tanrı necə baxır
    Sənin təzadlarına?
Sənə necə vəfasız deyim, Tanrı?
  Axı sən biləni
    biz bilmirik.

## DAŞAM

Tufanda, şimşəkdə dağlardan qopub
Sellərdə, sularda yuyulan daşam.
Yonula-yonula süfahi oldum,
Min daşın içində öyülən daşam.

Dağların zirvəsi duman geyinib,
Həqiqət çox zaman güman geyinib.
Hər səhər əyninə iman geyinib,
Hər gün Nəsimitək soyulan daşam.

Gəzdim min oylağı, yurdda bərkidim,
Atamın verdiyi adda bərkidim.
Gah suda, gah da ki odda bərkidim,
Ömrün zindanında döyülən daşam.

Kimdi ayla-illə öyünüb keçir?
Hər an ürək kimi döyünüb keçir.
Zaman boğazımda üyünüb keçir,
Köhnə dəyirmanda yeyilən daşam.

Nəfsin yollarında fikir daşınar,
Zamandan- zamana min sirr daşınar.
Başımı vurmuşam əlhəd daşına,
Qəflət yuxusundan ayılan daşam.

Eşqim çəkir məni Sina dağına,
Ürəyim şeytanı qoymaz yaxına.
Dözərəm min daşın ağırlığına,
Bünövrə dibinə qoyulan daşam.

## GÖYƏRSİN

Bu dünyanın qara daşı göyərməz.
M . Yaqub

Neçə çarpaz dağ yolunda dərd aşıb
Yol gedirik, ayla, günlə sirdaşıq.
Yurd yerində ocaq qala, qardaşım,
Bu dünyanın qara daşı göyərsin.

İlk baharda qaranquşu qarşıla,
Son baharda od ol qışı qarşıla.
Hər dan üzü dur günəşi qarşıla,
Bu dünyanın qara daşı göyərsin.

Bəsdi yatdın Savalanda, igidim,
Min illərdir bar verməyir öyüdüm.
Ver qılıncı, düşmənləri üyüdüm,
Bu dünyanın qara daşı göyərsin.

Sözlərini ürəklərə yerit gəl,
Öləziyən duyğuları dirilt gəl.
Atəşinlə buz qəlbləri ərit gəl,
Bu dünyanın qara daşı göyərsin.

Eşq atəşi həyat verir hər gülə,
Yaz eşqini misra-misra sərgilə.
Xan Ağamir ürəklərə nur çilər,
Bu dünyanın qara daşı göyərsin

## QİYAMƏTİN ÖZÜ

Qoç döyüşünə qoç dayanar.
Qoş buynuzunda dayanıb dünya.
Qarışıb yaxşı-yamanı,
Həyatın min gizli rənginə boyanıb dünya.
Qoç döyüşünə oyanıb dünya.
Itirib azını, çoxunu,
    yoxunu, varını,
Dözməyib silkələyəcək buynuzlarını,
Titrəyəcək dünya.
Kim deyir ki bitəcək dünya?
Silkələnəcək, çalxalanacaq dünya.
Görünəcək qiyamətin izi.
Üzə çıxacaq doğrusu, yalanı,
    Ayrılacaq yaxşıyla pisi.
Deyirəm elə
Dünyanın saflaşmasıdı
    Qiyamətin özü.

## HƏYATIN QANUNU

Bir soyuq qış günü
dünyasını dəyişdi sevimli anam,
    gözlərində nəm.
Bir isti yay günü
dünyaya əlvida dedi atam,
 işığı ölmüş gözlərində matəm.
Dözə bilmədi həsrətə,
bu dərdi çəkərək qanına
köçdü sevimli qadınının yanına.
Qırx yeddi yaşda daddım
    yetimliyin dadını.
Çəkərək içimə bu boşluğun
    acısını, odunu,
bircə şeyi anladım:
Yetimliyin yaş fərqi yox imiş, sən demə,

Beş yaş olsun, ya əlli yaş. . .
Yetim olmaq necə də ağır imiş, qardaş.
Odur ki, ağır olur yetimin ahı.
Deyirsən həyatın qanunu belədir,
təki Allah işıqlı etsin sabahı.

## BİR GÜNÜ ÇƏKİRƏM

Mən də bir eşq rəssamıyam,
Hər günü çəkirəm, Tanrı.
Dünyanı eşqlə hörmüsən,
Hörgünü çəkirəm, Tanrı.

Ömür tale dərgisidi,
Susmaq ölüm mürgüsüdü.
Bu həyat eşq sərgisidi,
Sərgini çəkirəm, Tanrı.

Üzüm var haqq danışmağa,
Zirvə qalxıb dağ aşmağa.
Eşqim ilə yarışmağa
Hər dini çəkirəm, Tanrı.

Ömür gah qış, gah da bahar. . .
Illər zaman atın çapar.
Hər kəsin bir eşq günü var,
Bir günü çəkirəm, Tanrı.

## EŞQDİR

Bu dünyaya eşqlə gəldik,
O dünyanın yolu eşqdi.
Günəş eşqlə yanar keçər,
Qürubu eşq, tülu eşqdi.

Əvvəli eşq, axırı eşq,
Ulduzların axarı eşq.
Aşağı eşq, yuxarı eşq,
Sağı eşqdi, solu eşqdi.

Hər aşiqi bir pir olub,
Hər hikməti bir sirr olub.
Şahı eşqə əsir olub,
Ağası eşq, qulu eşqdi.

Ətəyində duz daşıdı,
Pərvazlanan söz quşudu.
Ləçəyində göz yaşıdı,
Bülbülü eşq, gülü eşqdi.

Mizanıdır ömrün, günün,
Qiyməti yox çələnginin.
Avazının, ahənginin
Bəmi eşqdi, zili eşqdi.

Özü zirvə, sözü dərin,
Atəşidir yerin, göyün.
Mürşidlərin, ariflərin
Yol göstərən qolu eşqdi.

## OD YAŞAYAR

Od yaşayar ər qanında,
Qeyrət bitər hər anında.
Bəxtin alatoranında
Buludları biçən ayam.

Dünya bilməz axırımı,
Gəlirimi, çıxarımı.
Saxlayammaz axarımı,
Məcrasını daşan çayam.

Yollarımda ömrün çəni,
Yoxlayıram hər keçəni.
Tora düşən göyərçini
Xilas edən qarışqayam.

## SƏN -MƏN

Sən – həyatın çətinliklərini keçməyən bir uşaq,
Mən – kötəkləyə-kötəkləyə uşaq sevən aşiq.
Sən – iztirablı bir ürək,
Mən – ürəkləri sevgi ilə duyan.
Sən – işıq,
Mən – bulanıq gözlərdə işıq yuyan.
Sən – çiçək,
Mən – çiçək bəsləyən.
Sən – bu gün,
Mən-- sabaha səsləyən.
Sən – səs,
Mən – səslərin ahəngi.
Sən – «Heyratı»,
Mən – «J əngi».
Sən- -dəniz,
Mən – dənizin duzluğu.
Sən – bir,
Mən – sənin arxanda sıfırlar sonsuzluğu…

XXX

Dünyaya düz dedik,
    düz çıxmadı.
Düz axtardıq, duza getdik, düzə çıxdıq,
Düzünə, dağına diz-dizə çıxdıq.
Dünyaya kürə dedik,
    kürə olmadı,
kirə oldu, kir-kirə oldu dünya.
Dünyaya yalan dedik,
    yalan olmadı.
Neçə-neçə arzuları talan etdi,
    talan olmadı.
Nələrə bənzətmədik dünyanı?
Anjaq dünyaya bujaq demədik.
Sən demə bu dünya
    bujaq-bujaq imiş,
Sevinji də, dərdi də
    qujaq-qujaq imiş.
Dağından çox imiş ahı.
Kim bilir bu dünyanın
    nə qədər künjü,
    nə qədər bujağı var, İlahi?!

XXX

Anlar aya dönüb ötür ömürdən,
Zamanın ələyin saxlamaq olmur.
Zaman dəyirmandı, dünyasa bir dən,
Dünyanın halına ağlamaq olmur.

Dünya jan üstədi, imanı ölür,
Yatmış insanları oyandırıram.
Nəsə yazmayanda zamanım ölür,
Yazıram – zamanı dayandırıram.

XXX

Riyaziyyatçı, şair Nurəddin Şaya üçün

İlk əvvəl riyaziyyatçı olmaq keçirdi könlümdən,
Həyatı gəzirdim ədədlərin rasionallığında.

Düşmüşdüm doqquz rəqəm və bir də
    sıfırdan yaranmış ədədlərin sonsuzluğuna.
Keçdim həyatın
    üçbucaq, dördbucaq, piramidalarından…
Dar gəldi mənə kvadratların, kubların çərçivəsi.
İrrasional duyğular çıxartdı məni
    ölçülü qanunların darısqal qəfəsindən.
Həyatı öyrənmək eşqi
    çağırıb çəkdi məni
səslərin otuz iki hərflə işıqlanmış
    ədəbi, əbədi aləminə.
İndi səslərin riyazi ölçülərlə cilalanmış ahəngi
Aparır məni
    göylərin sonsuzluğundakı Tanrı dərgahına.

## ÜSTƏDİ

Baharım, yayım ötdü,
Ömür payız üstədi.
Çiçəklərim üşüdü,
Gecəm ayaz üstədi.

Böyüyər, itməz eşqim,
Hər səsə getməz eşqim.
Tükənməz, bitməz eşqim
Bir ürək naz üstədi.

Fələk məndən gen gəzər,
Ürəyində kin gəzər.
Başım üstə gün gəzər,
Anam namaz üstədi.

## GÖR NƏ GÜNDƏDİ

Tanrım, bu dünya ilə
Görüş, gör nə gündədi.
İstəyini, dərdini
Soruş, gör nə gündədi.

Şeytan girib qəlbinə,
Nə vaxt gələcək dinə?
Dününinə, bu günə
Qarış, gör nə gündədi.

Yollarını azanlar
Məqsədini nə anlar?
Bəxtin qanla yazanla
Qonuş, gör nə gündədi.

## YERİ BURAXMISAN

Başın ulduzlara qarışıbdımı?
Mələklərmi qatıb başını, Allah?
Deyirlər, deşilib göylərin damı,
Axıdır suyunu, daşını, Allah.

Yaraşmır dünyanın ahıl yaşına,
Haqsızlıq, cahillik məcrasın daşıb.
Yeri buraxmısan başlı-başına,
Bu dünya, insanlar allahsızlaşıb.

## ÜRƏYİN NECƏ DÖZÜR

Ən böyük qatil sənsən,
Doğulandan anları,
   günləri öldürürsən.
Ömrün dolaylarında
  cığırları, yolları,
   tinləri öldürürsən.
Vaxt elə tez ötür ki,
   çatammırsan yasına.
Ürəyin necə dözür
   hər anın vidasına.

## DÖZMÜRSƏN

Harada olmasa zarafat
Puç olar o ömür, puç olar o həyat.
( N. Həsənzadə )

Yenə zarafatın çəkdik bəlasın.
Zarafat götürmürsənsə,
mənimlə zarafat eyləmə, qardaş.
Soyuq suyunu üfürə-üfürə içib,
yaşa özünçün yavaş-yavaş.

Zarafat altında gizlənib
əbəs yerə sağa-sola söz atma,
girə bilməzsən qatıma.
Axı sən dözmürsən
mənası tonlardan da ağır olan
   zarafatıma.

## KİM HÖRDÜ

Ömür, sənin yollarına
Çəni kim hördü, kim hördü?

Bəxtin gah ağ, gah da qara. . .
Günü kim hördü, kim hördü?

Zaman illəri ötürər,
Kim qazanar, kim itirər?
Saçımızda bar gətirən
Dəni kim hördü, kim hördü?

Bağlayıb haqqa sədaqət,
Gəzirik tapaq həqiqət.
Yolumuza min təriqət,
Dini kim hördü, kim hördü?

## İRƏLİ

Hər yurdun, hər xalqın öz tarixi var,
Dünyaya səs salıb ünlü tariximim.
Babalar qeyrəti qanla suvarıb,
Qana qan istəyir qanlı tarixim.

Zaman bu dünyanın baxmaz yaşına,
İllərdən-illərə tarix daşınar.
Yazılıb xalqımın qan yaddaşına,
Hər daşda iz qoyub canlı tarixim.

Üçrəngli bayrağın qaldırıb başa,
Qeyrətin ruh verir torpağa, daşa.
Əbədi dalğalan, əbədi yaşa,
İrəli, irəli, şanlı tarixim.

## DÜNYAM

Dünyamı qurmuşam həqiqətimlə,
Yalandı, kim deyir yalandı dünyam.
Cahanı qızdırır məhəbbətimlə,
İlahi eşq ilə qalandı dünyam.

Keçib soyuğundan çovğunun, qarın,
Düşdü qovğasına namərd dostların.
Qəddini əymədi dünyanın varı,
Haqqın sınağında sınandı dünyam.

Sinəsin tarixə varaq eyləyib,
Haqqı əllərində çıraq eyləyib.
Haramı özündən iraq eyləyib,
Həmişə halala calandı dünyam.

Eşq ilə hörmüşdü daşı daş üstə,

Qaldırıb qoymuşdum başı baş üstə.
İllər şəlalədi yaşı yaş üstə,
Elə kərpic-kərpc talandı dünyam.

Dünya çox göstərib qurd sifətini,
Qurda yem elədi quzu ətini.
Sındıra bilmədi cəsarətini,
Qurdla qiyamətə qalandı dünyam.

## İLK DƏFƏ. . . .

İlk dəfə illərin astanasında
doğru buğ göyərən gün
bahara can atan havanın rayihəsi
    dəydi burnuma.
Baharın ətrini sevdim.
Sonra Həvva nənədən üzü bəri gələn
südün qoxusu çəkdi məni özünə sarı.
Südün qoxusunu sevdim.
Doğma yurdun ocağında qızındım,
    odunda yandım.
Ocağını sevdim, külünü sevdim.
Oxşaması, nazlaması yaşamağa səsləyən
Anamın layla deyən dilini sevdim.
Daha sonra
torpağın qoxusundan, suyun qoxusundan,
yağışın qoxusundan, günün qoxusundan,
qanunun qoxusundan, dinin qoxusundan
        keçdim.
Yaxşısını sevdim, yamanı seçdim.
Nəhayət,
bir qadın ətrinə vuruldum.
Torpağın, suyun qoxusunu,
havanın, odun qoxusunu,
çörəyin, südün qoxusunu
    ondan alıram bu gün.
Bütün ətirləri qadında birləşdirmisən, İlahi!

## DONSUN YERİNDƏ ZAMAN

Kaman ustası Tariyel, tatzən Əbülfəz və
xanəndə İmanverdi Ağayevlə 27. 09. 03-cü
il tarixindəki gözəl dəqiqələrin təəssüratı

Eşq- sənət yolunu tutandan bəri
Səsinə qidadır alnının təri.
Muğamın gücüylə qoy kafirləri
Gətirsin imana İman, Tariyel.
Çal, donsun yerində zaman, Tariyel.

Bu necə yanğıdır, bu necə həvəs,
İlahi qudrətdən yoğrulub bu səs.
Ruha qida verir tarzən Əbülfəz,
Çəkilir başımdan duman, Tariyel.

Çal, donsun yerində zaman, Tariyel.

Bağlıyıq biz Tanrı məhəbbətinə,
Bu eşq yollarında düşdük çətinə.
Səs versin qəlbimin yar həsrətinə,
Qoy bir az ağlasın kaman, Tariyel,
Çal, donsun yerində zaman, Tariyel.

Ən böyük həqiqət Tanrının əmri,
Zamana sığışmır sənətkar ömrü.
Əridib mum edir daşı, dəmiri,
Çaldığın hər mahnı, inan, Tariyel.
Çal, donsun yerində zaman, Tariyel.

Səs-sözdən yaradıb bir ilahi rəng,
Tanrı bu dünyaya veribdir ahəng.
Bu sənət yolunda eyləyərək cəng
Verməriк namərdə aman, Tariyel.
Çal, donsun yerində zaman, Tariyel.

Tarzən Əbülfəzim kökləyib tarın,
Muğam İmanverdi paylayır barın.
Bu səsdi, bu sözdü dünyanın varı,
Namərddir başqa şey uman, Tariyel.
Çal, donsun yerində zaman, Tariyel.

## ÜZ TUTUB GEDİRƏM. . .

Başımı dağlar tək saxlamaq üçün
Üz tutub gedirəm dağlara sarı.
Belimi dağlara bağlamaq üçün
Üz tutub gedirəm dağlara sarı.

Bu dünya, bu həyat dörd misra ağı,
Atəşdi havası, suyu, torpağı.
Çiynimin üstündə dağ ağırlığı,
Üz tutub gedirəm daglara sarı.

Dedim dağ dərdimi dağlara deyim,
Sözümdən çəkilsin dağ dara, deyim.
Sirrimi sinəsi dağlara deyim,
Üz tutub gedirəm dağlara sarı.

Açsın haqq sinəsin qoy xalı dağlar,
Qıymasın, qəlbimdə xal xali dağlar.
Haqqa arxa olar arxalı dağlar,
Üz tutub gedirəm dağlara sarı.

Demə maneədir durdu qarşıda,
Göylərə baş vuran Turdu qarşıda.
Haqqı bəyan edən nurdu qarşıda,

Üz tutub gedirəm dağlara sarı.

Dərdim dağa döndü, bilmədi dağlar,
Gülünc taleyimə gülmədi dağlar.
Çağırdım yanıma gəlmədi dağlar,
Üz tutub gedirəm dağlara sarı.

ÖZÜNƏ

BAĞLANAN QAPI

Yag içib yağlanan qapı,
Dağ olub dağlanan qapı,
Açarın öz əlindəmi,
Özünə bağlanan qapı?

Taxta başınla şelləndin,
Saxta sözünlə dilləndin.
Elə havada yelləndin,
Özünə bağlanan qapı.

Kimlər səni duyub açdı,
Kimlər səni öyüb açdı,
Kimlər səni döyüb açdı,
Özünə bağlanan qapı.

Söz ol, sözünə açılar,
Düz ol, düzünə açılar.
Düzəl, üzünə açılar,
Özünə bağlanan qapı.

SAMAN ÇÖPÜ

Göylər qaraldıb buludun,
Yerlərin gözü suludu.
Əziyyətli haqq yoludu
Mənim yolum, saman çöpü.

Bu dünya şər qavalıdı,
Səsli, küylü, nəvalıdı.
Hələ şeytan havalıdı
Sağım, solum, saman çöpü.

Hər gələnin öz adı var,
Köləsi var, azadı var.
Həyatın bir təzadı var--
Ölüm- olum , saman çöpü.

Silahım haqq, yox bir hiyləm,
Vuruşuram yerlə , göylə.

Boğuluram, kömək eylə,
Ağrın alım, saman çöpü.

## HƏR ŞEYİN RƏNGİ VAR

Həyatda hər şeyin rəngi var,
  elə rəngsizliyin də. . .
Ən çox rəng çeşidi olanı isə
  bəlkə də dərddi.
İnsanların sayı qədərdi
  dərdlərin rəngi.
Bəlkə, ondan da çoxdu.
Çünkü artandı,
  yoxdu sərhəddi, səddi.
Çünkü hər ürəyin
  sevinci, kədəri olduğu kimi
  həsrət dərdi, sevgi dərdi də var.
Çünkü hər kəsin öz dərdi ilə yanaşı
  özgə dərdi də var.
Dünyanın bütün rəngləri kimi
  Dərdin rənglərini də
  iki boya birləşdirir: qara və ağ.
Həyatda qaranın üzünü köçürəndə
  "ağlama" deyirik.
Bir məsələni çox qaraldanda
  "ağ eləmə" deyirik.
Ağ işıq bütün rənglərin varlığı,
  qaranlıq rənglərin yoxluğu kimidi.
Dərdin çoxluğu da
  elə həyatın ağlığı kimidi.

## BU KÖHNƏ SÖZLƏR İÇİNDƏ

Dəyirmanım söz üyüdür
Bu köhnə sözlər içində.
Sözüm tanrı hay- küyüdür
Bu köhnə sözlər içində.

Bu dünyaya baxım necə?
Ildırım tək çaxım necə?
Bilməyirəm çıxım necə
Bu köhnə sözlər içindən?

Gah böyüdüm, gah kiçildim.
Dolmuş zəmitək biçildim.
Ağdan , qaradan seçildim
Bu köhnə sözlər içində.

Söz ovladım, sayad oldum,
Adım qaldı, soyad oldum.
Təzə idim, boyat oldum
Bu köhnə sözlər içində.

Zaman, suyunla yoğruldum,
Saman, hardasan, boğuldum.
Öldüm, təzədən doğuldum
Bu köhnə sözlər içində.

XXXXX

Ömrün yollarında küləktək əsir
Üzü bərk, gönü bərk, qəliz adamlar.
Neçə bəd niyyətlə arxamca gəzir
Içi qov adamlar, giliz adamlar.

Həyatda gah şaxta bərkidib məni,
Gah da bərkiməkcün odda yanmışam.
Ömür bərk şütüyən sürət qatarı,
Bərkdən-boşdan çıxıb, bərk dayanmışam.

## QIŞ İÇİNDƏ

Cüt atıldın, qoşa düşdün,
Quru çıxdın yaş içindən.
İşdən çıxıb işə düşdün,
Iş gəzirsən iş içində.

Əzablıdı haqqın yolu,
Düz yaşamaq çətin olur.
Güclüdü həyatın qolu,
Su çıxardar daş içindən.

Çıxarıb ağıl dişini,
Cütləginən şeş-beşini.
Bil ki, dünya atəşini

Gizlədibdi qış içində.

## ÜZÜ QİBLƏYƏ

Şair Aqil Yaquba

Biz dünyaya belə gəldik:
Üzümüz üzüqibləyə.
Gələn andan yol gedirik
Üzümüz üzü qibləyə.

Bu nə oddu, bu nə közdü,
Kimlər yandı, kimlər dözdü?
Babalardan qalan izdi
İzimiz, üzü qibləyə.

Biz şairik, şər deyilik,
Bəlkə də bəşər deyilik.
Allahu Əkbər deyirik,
Sözümüz üzü qibləyə.

## YOLU AZSAM

Yaratdığın bu dünyanı
Məgər görmür gözün, tanrı?
Haram haqqı üstələyir,
Buna necə dözüm, tanrı?

Neyləyərsən dilin yoxsa,
Ya bir arxan, belin yoxsa?
Bu dünyada pulun yoxsa,
Keçməz bircə sözün, tanrı.

Haqq ilə qaynayır qanım,
Haram götürməyir canım.
Rüşvət alım, haqqı danım. . .
Gəlməz buna üzüm, tanrı.

Təzə ruh ver, gəlim cana,
Yolu azsam, onda qına.
Məni var-dövlətlə sına,
Açılsın hər üzüm, tanrı.

Daş qaralar ocaq yansa,
Ürək susar haqqı dansa.
Pulsuzluqdan azmaqdansa,
Pulum olsun azım, tanrı.

## BULUDLAR

Bənzərsiz bir durna köçünə,
A doğru, a yalan buludlar.
Güvənib dünyanın gücünə,
A dolan, boşalan buludlar.

Nə sirdir görünmür heç izin,
Qoynunu günəşə aç, isin.
Çəkərək torpağın acısın,
Ağaran, qaralan buludlar.

Gözəlsiz- köynəyi sökülən,
Utanıb yığılan, bükülən.
Ah olub dağlara çəkilən,
Düzlərdə şeh olan buludlar.

Dağ varmı enişsiz, yoxuşsuz,
Nə olar başımdan yığışsız.
Yazımda şimşəksiz, yağışsız,
Qışımda qar olan buludlar.

## SƏMADA

Çarxı fırlandı fələyin,
Kimlər azdı səmada.
Yol gələn durna lələyi
Gör nə yazdı səmada.

Küləklər dolanıb keçdi,
Buludlar ələnib keçdi.
Ürəklər qalanıb keçdi,
Gün də qızdı səmada.

Gecəsinə salam dedim,
Bir işıqlı kəlam dedim.
Mən də haqqa yolam dedim,
Yolum düzdü səmada.

Üzümdə haqqın işığı,
Sözüm düz, başım aşağı.
Yeddi rəngli göy qurşağı
Olubdu izim səmada.

Günəş kimi çatıb ocaq,
Haqqın yerin verir soraq.
Min il sonra oxunacaq,
Yazılıb sözüm səmada.

## QƏFƏS İÇİNDƏ

Süleymanlar at oynadır,
Qarışqa, qəfəs içində.
Meydan quran it oynadır,
Alış, qal qəfəs içində.

Yalquzaq dünya tək qalıb,
Əl uzanıb, ətək qalıb.
Hər ömür dünya tək qalıb
Darısqal qəfəs içində.

Nə qədər olsan da mətin,
Düz olub yaşamaq çətin.
Köməyindi qənaətin,
Bariş, qal qəfəs içində.

## AĞLA BELƏ, GÜL BELƏ

Həsrət dolu günlər dönüb ay oldu,
Ötürdüyün zaman belə, il belə.
Çiçəklərin bahar ömrü yay oldu,
Ləçək-ləçək küləkləndi gül belə.

Baxışların ürəyimi dağladı,
Şövqə gəlib ümman kimi çağladım.
Zəvvar olub sənə ürək bağladım,
Sənsə susub anlamadın dil belə.

Dağlarıma göylər kimi yaxındın,
İnam gedib, ümidimiz yox indi.
Ürəyimdə sarı simə toxundun,
"Kərəmi"tək haray saldı tel belə.

Elə sanma inadımdan dönmüşəm,
Pərvazlanıb zirvələrə qonmuşam.
Eşq odunda Kərəm kimi yanmışam,
Harda gördün şirin dadır kül belə.

Ömür yolu gah sevincdi, gah da qəm,

Dərd çəkməklə inləmədim bircə dəm.
Ya hönkürdüm, ya kükrədi qəhqəhəm,
Ay Ağamir, ağla belə, gül belə.

## PAYIZ DÜŞÜNCƏLƏRİ

Yaz ötüb son bahardır, olubdur ömür yarı,
Payıza köklənibdir ömrün şıltaqlıqları.
Tənhalıqdan üşüyür şehə batmış çöl-çayır,
Payız ömrü yaşayır həm qəlbim, həm də bayır.
Hörümçək tək tor qurub ömrü ovlayır zaman,
Dağlar kimi bürüyüb ətrafımı çən, duman.
Həsrət nəğməsi ötür küləyin qəmli səsi,
Qovulmaqdan təngiyib buludların nəfəsi.
Ağaclar yarpaq-yarpaq paylayır “kart”larını,
Açır qaraçı gecə bu payızın falını.
Zəif-zəif işarır ulduzların işığı,
Yersiz bir təkəbbürlə baxır göydən aşağı.
Ovçu ay yayın çəkib qaranlığı ovlayır,
Bir vaxt qovduğumuz vazt indi bizi qovlayır.

## ELƏ GƏLDİM

Min il əvvəl necə idim
Elə gəldim, əzizim.
Eşqin həyat bağçasına
Gülə gəldim, əzizim.

Susammadım bircə kərəm,
Eşq odunda yanır kürəm.
Məcrasını daşan Kürəm,
Selə gəldim, əzizim.

“Çahargah”am zildə ötən,
Haqq yolunda cəngə gedən.
Tar üstündə üsyan edən
Telə gəldim, əzizim.

Susamışdın için-için,
Bir ürək eşq verdim, için.
Haqqı bəyan etmək üçün
Dilə gəldim, əzizim.

Əzəl gündən sona kimi
Sənsən qəlbin son hakimi.
Bir yaşılbaş sona kimi
Gölə gəldim, əzizim.

Eyni ruhda iki canıq,
Bir ürəkdə axan qanıq.
Kərəm kimi eşqi yanıq
Külə gəldim, əzizim.

## BİLMƏDİM

Bu dünyaya yasa, yoxsa
Toya gəldim, bilmədim.
Hər gələn bir hay eylədi,
Küyə gəldim, bilmədim.

Qazancını elə çəkən,
Karvanını yola çəkən.
Bölüm- bölüm nalə çəkən
Neyə gəldim, bilmədim.

Neçə qərib adda yandım,
Qəzəl kimi udda yandım.
Torpaq oldum, odda yandım,
Suya gəldim, bilmədim.

Qəlbi yaralı dünyaya,
Ayı paralı dünyaya,
Ağlı-qaralı dünyaya
Niyə gəldim, bilmədim.

## NƏ GƏZİRSƏN

Nə gəzirsən qarışqatək
Daşınmış xırman içində.
Haqqı nə dünyada gördün,
Nə tapdın insan içində.

Arxa sudu, qarşı sudu,
Dəyirmanın çarxı sınıb.
Almaq olmur qarşısını,
Su axır saman içindən.

Yol gedirik intizarla,
Kimi eşqlə, kimi varla.
Şübhələrlə, suallarla
Qalmışıq güman içində.

Həqiqətin yolu qandı,
Öz haqqını kimlər dandı?
Dünya açıq bir zindandı,
Nə gördün zindan içində?

Sudan keçib, gildən çıxıb,
Odda yanıb, yeldən çıxıb.
Tövratdan, İncildən çıxıb,
Ölmüsən Quran içində.

İçib Cəmşidin camını,
Dadmısan dünya tamını.
İtirsən də inamını,
Qorunur iman içində.

## DAŞ DAMIR

Hər sirrə baş vuran daşı gördülər,
Haqqa daş atdılar, daşı yordular.
Namərdlər mərdliyi daşa hördülər,
İndi divar damır, daş damır, baba.

Yoxdan var olmuşuq, nədir varımız?
Hələ içimizdə qalıb qorumuz.
Daşdan su çıxaran babalarımız
Qan sızan daşlara daş demir, baba.

Torpaqlar bölünüb o tay, bu tayda,
Mən necə oynayım, söylə, bu toyda?
Səbrimiz turşudu, ancaq nə fayda?
Heç kəs ayranına turş demir, baba.

Əyilməz səbrimiz daş, dəmir idi,
Daş da Ağa idi, daş da Mir idi.
Ən gözəl adımız Daşdəmir idi,
Yumşalır, yumşalır Daşdəmir, baba.

## CİNAYƏTKAR MƏLƏK KİMİ

Qərənfillər bitən yerdə güllələr də gül açır,
Çırpınırıq, döyünürük ürək kimi, qardaşım.
Zamanın ağ yalanları həqiqət tək dil açır,
Həqiqət də ayaq açır kələk kimi, qardaşım.

Məcnunlaşdıq, dahiləşdik eşqin həsrət dağında,
Bir həqiqət möhrü vardır qaranın da, ağın da.
Hirsimizin qanad açan dəli-dolu çağında
Dolanırıq bu dünyanı külək kimi, qardaşım.

Yağışından, günəşindən qüvvət alsın gərək dən,
Qanunlarla bağlanırıq açılandan bələkdən.

Zəmanənin övladı tək ibrət alıb fələkdən
Odlayırıq bu dünyanı fələk kimi, qardaşım.

Ürəkləri dardan asıb hörükləyən dünyada,
Dar məqamda dərdi-qəmi körükləyən dünyada,
İnsanları cinayətə sürükləyən dünyada
Yaşayırıq cinayətkar mələk kimi, qardaşım.

## Dİ VUR YUMRUĞUNU

Əməkdar məşqçi, Beynəlxalq dərəcəli
hakim , boks ustası Əlizadə Əsədova

Bu dünya ən böyük döyüş meydanı,
Şair də döyüşür, siyasətçi də.
Min ildi gəzirik, ədalət hanı?
Niyə haqq umuruq siyasətçidən?

Şeytan tütəyini çalır siyasət,
Hiyləsi samandan su yeritmədə.
Əyri kəsə gedib tez çatır fəqət,
Haqqın dümdüz yolu uzundur nədən?

Gedir hökümranlıq, rəyasət oyunu,
İncil də, Quran da siyasətləşib.
Hər döyüş oyundur—siyasət oyunu,
Şeir də, idman da siyasətləşib.

Bizə taleyinmi tutub qəzəbi?
Duzlu söz deyənin ayağı duzda.
Gərilib zamanın hirsi, əsəbi,
Ağrısı yığılıb yumruğumuzda.

Barmaqlar birləşib yumruğa dönür,
Hissimiz, sevgimiz coşqun bir dəniz. . .
Yumruğa dönəndə böyük oluruq,
Yumruğa dönəndə birləşirik biz.

Gərillik səbrimiz coşub- daşanda,
Söz də nakauttək hədəfə dəyir.
Həyatda haqsızlıq həddi aşanda
Ədalət sözünü yumruqla deyir.

Dünya döyüş yeri, boşalar, dolar,
Çəkilər qaranlıq, açılar səhər.
Dünyada ədalət qələbə çalar
Yumruğa dönəndə haqqı sevənlər.

Eşqindən, səbrindən bir az güc ayır,
Səs yer həqiqətin şir nərəsinə.
Bu dünya yenə də meydan sulayır,
Di vur yumruğunu Yer kürəsinə.

## ALDANDIM ELƏ

Soyundu bəyaz tülünü,
Tikan gördüm tər gülünü.
Çıxartdı haça dilini,
İlana aldandım elə.

Tamah dişlərimi çəkib,
Ayırardım tükdən-tükü.
Şirniyə aldanan təki
Yalana aldandım elə.

Düzlük olub əzəl andım,
Qurunun oduna yandım.
Sözlərindən mələk sandım,
Şeytana aldandım elə.

Özümə oldum arxayın,
Dost dediyim çıxdı xain.
Qarışdırıb yasın-toyun
Cahana aldandım elə.

## KÖNÜLƏM MƏN

Tale kitabında ömrü oxunan,
Eşq ilə çağlayan ayam, iləm mən.
Nəfəsi məhəbbət, çiçək qoxuyan
Nəğməsi tükənməz bir bülbüləm mən.

Araz lil gətirib ana Kürəmi?
Dönüb Ziyad xanın oğlu küləmi?
Yanır ürəyimdə “Yanıq Kərəmi”
Saz üstə köklənən “Sarıtel “əm mən.

Qədiməm, hər eldə dəbim görünür.
Təzəyəm, tər-təzə təbim görünür.
Dərinəm, amma ki, dibim görünür,
Sanma dayazlartək suyuliləm mən.

Odasın qurubdu yar ürəyimdə,
Haqqı axtarırsan, yar—ürəyimdə. . .
İlahi məhəbbət var ürəyimdə,
Eşq ilə döyünən bir könüləm mən.

## KİÇİLDİN

“ Bir nəfərə. . . ” silsiləsindən

Çox “haqq-haqq” söyləmə yalandan, yetər,
Haqqın düz yolunu azıb kiçildin.
Səndən haqq umurdu haqq diləyənlər,
Haqqı görə-görə susub kiçildin.

Sözün ürəklisə əmanətindir,
Dilin ürəklisə zəmanətindir.
Küsmək ki uşaqlıq əlamətindir,
Elə uşaq kimi küsüb kiçildin.

Min cavab gizlənir hər qatı sirdə,
Çox “ınən-mən” deyənlər qalıbdı girdə.
Tək qalsa, uduzar pələng də. şir də,
Dostluğu, ülfəti kəsib kiçildin.

Gəzmə bu cahanda ədalətli taxt,
İşığı olmayan axtararmı baxt?
Öz kölgən olmadı həyatda heç vaxt,
Başı qoltuqlara qısıb kiçildin.

Minib köhlənini öz yolunla sür,
Çəkdiyin əzaba söylə min şükür.
Ucalmaq istəyən nəfsin öldürür,
Özünü nəfsindən asıb kiçildin,

## EŞQİMİN ADI ALTINDA

Arayıb yaxşı-yamanı,
“Can”deyib odladım canı.
Quruldum böyük zamanın
Sevgi saatı altında.

Tapındım eşq adlı dinə,
Düşdüm haqqın tilsiminə.
Özümə eylədim binə
Sözün qanadı altında.

Tanrı deyib "Ol", gedirəm,
Sağ gedirəm, sol gedirəm.
Haqqa doğru yol gedirəm
Eşqimin adı altında.

## AY DƏRD

İlləri yelə verdik,
Yaşın sağ olsun, ay dərd.
Dağıma qar elədin,
Qışın sağ olsun, ay dərd.

Zirvəsindən gün doğan,
Göyə baş vuran dağam.
Başıma göydən yağan
Daşın sağ olsun, ay dərd.

Sözə çevrilən səsəm,
Qoyma inciyəm, küsəm.
Bir gün ölüb gedərsəm,
Başın sağ olsun, ay dərd.

## GÜLASIM

Hacı Mirhaşım Talışlının "Gülas" çiçəyinə

Gözəllər gül kimi gül açan vədə

Gəl, gülüm, boynundan gözəl gül asım.
Gözəllik gəzirəm hər nümunədə,
Gözəl, gözəl danış, gözəl gül. asım.

Gülə dəyər verməz qızıl gül kimi,
Gülas kimi səslər, qızılgül kimi.
Gül açar yanağı qızılgül kimi,
Görsə hüsnünü hər gözəl, gülasım.

Gülür gözlərində gözəl-gözəl dən,
Gül tək gözəl olur, gözəl, göz əldən.
Gül ki , şövqə gəlim gözəl gözəldən,
Gözəllər gözəli gözəl gülasım.

## HALALDIR

Ən ülvi gözəllik üz ağlığıdır,
Üzün üz ağlığı üzə halaldır.
Ömür ötən yolun uzaqlığıdır,
Əbədi iz qoymuş izə halaldır.

Eşq ilə artırar könül varını,
Dərin dəryalarda qurar torunu.
Dünya buz altında bəslər qorunu,
Eşqin ocaq çatan közü halaldır.

Gəzirik min arzu, həvəs içində,
Nəfəs axtarırıq hər səs içində.
Söz qala bilməyir qəfəs içində,
Sözün azadlığı sözə halaldır.

İnsan əməyilə salar səs-səda,
Yaxşılıq, yamanlıq qalar dünyada.
Bütün oğurluqlqr haram olsa da,
Gözəl oğurluğu gözə halaldır.

Nəğməkar sayılmır hər yoldan ötən,
Aşiqdir ilahi eşqinə yetən.
Sevgidən yazanda elə yaz ki sən,
Desinlər, Ağamir, sizə halaldır.

## GƏLƏR

Bu kədər, bu sevinc hardandı belə,
Kədər də, sevinc də sözə tən gələr.

Vətən də anatək bağlıdır belə,
Məhəbbət bölünməz, bizə tən gələr.

Zirvələr fəth edər izin qoşası,
Sözə arxa olar sözün qoşası.
Ocağı yandırar közün qoşası,
Köz közün üstündə közə tən gələr.

Nə qədər olsan da ağıllı, zirək
Eşqin atəşində yanasan gərək.
Göz gözə göz qoyar, alışar ürək,
Ürəyin sevdası gözə tən gələr.

Utancaq sevgilər sözlə qızarmış,
Ürəkdən sevməyən yolun azarmış.
Çox üzlər görmüşəm üzü bozarmış,
Yanağın allığı üzə tən gələr.

Yaxşı tanımaqçün sən sağı, solu,
Sözündə ağa ol, ol haqqın qulu.
Ağamir, sadiqlər düz gedər yolun,
İz düşər iz üstə izə tən gələr.

## SƏNDƏN

Dünya sirli dar ağacı,
İpi bəxtdən, başı səndən.
Ulağının yükü ağır,
Bizi oxdan, "hoş"u səndən.

Gah ağlayar, gah da gülər,
Baxtı ələyində ələr.
Qəfəsində kömək dilər
Bu dünyanın quşu səndən.

Hər yetənə çələng hörməz,
Kimi görər, kimi görməz.
Aş verəndə iştah verməz,
İştah versə aşı səndən.

Yoxuşunda səni sınar,
Zirvəsini təpə sanar.
Xəşilində barmaq sınar,
Daş yeyəndə dişi səndən.

Sözünü üzə söylərsən,
Yalanın gözə söylərsən.
Beşi razılıq eylərsə,
Razı qalmaz beşi səndən.

Arşınıyla ölçər-biçər,
Minindən birini seçər.
Ay Ağamir, gəlib keçər

Bu dünyanın işi səndən.

## ÜZÜM NUR ALIBDIR

Yerin də, göyün də hərəkətdədir,
Dünya güc alıbdır sözündən, Allah.
Qışın da yazıntək bərəkət dadır,
Bizi yaratmısan tozundan, Allah.

Eşqin xalçasını sərib dünyaya,
Min naxış, min bəzək vurub dünyaya.
Bu doğma dünyaya, qərib dünyaya
Baxırıq eşqinin gözündən, Allah.

Bu dünya bizləri aldadır elə,
Odur ki, başımız qaldadır elə.
Duzun, şəkərin də bal dadır elə,
Doymuruq dadından, duzundan, Allah.

Eşqin qəlbimizdə çatmış od, ocaq,
Daddıq iztirabı hey qucaq-qucaq.
Bizləri gözəllik yaşadır, ancaq
Öllük gözəllərin nazından, Allah.

Varsan, var edənsən, hökm, qürursan,
İlkdə “Ol” kəlməsi, son ucda “Sur”san.
Ruhu nur, eşqi nur, əməli nursan,
Üzüm nur alıbdır üzündən, Allah.

## HAQQ ÜÇÜN. . .

Gələn gedər, gedən gəlməz,
Bu sirri bilən adamam.
Qisməti haqq mizanında
Bərabər bölən adamam.

Şairliyim günahımdı,
Haqq-ədalət pənahımdı.
Təbəssümüm silahımdı,
Hər dərdə gülən adamam.

Odla, suyla yoğrulmuşam,
Nur selitək dağılmışam.
Məhəbbətçün doğulmuşam,
Haqq üçün olən adamam.

## YANILMA

Saman altdan su yeridən,
Yanılma, saman deyiləm.
Çox cu gəlib keçıb məndən,
İndi ta haman deyiləm.

Çox dərdləri uddu sinəm,
Saf sulara yurddu sinəm.
Nə sən mənsən, nə mən sənəm,
Hər qəlbə daman deyiləm.

Dünyanın suçuna sığan,
Yağmuru bətninə yığan,
Dəryalar içinə yağan
Bir qara duman deyiləm.

## GƏLDİM

Tanrım, sənin dərgahına
Haqq odunda yanıb gəldim.
Min il əvvəl bağladığım
Əhd-peymanı anıb gəldim.

Haqq yolundan düşdüm uzaq,
Döydü məni boran, sazaq.
Azmadım, qaldım üzüağ,
Yenə haqqa dönüb gəldim.

Daddım dünya qazanından,
Yağlısından, yavanından.
Keçib Nuhun tufanından,
Ağrıdağa qonub gəldim.

Düşdüm yolların ağına,
Qalxdım Sina, Tur dağına.
Dönərək nur çırağına
Bu dünyaya enib gəldim.

## ŞAİR

Hər bir maneəni keçdin dözümlə,
Təmiz ürəyinlə, gülər üzünlə.
Elə söz söylə ki, sənin sözünlə
Desinlər bu dünya düzələr, şair.

Düşüb bəm notuna həyatın zili,
Rüşvətlə açılır zamanın didi.
Soyulan Nəsimi, dərdli Füzuli
Necə dözüblərsə döz elə, şair.

Ozanlar söz deyib sazın diliylə,
Hələ də yol gedir Kərəm külüylə.
Ədalət tapdanır nadan əliylə,
Qoyma haqq əyilə, düz ölə, şair.

Zamanın nə qədər sərtsə gərdişi,
Haqqını qoruyub saxlasın dişin.
Zəkandan boylanar haqqın günəşi,
Hər iş nizam ilə düzülər, şair.

## SƏN KİMİNSƏN

Mənim evim yoxdur,
məhəbbətim var.
Onun sevgisi yox,
imarəti var.
Mən qurban gedərəm
elin yolunda,
Onun el malına
xəyanəti var.

Min pay bölmək olar
varı, sərvəti,
Ancaq ki məhəbbət
bölünməyir tən.
De. harda axtaraq
bəs səadəti,
Axı sən kiminsən,
Vətən, ay Vətən?

## NƏ VAXT

O qəmlər ki mənim vardır bəirin başına qoysan,
Çıxar kafər cəhənnəmdən, gülər əhli-əzab oynar.
M. Füzuli

Bu dünya dəvənin boynuna bənzər,
Soruşsan, deyəcək haram düzdü ki?
Kələyi fələyin oynuna bənzər,
Nəyə sıra verdi, nəyi düzdü ki?
Sırası pozulmuş, bəndi dağılmış,
Dumanda yol azmış, çəndə boğulmuş
Bir qərib, sərsəri yolçudu dünya.
Sola meyl edirsən, sağa boylanır,
Sağa meyl edirsən, solçudu dünya.

Namərd qoltuğunda yatıb dincələr,
Başın qorumaqçün sözündən keçər.
Nə zaman düzələr, nə vaxt incələr,
Nə zaman iynənin gözündən keçər?
Qarışıb xeyiri, qarışıb şəri,
Astarın dəyişib nimdaş üzüylə.
Öz azğın yoluna çəkib bəşəri,
Hələ ki yol gedir şeytan iziylə.

Özün haqlı sayır, yolun düz bilir,
Bulaşıb halala haram, düzdü ki?
Dəvənin boynuna bənzər bu dünya,
Soruşsan, deyəcək haram düzdü ki?

Boynuna yüklənmiş bu qədər qəmə
Necə tab eyləyib dözər bu dünya?
Hələ hislərini qoyubdur dəmə,
Azmış qadın kimi gəzər bu dünya.
Hələ ki üzünə çəkibdir boya,
Toruna salmaqçün nazından keçər.
Nə zaman incəlib düzələr dünya,
Nə zaman iynənin gözündən keçər?
Şeytanın hökmünə qurulubdu taxt,
Mələklər göz yaşın boğub oynayar.
Kafər cəhənnəmdən çıxacaq nə vaxt,
Mə vaxt əzab əhli gülüb oynayar?

## QƏDRİMİ BİLMƏDİN

"Bir nəfərə. . . " silsiləsindən

Həyatda çox sular bulandırmısan,
Dumduru suyumdan içmə, a zalım.
Etdiyin günahlar çıxıb qarşına,
Məşum taleyindən qaçma, a zalım.

Haqlını haqsıza satmaz Allahım,
Gün döyməz dağları əritdi ahım.
Yanında bir azca varsa günahım,
Keçmə günahımdan, keçmə, a zalım.

Dadmışıq həyatın zəhərin, balın,
Çıxmışıq içindən min qeylü-qalın.
Qədrini bilmədin çəkdiyim yolun,
Bir də bu yollardan keçmə, a zalım.

Üzümə qalırsan elə nahaqdan,
Ürəyim ağrıyır çəkilən dağdan.
Seçə bilmirsənsə qaranı ağdan,
Yaxşını yamandan seçmə, a zalım.

O qədər kiçildin sən üzü dönmüş,
Boyunu ölçməyə tapılmaz qəmiş.
Qəlbinin pasını təmizləməmiş
Barı bu dünyadan köçmə, a zalım.

## XEYİRLƏ ŞƏR ARASINDA

Sübh qapısın gün döyəndə

Qapımızda falçı durur.
Arşınımız əyiləndə
Aşığımız alçı durur.

İnsanı dərd-qəm əyəndə
Hər şeyə dözür, - deyirlər.
Tanrı bir yandan üzəndə
Bir yandan düzür, - deyirlər.

Eşq ilə dolan ürəyəm,
Ömrü vermişəm küləyə.
Kiminə lazım deyiləm,
Kiminə hər an gərəyəm.

Bəzən qalır üzüm şanı,
Pay umuruq qorasından.
Dolanırıq bu dünyanı
Xeyirlə şər arasında.

## ŞEYTANA SALAM VERMƏDİM

İmanından bina hördüm,
Eşq odundan artdı dərdim.
Adəminə salam verdim,
Şeytana salam vermədim.

Həsrət çəkən ürək imiş,
İşi- gücü kələk imiş.
Şeytan da bir mələk imiş,
Şeytana salam vermədim.

Bu ünvanın adı səhvim,
Bu ocağın odu səhvim.
Tanrı, bəlkə, budu səhvim,
Şeytana salam vermədim.

## BAXMIR

Dünya daim qurar qəm saatını,
Qoyun boğazına salar çatını.
Fələk yəhərləyib zaman atını,
Dabanın nallayıb dala da baxmır.

Araza lil axdı günün birində,
Odur ki, bulanıb suyu Kürün də.
Sədaqət azalıb görüş yerində,

Var gəzən gözəllər gülə də baxmır.

Min oyun oynayır məzhəblər, dinlər,
Quş tutmaq eşqiylə səpilir dənlər.
Haqdan, təriqətdən söhbət edənlər
Gözə kül üfürür, yola da baxmır.

Olsan da nə qədər qeyrətli, mətin,
Rüşvətsiz, minnətsiz yaşamaq çətin.
Talayır vətənin varın, sərvətin,
Qudurmuş köpəklər yala da baxmır.

Tanrım, qüvvət alıb doğru sözündən,
Həmişə keçmişəm yolun düzündən.
Hər şey Ağamirin düşüb gözündən,
Qurulmuş bu qeylü-qala da baxmır.

.

## MEYXOŞ ABDULLAHIN 50 İLLİYİNƏ

1

Ay Meyxoş Abdullah, bu da əlli yaş,
Hər yaşda bir hikmət, məzə qalanmış.
Bulanmaz qəlbimiz təzədi, qardaş,
Hələ ocağımız təzə qalanmış.

Eşqi dünyamızın məhvəri sandıq,
Yatmışdıq, ilahi səsə oyandıq.
Bir ala gözlünün oduna yandıq,
Qəlbimiz bir ürək közə qalanmış.

Hünər meydanımız—aslan bərəsi,
Sönməz qəlbimizin yanar kürəsi.
Açıb niqabını ilham pərisi,
Təbimiz ilahi sözə qalanmış.

Bir göz qırpımında ötüşür ömür,
Qalan bir yaxşılıq, bir ali sözdür.
Əlli yaş elə san gəncliyimizdir,
Qocalıq qisməti yüzə qalanmış.

11

Ay Meyxoş Abdullah, bu da 50 yaş,
Qələmi qılınc et, göylərlə savaş.
Hələ yol gedirik məqsədə, qardaş,
Qalsın qollarında qüvvət 50 il.

Hər kim ki aşiqlik yolunu seçdi,

Elə bil dirilik suyunu içdi.
Günün məhəbbətlə, eşq ilə keçdi,
Yatıb ürəyinə əlbət 50 il.

Başın qar gətirən çəndən qorunsun,
Yolların, şəfəqə, nura bürünsün.
Dünya hər an sənə gözəl görünsün,
Açsın gözlərini heyrət 50 il.

Demirəm illərə minnətin olsun,
Hərdən giley eylə, qeybətin olsun.
Daha bir 50 il qismətin olsun,
Başlayaq bir daha ülfət 50 il.

İlham köhləninə olmuşuq süvar,
Bu eşq aləmində dünya bizə dar. . .
Qarşıda nə qədər günlərimiz var,
Hələ edəcəyik söhbət 50 il.

## OĞUL

Ağanurun 15 yaşına

Sənsən bulanmayan saf məhəbbətim,
Eşq illə döyünən ürəyim oğul.
Sənlə yaşa dolur arzum, niyyətim,
On beş yaşa dolmuş çiçəyim oğul.

Ömrünə təzəcə gəlmiş ilk bahar,
Çalış ki, gətirsin arzuların bar.
Mənimsə yaşıma yoxdur etibar,
Bir gün ələnəcək ələyim, oğul.

Ta uşaq deyilsən, dolmusan yaşa,
Sevil, məhəbbətlə, hörmətlə yaşa.
Qoyma ümidlərim toxunsun daşa,
Qıyma heçə dönsün əməyim, oğul.

Ömrü yelə vermə bu ayla, günlə,
Səbrlə, təmkinlə gəl məni dinlə.
Ağlın, fərasətin, məhəbbətinlə
Gərək sən olasan köməyim, oğul.

Həmişə şax dursun boyun, qamətin,
Asan bildiyini sanginən çətin.
Daş kimi möhkəm ol, polad tək mətin,
Axı daşdan çıxır çörəyim, oğul.

Daimümman kimi coşub çağladım,
Eşqim, idrakımdan kitab bağladım.
Səninçün bir dünya hikmət saxladım,
Qoy hədər getməsin biliyim, oğul.

Çayam, məcrasını daşan selim ol,
Bülbüləm, nəğmətək ötən dilim ol.
Düşünən beynim ol, vuran əlim ol,
Daha möhkəm olsun biləyim, oğul.

Ayağım altında torpağa bənzə,
Başımın üstündə çırağa bənzə.
Arxamda ən uca bir dağa bənzə,
Qoy dağa söykənsin kürəyim, oğul.

Dəryanın dibində axtarılır dürr,
Gəz, ara, qarşında açılsın hər sirr.
Qalib ol, həmişə gülsün Ağamir,
Gül açsın hər arzu-diləyim, oğul.

## DEDİYİN KİMİYƏM

Eşqim daim çəkir imana məni,
Dəyişə bilməyir zəmanə məni.
Bəzən səhv eyləsəm, qınama məni,
Mən elə dediyin kimiyəm, Allah.

Demə narazıyam, qəm-qubarlıyam,
Ürəyi varlıyam, ağlı varlıyam.
Dostluqda Xəliltək etibarliyam,
Mən elə dediyin kimiyəm, Allah.

Arifəm, imanım, mərifətim saf,
Sənə sadiqliyim, məhəbbətim saf.
Alqışım, namazım, ibadətim saf,
Mən elə dediyin kimiyəm, Allah.

Eşq ilə döyünən ürək kimiyəm,
Süfrəndə duz kimi, çörək kimiyəm.
Elə sən qurduğun fələk kimiyəm,
Mən elə dediyin kimiyəm, Allah.

Yaxşı-pis, seçmişəm özüm yolumu,
Qıyma səhv eləyib azım yolumu.
Tale qələmi ver, yazım yolumu,

Mən elə dediyin kimiyəm, Allah.

## ALLAHA YAXIN

Şahin Fazilin 70 illiyinə

Şeiriniz səslənir haqq işi kimi,
Şairlər göylərtək fəzilətlidir.
Şahinin uçuşu, duruşu kimi
Şair vüqarı da əzəmətlidir.

Dilində zikr olur həqiqət andı,
İnamsız baharda çiçək də bitməz.
Qəlbində alışıb elə eşq odu,
Sənin bir günün də inamsız olmaz.

Qələm lələklərin səmanı cızır,
Məşuqə bir namə yazmaq istəyir.
Təbin şahin kimi göylərdə gəzir,
Təzə meracnamə yazmaq istəyir.

Elmlə, şeirlə keçir hər anın,
Eşqinin oduna daim yanırsan.
Sənə qanad verib eşqin, ilhamın,
Göydə şahin kimi pərvazlanırsan.

Min alqış anadan olduğun günə,
Şairlik nur kimi ruhuna axıb.
Bağlandın həmişə Tanrı eşqinə,
"Başımız üstündə Allah var axı. "

Göylər sirrin açır hey varaq-varaq,
Sən də yaratmısan bir eşq adlı din.
Yeri yersizlərə bağışlayaraq
Olmusan günahsız göylərə sakin.

Gələr salamına hər dağ, hər dərə,
Eşq ilə fırlanır dünyanın oxu.
Götür Yer kürəsin qaldır göylərə,
Qoy olaq bir az da Allaha yaxın.

### XXX

İsti bir ocaq oldum
qorudum neçəsini
dünyanın ayazından,
şaxtasından, qışından.
Odumda qızınanlar
üstümə sü ataraq
haray salıb dedilər:
--Odunu alıbdır çaxmaqdaşından.
Ay kimi işıqlandırdım gecəni
nurumu qaranlıqlara yayıb.
Kol dibində gizlənən işıldaböcəklər
gözlərini qıyaraq haray salıb dedilər:
-- İşığını günəşdən oğurlayıb.
Günəştək parladım üfüqdə,
açıldı yeni bir səhər.
İşığımda kor olub həqiqəti dananlar
haray salıb dedilər:
-- Öyünməsin günəş də, günəşdə də ləkə var.
Dönməmişəm yolumdan,
döndərə bilməz məni
məqsədim, məramımdan
nadanların heç biri.
Yenə də ocaq olub isidirəm qəlbləri.
Yenə də Aytək nurum
qaranlığı dağıdıb gecəni nurlandırar.
Yenə də günəş kimi yol gedirəm üfüqdə,
inanıram, bilirəm işıqlı bir sabah var.
Heyfslənirəm amma,
Təəssüf ki, hələ də
dedi-qodu yayaraq giley-güzar eyləyir
arxamca boyun əyən qara günəbaxanlar,
işıqdan qorxub qaçan kor yarasalar kimi
qəlbini paxıllığın atəşində yaxanlar.

### BU YOLU DÜZ GEDƏK

Yol içindən yol seçmişik,
Bu yolu düz gedək barı.
Sağ keçmişik, sol keçmişik,
Bu yolu düz gedək barı.

Ömür zamanın suçunda,
Qovrulur, yanır sacında.
Seçdik yollar ayrıcında,
Bu yolu düz gedək barı.

Qoşulmadan haya-küyə
Üz tutmuşuq yerdən göyə.
Təzə yol varmı getməyə?
Bu yolu düz gedək barı.

## KEÇİM, KEÇMƏYİM

A yol, yollar ayrıcında
Mən səni seçim, seçməyim?
Əylənib hər bulağının
Suyundan içim, içməyim?

De kimə arxa, köməksən?
Şeytansan, yoxsa mələksən?
Eşqlə döyünən ürəksən,
Qəlbinə köçüm, köçməyim?

Uymayıb şər tərifinə,
Keçmişəm haqq tərəfinə.
A yol, sənin şərəfinə
Başımdan keçim, keçməyim?

## ÜZÜNÜ MƏNƏ TUT

Yoxdur kələk üzüm, bic üzüm mənim,
Mərdlikdən yoğrulub öc üzüm mənim.
Bulaqtək durudur iç üzüm mənim,
Üzünü mənə tut, uz tutduğum Üz.

Göylər daş yağdırdı, daşını gördüm,
Fələyin qıcınan dişini gördüm.
Boranını gördüm, qışını gördüm,
Üzünü mənə tut, üz tutduğum Üz.

Düzlük axtarmadım hər üzgörəndə,
Düzə düz demişəm mən düz görəndə.
Ürəyim atlanır xoş söz görəndə,
Üzünü mənə tut, üz tutduğum Üz.

Xeyirlə yandırıb hər közünü sən,
Sındır bu dünyanın şər buzunu sən.
Göstər ədalətin haqq sözünü sən,
Üzünü mənə tut, üz tutduğum Üz.

Dünyanın mizanı düzdü gözündə,
Düzlük axtarıram düzdə, düzəndə.
Sənə üz tuturam haqqı gəzəndə,
Üzünü mənə tut, üz tutduğum Üz.

Eşq ilə yil gedən izinə qurban,

Ruhumsan, canımsan, özünə qurban.
Üzüm üzün üstə, üzünə qurban,
Üzünü mənə tut, üz tutduğum Üz.

Hiylə yox, yalan yox sözümdə mənim,
Eşqin atəşi var közümdə mənim.
Haqqın işığıdir üzümdə mənim,
Üzünü mənə tut, üz tutduğum Üz.

## HƏSRƏTİN HİKMƏTİ

Hər həsrətdə bir sevinc,
Hər vüsalda qəm yaşar.
Dünyanın mizanında
Bir həsrət hikməti var.

Hər qatında gizlənib
Min sevinci, min ahı.
Həsrətin hikmətində
Çaşıb qaldım, İlahi.

Həsrət bir ocaq çatıb,
Gecə dözər, gün dözər.
Nə Ay Günəşə çatar,
Nə də gecə gündüzə.

## HƏYAT VAR İÇİMDƏ

Əzəldən olmuşam od əmən,
Aşiqtək yanıram oda mən.
Sanmayın sakit bir adamam,
Fəryad var içimdə.

Zamanın əlində ələyəm,
Doğrunu, yalanı ələyən.
Yaxşılıq eyləyən mələyəm,
Cəllad var içimdə.

Ay nadan , gözünü süzmə gəl,
Üzüldün, özünü üzmə gəl.
Bəxtimdə qəm-kədər gəzmə gəl,
Büsat var içimdə.

Tanrıdan qismətdi bu varım,
Min qəmi aparar axarım.
Enmərəm, qırılsa qollarım,
Qanad var içimdə.

Bu dünya ağladan, güldürən,

Olmuşuq gül əkib, gül dərən.
Yaşaram, ölümü öldürən
Həyat var içimdə.

## OLMADIN

Sudan quru çıxan adam,
Kim deyir ki, yaş olmadın.
Elə ayaq altda qaldın,
Bir dəfə də baş olmadın.

Tutuldu hər bərə- bəndin,
Bilinmədi nədir fəndin.
Kol dibində eşələndin,
Azad uçan quş olmadın.

Çətin ki ad qala səndən,
Ya ocaq, od qala səndən.
Bu vətənin qalasında
Bünövrəyə daş olmadın.

## RUHUM GÖYƏRƏR

Bu dünya havamı çalmaq istəyir,
Bilmir ki, hər hava könlümə yatmır.
Bilmir hər havaya qolum açılmır,
Bilmir hər havası sümük oynatmır.

Hələ ki dünyanın öz havası var,
"Yaşa" havası var, "döz" havası var.
Gah bilək oynadan dəli havası,
Gah ürək oynadan naz havası var.

Bilmir elə-belə havam çalınmaz,
Bir eşq havası var başımda mənim.
Qalası alınmaz, yurdu talanmaz,
Yaşar torpağımda, daşımda mənim.

Qəlbimdə bir həzin qəm havası yar,
Başımda bir dəli dəm havası var.
Ürəkdə eşq adlı şinşəklər çaxar,
Gözümdə bir leysan nəm havası var.

Bu hava baharda, qışda çalınar,
Sevən könüllərdə yaşı göyərdər.
Bu hava bir qara daşda çqlınar,
Torpağı göyərdər, daşı göyərdər.

Bir eşq havası var başımda mənim,
Daha başqa hava könlümə yatmır.
Dağıtmaz yolumdan dumanı, çəni,
Çalınan havalar ruhu oyatmır.

Bir ruhda yaşayır daş da, çiçək də,
Hər gün boşalacaq, dolacaq dünya.
Bir gün istəsək də, istəməsək də
Bizim havamızı çalacaq dünya.

Ruhuma can verir vüsal havası,
Həsrət havasında ahım göyərər.
Yerdən baş qaldıran bir daşın üstə
Bitən bir çiçəkdə ruhum göyərər.

## TANI

Şair dostum Qorxmaz Kamil Kadusiyə

Tutub haqq sözünü düz yol gedirsən,
Bəxtinə bəd nəzər dikəni tanı.
Bu yol gah dərədən, gah dağdan keçir,
Ayağına batan tikanı tanı.

Min qəmə sədd çəkib, həddən çixarıb,
Təşnə ürəkləri oddan çıxarıb.
Dünyaca dərdini yaddan çıxarıb,
Dostunun dərdini çəkəni tanı.

Göylər də ağlayar dilək kəsəndə,

Ürək incidəndə, ürək kəsəndə.
Dostlar məclisində çörək kəsəndə
Yediyin bir loxma tikəni tanı.

Yaxşını, yamanı, demə, yazan var,
Bu yalan dünyanı düzə yozan var.
Hələ yolumuzda quyu qazan var,
Arxanca dolanan kölgəni tanı.

Yurdu talayanlar itməyib hələ,
Vətən nəğməsini ötməyib hələ.
Bəlkəni əkiblər, bitməyib hələ,
Hələ əkilməyən bəlkəni tanı.

Taca yaraşmayan taxta ləkədir,
Dağın sinəsində dağ da ləkədir.
Ağamir, qarada ağ da ləkədir,
Ağa qara salan ləkəni tanı.

## BU NİSBİ HƏYATDA

Deyirlər, hər şey nisbidir bu dünyada,
Qovan da səni çağırır, qaçan da,
ayaq açıb gəzən də,
qanad açıb uçan da.
Çoxu özünü Allah sanır qanad açıb uçanda.
Eh, qarışqa da "mənəm-mənəm" deyir, fil də,
Dünyadan xəbərdar alim də,
Səsini səslərə qatan qafil də.
Ömürlər, talelər nisbi,
aylar, illər, günlər də nisbi,
əqidələr, inamlar, dinlər də nisbi. . .
Deyirlər, hər şey nisbidir bu dünyada.
Odur ki, ördəklər özünü qaz sanır,
sinəsini qabağa verib qazlıq edir, Allah.
Bu nisbi həyatda,
bu nisbi cəmiyyətdə
bizə mütləq Allah da azlıq edir, Allah.

## YAĞIŞA DÜŞƏN QƏRİB

Şair Arif Fərzəliyə

Bu necə tale, baxtdı,
Yul çıxdın, yağış yağdı.

Başında şimşək çaxdı,
Amma yolundan dönmədin,
“Yağışa düşən qərib”.

Dalda yer vermədi dağ,
Qəlbin göynədi dağ-dağ.
Söndü çatdığın ocaq,
Qəlbinin odu sönmədi,
“Yağışa düşən qərib”.

Tutdun üzünü dağlara,
Yazdın izini dağlara.
Dedin sözünü dağlara,
Dağlarsa susdu, dinmədi,
“Yağışa düşən qərib”.

## SIĞMAZ

Tale yazan, yazdıqların
Ovcumdakı izə sığmaz.
Nə alnımın qırışına,
Nə kitaba, sözə sığmaz.

Eşqim qaynar bir həyatdır,
Uçmaq üçün qol-qanaddır.
Ürəyim bir kainatdır,
Gözəlliyi gözə sığmaz.

Düşərək min əziyyətə,
Ömrü satdım müft qiymətə.
Qazandığım nə zəhmətə,
Nə çörəyə, duza sığmaz.

## ÖLDÜRƏR

Qəlbə işıq saçar haqqın günəşi,
Soyuq ürəklərdə buzu öldürər.
Göz gözə dəyəndə eşqin atəşi
Ədanı öldürər, nazı öldürər.

Arzuya boy verməz dünyanın varı,
Baharda əriyər dağların qarı.
Vüsala yol gələn yaz yağışları
Tale yollarında tozu öldürər.

Ariflər tanıyar əyrini, düzü,
Ocağı odlayar görsə göz gözü.
Şairin yalanı dirildər sözü,
Hakimin yalanı sözü öldürər.

Ağamir, haqq gəzdin sözlər içində,
Tapdın ümidini gözlər işində.
Təzə iz qoyursan izlər içində,
İz düşər iz üstə izi öldürər.

## YOX İMİŞ

"Bir nəfərə. . . "silsiləsindən

Bu dostluğa necə etdin xəyanət?
İnsanlığın, sədaqətin yox imiş.
Ömür boyu eyləmisən qəbahət,
Ədalətin, fəzilətin yox imiş.

Züy tutmusan, zurnaçalan olmusan,
Ruhu talan, qəlbi talan olmusan. .
Eşqi yalan, andı yalan olmusan,
Ürəyində məhəbbətin yox imiş.

Gündə yüz yol haqq yolunu azırsan,
Hər günaha, rəzilliyə hazırsan.
Üzə gülüb ayaq altı qazırsan,
Kişi kimi cəsarətin yox imiş.

Pinəklədin, ayıq ola bilmədin,
Dost-düşmənə sayıq ola bilmədin.
Hörmətimə layiq ola bilmədin,
İnsan kimi ləyaqətin yox imiş.

Dəyişməyən imanımda, dinimdə,
Yol gedirəm bu dağların çənində.

Bir səhvim var, bilirəm ki, mənim də
Dost seçməkdə fərasətim yox imiş.

## BUNA BAX E, , ,

Dünya qıztək naz eyləyir,
Ağrın alım, buna bax e. . .
Hər sözümü söz eyləyir,
Səsə bax e. . . , ünə bax e. . .

Halal-haram itən gündən
Ağır gəlir biri mindən.
Azad olcaq tilsimindən
Namərd çıxan cinə bax e. . .

Demə sən də yaşayırsan,
Möhnət yükü daşıyırsan.
Döyüşməyə daş ayır sən,
Bu ömrə, bu günə bax e. . .

Başa çıxıb cinayəti,
Qana batıb ədaləti.
Tanrım, hanı qiyamətin?
Göndərdiyin dinə bax e. . .

Hər gün səhər ağarır dan,
Dərk eləməz bunu nadan.
Dəyirmanın dəndanından
Diri çıxan dənə bax e. . .

## SEÇDİ

Yollar gördüm didim-didim,
Bir yol seçdim haqqa gedim.
Şahid olmaq istəmədim,
Allah məni şahid seçdi.

Bəd yollara hasar oldum,
Zülmətə nur saçar oldum.
Hər sirrə bir açar oldum,
Hər sözə bir kilid seçdim.

Sağım tikan, solum güldü,
Cəhd göstərdim dərim, güldü.
Gözəlliyə qurban bildl,
Həqiqətə şəhid seçdi.

## BÜTÖVLÜK

Bütövəm –kəsrlərə bölünməyən tamam.
Bütövəm –modula sığmayan radikalam.
Bütövəm –kainatı özündə gizlədən göyəm.
Bütövəm -ən kiçik nöqtə, ən böyük nöqtəyəm.
Bütövəm –həqiqətə gedən yolam.
Bütövəm –gözəlliyi göstərən qolam.
Bütövəm –həm sevinc, həm qəməm.
Bütövəm –nisbi yox, mütləqəm.
Bütövəm –dünyanın bətnində od saxlayan közəm.
Bütövəm –mayası haqdan yoğrulan Sözəm.

## ÖMRÜ VERMƏYƏK BADA

Mirhafiz Bahadıra

Tapınıb müqəddəs Tanrı eşqinə,
Salaq aşiqləri yada, Mirhafiz.
Eşqin badəsini doldurub içək,
Gəlsin damağımız dada, Mirhafiz.

Eşq ilə yaranıb dünyanın işi,
Yada sal Adəmlə Həvvanı, kişi.
Sevmədən yazdığın şeirin atəşi
Yandırmaz, eyləyər xəta, Mirhafiz.

Şairsən, tutitək gəlirsən dilə,
Zövqünü korlama gəl bilə-bilə.
Hərdən gözəllərə şeir həsr elə,
Düşməsin araya qada, Mirhafiz.

Qızlar arxamızca həsədlə baxır,
Başımız üstündə şimşəklər çaxır.
Gördün ki, bir gözəl yandırıb-yaxır,
Od ol, at özünü oda, Mirhafiz.

Vardır qəlbimizdə Tanrı imanı,
Arif ol, yaxşını, yamanı tanı.
Bu həyat əzəldən sınaq meydanı,
Gəl ömrü verməyək bada, Mirhafiz.

## BU MƏNİM QAPIMDI

Bu mənim qapımdı, Allah,
Öz ünvanı, öz adı var.
İçimdəki duyğuların
Məhbusu var, azadı var.

İçəri qoymadım günah,
Dünyanı kələklər döyür.
Bu mənim qapımdı, Allah,
Qapımı küləklər döyür.

Bir müqəddəs nurlu sabah
Gözləyir illərdən bəri.
Bu mənim qapımdı, Allah,
Aç qapını, keç içəri.

## SİZSİNİZ

"Biz sizinlə fəxr edirik, şair"
( Bir gözəlin dedikləri)

Ürəyimi sizə verdim əmanət,
Ən qiymətli əmanətim sizsiniz. .
Eşqinizlə tapacağam səadət,
Xoşbəxtliyim- səadətim sizsiniz.

Dünya oyun-oyuncaqmış, sən demə,
Salammadım bu dünyanı fəndimə.
Sizin kimi sadiq qaldım kəndimə,
Saf eşqimə sədaqətim sizsiniz.

Çoxlarıtək edəmmədim qəbahət,
"Düz olmaqla düzdə qaldım", nəhayət.
Əməlimlə dünya tapdı fəzilət,
İnsanlığım, fəzilətim sizsiniz.

Əzəl gündən dünya mənə dar, gözəl,
Artıq saça ələnibdir qar, gözəl.
Fəxr etməli bircə sözüm var, gözəl,
Doğma elə fəxarətim sizsiniz.

Düz demişlər, vəfasızmış dünya da,
Gəzdiyimi tapammadım dünyada.
Sizi andım reallıqda, röyada,
Axtardığım həqiqətim sizsiniz.

Şairinə ilham verən elim siz,
Ətir saçan çiçəyim siz, gülüm siz.
Andı təmiz, düz danışan dilim siz,
Haqqı öyən cəsarətim sizsiniz.

Soruşmayın ilham aldım mən nədən,
Saf sevgimdir kainatla gələn tən.
Ayrı düşməz bir ağacam kökündən,

Tükənməyən məhəbbətim sizsiniz.

## SÖZÜN AĞASI

Sözüm tarix yazıb, öz oxusu var,
Min illik sirr açır sözün oxusu.
Sözün çiçək ətri, qan qoxusu var,
Yaddaşı oyadar sözün qoxusu,

Sözüm- od, yanmışam közümün üstə,
Öpərək qoymuşam gözümün üstə.
Min ildl köklənib sazımın üstə,
Ərşə çəkilibdir sözün yuxusu.

Sözün ağası var, sözün qulu var,
Sözün sükutu var, qeylü-qalı var.
Sözün də günəştək ömür yolu var,
Sözün batısı var, sözün doğusu.

Sözlə axıdılar, sözlə kəsər qan,
Bu ali hikməti duymaz hər nadan.
Sözə məğlub olar qılınc oynadan,
Sözün qəhrəmanı –sözün dahisi.

Hər sözdə gizlənib min rəng, min çalar,
Yerini bilməyən yolundan qalar.
Ucuz söz sahibin dəyərdən salar,
Ölçüyə sığmayır sözün bahası.

Məhəbbət göylərin maya sözüdü,
Cəsarət dağların qaya sözüdü.
Sayaçı dədənin saya sözüdü
Sözün yapıncısı, sözün çuxası.

Söz yoldu, çıxmısan yol arasna,
Gül olub düşmüsən gül arasına.
Şəhdini verməyə bal arısına
Gül kimi açılıb sözün yaxası.

Söz var qanadsızı quşa döndərər,
Söz var bahar qəlbi qışa döndərər.
Qaba söz qəlbləri daşa döndərər,
Daş qəlbi mum eylər sözün yuxası.

Dərin fikirlərin görünür dibi,
Dayazda boğulur ilhamın təbi.
Dabandan soyulur sözün sahibi
Dardan asılanda sözün boğazı.

Sözlər də özünü bir hakim sayır,
Min sözün içindən söz seç, söz ayır.
Sözünə hakinlər xırdalanmayır,
Sözünün ağası – sözün ağası. .

## DÜNYA

Oynayır əbədi eşq havasıyla,
Cavanlıq eyləyir bu qoca dünya.
Yandırır qəlbləri söz havasıyla,
Bənzəyir qızarmış bir saca dünya.

Muğam yanğısını tardan götürüb,
Ocaq yanğısını qordan götürüb.
Atəşin bircə cüt nardan götürüb
Yanır, tüstülənir bu baca dünya.

Hər ulduz bir sirdir yanır göyündə,
Böyük-kiçikliyi qalıb düyündə.
İnsan dünyasının ənginliyində
Necə də görünür xırdaca dünya.

Hər duyan ürəkdə ocaq qalayır,
Sevgisi qəlbləri çapıb talayır.
Qoynunda aşiqlər meydan sulayır,
Nə gücə baş əyir, nə taca dünya.

Nurunu qəlblərdən alandan bəri
Haqqın budağından meyvəsin dərib.
Açıb hər üzünü bizə göstərir,
Adını gizlədir tapmaca dünya.

Kimsə əcəlindən qaça bilməyib,
Dirilik suyundan içən gülməyib.
Sirrini, sehrini açan olmayıb,
Ağamir tilsimin kaş aça, dünya.

## BU BAHAR

Gəlin qaranquşun qayçısı ilə

Həsrəti, hicranı biçdi bu bahar.
Qızlar bulağından gözəllər kimi
Məhəbbət şərbəti içdi bu bahar.

Tutub aşiq kimi qolumdan mənim,
Bağladı bənnövşə kolundan məni.
Eylədi yurdumdan, yolumdan məni,
Yol olub ömrümdən keçdi bu bahar.

Gözəllik eşqimə açıb qoynunu,
Bəxtimlə oynayır vüsal oyununu.
Gəlin bənövşətək büküb boynunu
Qəlbimə əbədi köçdü bu bahar.

## ELƏ DAŞIYIRAM BU QOŞA EŞQİ

Baloğlan Cəlilə

Başına döndüyüm Baloğlan Cəlil,
Bizləri öldürdü bənövşə eşqi.
Üzə çıxarmadıq sınmasın deyə,
Ürəkdə saxladıq bu şüşə eşqi.

Vüsala səslədi taleyin sazı,
Naşı aşiqlərtək ötürdük yazı.
Artıq yetişibdir ömrün payızı,
Heyif saxlamışıq qar, qışa eşqi.

Namərd körpü saldı mən keçəmmədim,
Vəfasız əlindən su içəmmədim.
Özümə bir mənzil, yer seçəmmədim,
Yandırdı bağrımı bir guşə eşqi.

Təmiz duyğulara açaraq sinə,
Ürəyim sığındı haqq kölgəsinə.
Sığmayıb zamanın çərçivəsinə,
Heç vaxt baş əymədi gərdişə eşqi.

Qızlar bulağından su içib, dəyib,
Bir cüt nar yetişib, budağın əyib.
“Cənnət meyvəsidir, ”- atalar deyib,
Qəlbimdə yurd salıb güleyşə eşqi.

Haqdı Ağamirin nübar sevgisi,
Həsrətdən bağlayıb qubar sevgisi.
İçimdə bir tanrı, bir yar sevgisi,
Elə daşıyıram bu qoşa eşqi.

## YAZIB

Var olsun bəxt yazan, bəxt kitabında
Mənim qismətimə tər sinə yazıb.
Qızdırıb qələmin eşqin odunda,
Adını sinəmin dərisinə yazıb.

Sevgi yollarında ömrüm xalıdı,
Eşqim naxış-naxış toxunmalıdı.
Qəlbin aynasında oxunmalıdı,
Çünki yazdığını tərsinə yazıb.

Ümmantək kükrədim, coşub-çağladım,
Eşqdən böyük bir kitab bağladım.
Əlifba dərsini qırxda haqladım,
İndi də həyatın dərsinə yazıb.

## GÖYLƏRİN

Vüsalmı, həsrətmi şimşəyə dönmüş?
Payız göz yaşını tökür göylərin.
Buludlar hirsindən çatlayıb yanır,
Torpaq ağrısını çəkir göylərin.

Eşq ilə əriyir ürəklərdə daş,
Ruha qanad verir bu od, bu atəş.
Gecələr xəlvətə çəkilib günəş
Ulduz libasını tikir göylərin.

Ulduzlar tellərin buluddan asır,
Ay bilmir atını hara çapası,
Axşam mürgüləyir göyün qapısı,
Səhər yaxasını sökür göylərin.

Tanrı sevdasından gələndə gəlir
Ürəklər gül açır, könüllər gülür.
Göydən yer üzünə vəhylər gəlir,
Baş bizim, yer bizim, fikir göylərin.

Hər səhər nur saçıb cahana gəldik,
Yaşadıq min şübhə, gümana gəldik.
Hər sabah yenidən imana gəldik,
İnam bizlərindir, fikir göylərin.

XXX

Ana, kənd sovqatı göndərirsən tez-tez,
Açılır nəvələrin qolu-qanadı.
Zənbilində ya mer-meyvədir, ya ağartı.
Kənd sovqatı bəlli.
Mənsə şəhərdə görməyəni
Zənbilində də görmürəm,
Ana, bir az təsəlli göndər, təsəlli.

XXX

Bir qış günündə gəldim dünyaya,
duyulurdu havada bahar hərarəti.
Odur ki, qış kimi sərt oldum,
bahar kimi hərarətli.
Yamanlara soyuq oldum,
yaxşıların ürəyində çatdım oj aq.
Yaşarda bilmədi gözlərimi
həyatın min zülmü, min əzabı.
Birj ə haqsızlıq
gözlərimi yaşartdı anj aq.

XXX

Gah sevimli, gah qəmli, nəvalı,
məlhəmli, dəvalı,
nəğmə-nəğmə, bayatı havalı…
ürəyim nej ə də səni oxşayır, Vətən!

Nə qədər oda, atəşə yanmışam,
Nə qədər həsrətə qalanmışam.
Elə sənin kimi çapılmışam,
talanmışam…
Taleyim nej ə də sənə oxşayır, Vətən

## YANDIRIR

Bu dünya dediyin bir eşq yoludu,
Dərəsi yandırır, düzü yandırır.

Torpaqlı, səmalı, odlu, suludu,
Atəşi yandırır, buzu yandırır.

Zaman həramitək ömrü talayır,
Min yolun içindən bir düz yol ayır,
Vüsaldan, həsrətdən ocaq qalayır,
Tüstüsü yandırır, közü yandırır.

Yaxşını, yamanı duyub gəlmişəm,
Sallaqlar dərimi soyub, gəlmişəm.
Fələyin donunu deyib gəlmişəm,
Astarı yandırır, üzü yandırır.

Kim deyir qisməti talan dünyadı,
Boşalsa, əvəzi dolan dünyadı.
Bilmirik doğru, ya yalan dünyadı,
Yalanı yandırır, düzü yandırır.

Azıb öz yolunu dərbədər kimi,
Köhnədi, görünür təzə-tər kimi.
Oynadır bədənin gözəllər kimi,
Ədası yandırır, nazı yandırır.

Uca zirvəsində şimşəklər çaxır,
Köz kimi alışır, su kimi axır.
Atıb örtüyünü soyunub baxır,
Baxışı yandırır, sözü yandırır.

## EYLƏDİM

Tanrım, pay götürdüm nurlu səhərdən,
Qaranlıq qəlbləri sabah eylədim.
Səni sevə-sevə qaçdım günahdan,
Səndən qorxa-qorxa günah eylədim.

Həyat bir ağacdır , kökü sevgidir,
Eşqintək qorxunla yaşayıram mən.
Dünyanın ən ağır yükü sevgidir,
Bir ömrün yükünü daşıyıram mən.

Bu necə gəlişdi, bu necə köçdü?
Mən ki aşiq oldum verdiyin dinə.
Həyatım təzadlar içində keçdi,
Yollar ayrıcında qalmışam yenə.

Düşmüşəm nə qədər xeyirə, şərə,

Zaman çəkir bizi şeytana tərəf.
Çəkib haqq qılıncın əyriliklərə
Hələ yol gəlirəm imana tərəf.

Aşiqtək həm sevinc, həm qəmi sevdim,
Məni qəm-kədərdə əylədin, Allah.
Allah deyə-deyə mən səni sevdim,
Sən məni "allahsız" eylədin, Allah.

## BÜTÜN SÖZLƏRİ EYNİ HƏRFLƏ BAŞLAYAN ŞEİRLƏR

Q, , ,

Qaşların qaldırıb qala qövsütək,
Quşqonmaz qayalar qüdrət qalası.
Qoru, qoltuqlarda qoyma qeyrəti,
Qıyma qara qəlblər qeybət qalasın.

Qürbətdə qohumdur qərib qəribə,
Qəribin qisməti qalar qazanda.
Qıraq qal qanmazın qansızlığından,
Qorun qanlıların qanı qizanda.

Qayğılı qəribin qəm-qüssəsidi
Qara qövmlərin qatiq qarası.
Qatı qaranlığın qan qoxusudu
Qanlı qeybətlərin qara-qurası.

Qara quzğunların qara qorxusu
Qaraldar qəribin qarlı qışını.
Qoyma qurda qalsın quzu qisməti,
Qaldır qələbəyə qələm qoşunun.

Qırılmaz qeyrətin qaynar qanında,
Qurdtək qiyaməyə qalacaq qorun.
Qan qana qarişar qilınc qizanda,
Qırılar qanadı qaranlıqların.

## Y. . .

Yolçular yollardan yığar yastığın,
Yollarda yorulan yanıb-yaxılar.
Yatmış yolçuları yollardan yığın,
Yatsan, yaddaşını yadlar yaxalar.

Yaxşının yuxusun yalanla yozub
Yabançı yamanlar yaralar yarı.
Yaxşının yazısın yaradan yazıb,
Yaxşı yol yoldaşı yorar yolları.

Yoxlanar yolların yaxşı-yamanı,
Yollara yaraşmaz yasaq yasalar.
Yıxılar yarğandan yolun yamanı,
Yolun yaxşısına yazı yazılar.

Yaxşılar yuxunu yaxşıya yozar,
Yar yara yaraşsa, yaraşıq yayar.
Yollar yaddaşına yaxşını yazar,
Yadları yollardan yağışlar yuyar.

Yollarda yadlaşar yaxşıyla yaman,
Yaxşıya yaxşıca yollar yaraşar.
Yaxşı yaşayacaq yurdu yaşadan,
Yaradan yaşadar, yaşadan yaşar.

## D. . .

Dərdə dözənlərin dərd dünyası dar,
Dəvələr daşımaz dərd dağlarını.
Dağ dağa dağ deməz, dağı dağlayar,
Dağıdar dünyanın dayaqlarını.

Dünyanın dibində divlər dayanar,
Dolanar dağlara dərd damar-damar.
Dərdi dinləməyən dərdini danar,
Duyar dərdlərini dərdbilən dostlar.

Dərd dərdə dayanar daxilimizdə,
Dinsən, dərdin daşıb dili dağlayar.
Dalınca danışsa dargöz dostların,
Dünyanın dağ-daşın dolu dağlayar.

Dərdini danışar dərdli dərdliyə,
Dilli dilavərlər danışmaz, dinməz.
Dağların daşı da divara dönər,
Dost dara düşəndə dostunu danmaz.

Dən dadan dişləri daşa dirənər,
Dəyirman dünyaya dərdini daşı.
Daş daşı dalayar, daş daşı didər,
Dənsiz dolananda dəyirman daşı.

## S. . .

Sağlam sağlıqların sədası, səsi
Sevinclə salamlar sağlam səhəri.
Səsinə sevinər saf sevgilərin
Sabaha səsləyən söz sahibləri.

Soruşma səbəbin savaşın, suçun,
Soruşma, səs salar sükutun sonu.
Silər səliqəsin sığallı saçın,
Saxta surətlərin silinər sanı.

Sağır saxtalığı salıb sındırar
Sağlam siyasətin sirli söhbəti.
Süzər sadiqlərin sədaqətini
Sırtıq sərxoşların “səmimiyyəti. ”

Sığışmaz səmaya sehirli sözlər,
Sədaqət sevgidə sınanan səddir.
Saxta sevgilərin soyuq sükuyu
Soyuq sinələrdə saxta sənəddir.

Surətpərəstlərin sınar sırası,
Sevgili sadiqlər sazaqda sınmaz.
Səslənər sazının sarı simləri,

Sözü sevənlərin sədası sönməz.

## YATMAQ OLUB ADƏTİ
Sabiranə

Yatmaq olub adəti bu millətin,
İndi görən harda yatıb? Tap, tap.

Gəz cahanı oxşarımız varmı gör,
Varmı belə millətə bir bab, bab?

Dəvət edib süfrəsinə bəslədi,
Qonşuları atdı ona top, top.

Dərdlərinin çarəsini axtarır,
İynəsinə keçməyir heç sap, sap.

Hər baş olan qırdı tamam ormanı,
Axtararaq baltasına sap, sap.

Əcnəbilər göylərə yüksəlmədə,
Sən elinin sərvətini çap, çap.

Yan –yörənə oğru kimi göz yetir,
Yaxşı-yaman hər nə ki var qap, qap.

Oğruların avtosu da bərk gedir,
Siqnalının gur səsi var, “bap”, ”bap”.

Məmurumuz rüşvət alıb yap deyir,
Gördün hamı yapmadadır, yap, yap.

Məclisi-aliyə seçilmişləri
Vədə verir, vədələri gop, gop.

Təkcə talan etmədilər sərvətin
Xalqı tamam eylədilər “dub”, “dub”.

Gordün aşıb-daşmadadır tərifin,
Köhlənini tərsə minib çap, çap.

Eylədiyin eyləmə sən mollanın,
Diqqət elə, gör nə edir “pop”, ”pop”.

Fatma, Tükəzban kimi lay-lay deyən
“Anna”ları indi deyir rep, rep.

Fəhlə o vaxt “daxili-insan” idi,
İndi yenə oldu tamam “rab”, ”rab”.

Fürsətini qurda verib, xəlvəti
Etmədədir şamu-səhər gap, gap.

Gördü tamam aldadılıb, aldanıb,
Vurmadadır baş-gözünə “şap”, ”şap”.

Kimdi yalan, kimdi yaman bilməyir,
Söymədədir millətini lap. . , lap. . .

“Görmə” deyən “dinmə” dedi, dinmədik,
“Qanma” dedi, dəydi bizə zıp, zıp.

Partlayacaq yığdığı qəm-qüssədən,
Çünki ürək eyləməyir tab, tab.

Varmı kitab-zad oxuyan, bir soruş,
Yazdığını sonra elə çap, çap.

Sən deyəni öncə yazıb oldu nə
Şairimiz Mirzə Sabir Hop-hop.

İndiyəcən bir düzələn oldumu?
Bəsdi daha yazdığınız, xub, xub.

Dost bilibən hər yetənə qızma sirr,
Gözlə edər kimsə səni “hop”, “hop”.

Çalxalanır, dünya, daha məhvərin,
Çərxi-fələk tab eləmir, qop, qop.

## SABAH ADAMİ

M. F. Axundzadənin 200 illiyinə

Səbuhi! Ey böyük sabah adamı,
Sən də bir qaçılmaz ömür yaşadın.
Əzminin önündə heyrandı hamı,
Dahitək tarixdə yaşayır adın.

Uşaqkən düşmüşdün Allah eşqinə,
Ruhani olmağı seçmişdin sənət.
Allahsız eylədi səni zəmanə,
Allahsız eylədi səni cəmiyyət.

Ömür tarixində bu da bir izdi,
“Allahsız” deyərək çağrıldı adın.
Düzlüyü axtardın, düzlüyü gəzdin,
Düzgün qiymətini verən olmadı.

Əmmamə geyəndə neçə üz görüb,

Göylərtək boşaldın, buludtək doldun.
“Allah” deyənləri allahsız görüb,
Sən də gözgörəsi allahsız oldun.

Qəm, kədər sinəndən saldı öz köçün,
Elin hər dərdinə, oduna yandın.
Xalqı cəhalətdən qurtarmaq üçün
Dinləri puç sayıb Allahı dandın.

Həyat ötüşmədi kədərsiz, ahsız,
Ariftək dünyanı dərk edən andan.
“Allahsız” söyləyib sənə allahsız,
Dandı həqiqəti, haqqı yalandan.

İnsanın səbrinin kasası daşır,
Tülkünün qəsdinə aslan gedəndə.
Cəmiyyət çox zaman allahsızlaşır,
Hər şey siyasətə qurban gedəndə.

Gördün təriqətlər qürbündən düşüb,
Fikrini nur kimi ellərə yaydın.
Biləndə Allah da siyasətləşib,
Sən bütün dinləri əfsanə saydın.

Haqqı ittihama öyrəşib bəşər,
Cordono Brunolar odda yandılar.
“Allah” söyləyənlər, “haqq”söyləyənlər
Haqqı sevənləri necə dandılar?

Açdı pərdəsini qarşında hər din.
Axtardın millətin dərdinə çara.
Ömrü cəhalətə qurban vermədin,
Zəkan ziya saçdı qaranlıqlara.

Millət sabahını yuxuda boğdu,
Yuxular təzədən yozulmalıymış.
Bu xalqı qəflətdən oyatmaq haqqı
Sənin taleyinə yazılmalıymış.

Eşqin insanlığa çağıran sərgi,
Elə işıq saçan bir çıraq oldu.
Ən ali məqsədin uyuyan Şərqi
Min illik yuxudan oyatmaq oldu.

Bu gün də ədalət pulla ölçülür,
Çoxunun Allahı, eşqi pul olub.
Kəfən də, qəbir də pulla biçilir,
Dinlər qazanc üçün məqsəd, yol olub.

Yenə də artmada xalqı soyanlar,
Bu gün də döyüşür xeyir şər ilə.
Qudurub özünü Allah sayanlar
Allahsızlıq edir əməlləriylə.

Haram üzə çıxıb halalı yeyib,
Yox Allah qorxusu, yox haqq divanı.
Allahın adına dua eyləyib
Haqqı sevdiyini söyləyir hamı.

Qovan da, qaçan da Allahı səslər,
Allahsız olsan da haqq ilə dindin.
Xalqın taleyini həll edən kəslər
Yalandan Allaha and içir indi.

Bilinmir nə düzdür, nə qanunidir,
Yazılan hər qanun rəngdir, boyadır.
Deyirlər, həyatın sonu fanidir,
Onsuz da dünyamız gidi dünyadı.

Hər dərdə, əzaba gərərək sinə
Günəştək nur saçdın hər gələn günə.
Qiymət verilmədi pak xidmətinə,
Aldandın zamanın siyasətinə.

Mərdlərin qaməti əyri olmadı,
Həyatda doğrular vuruldu, gördük.
Talandı, dağıldı, xeyri olmadı,
Allahsız cəmiyyət quruldu, gördük.

Dahilər söz deyir cəsarətiylə. ,
Göylər boşalmaqçün bənddir bir himə.
İblisin məkrli siyasətiylə
Ulduzlar aldana bilərmiş, demə.

Susmayıb düzə düz söylədin hər an,
Bu cürət kimsəyə gəlməsin asan.
Xalqı insanlığa, haqqa çağıran
Elinin ən böyük allahsızısan.

Səhv edib günaha batırıq bəzən,
Bir insan varmı ki, günahsız olsun?
Bu gün haqqı danıb allahlıq edən
Təki sənin kimi allahsız olsun.

Ey sabah adamı, açılıb sabah,
Xalqın eşqi olub dövlətin, varın.
Adildir ədalət sahibi Allah,
Bağışlar sənintək allahsızları.

## BİRNƏFƏSƏ MİSRALANMIŞ DUYĞULAR

***

Ayla Günəşin əllərini
səmada tutub Yer,
gecə ilə gündüzü barışdırır.

***

Bədrlənmiş Ay
nur saçır gecəyə,
necə də səxavətlidi Günəş.

***

Ay çiçəkləyib səmada ulduz-ulduz,
gözü yaşla dolu bir tənha çiçək
bağçada üşüyür yalqız.

***

Necə də gözəl görsənir Ay,
xoşbəxtlikdən gülür gözləri
ətrafında ulduzlar parlayanda.

***

Buludların arasında göründü Ay
qaranlıq gecədə,
tənhalıqdan qurtuldum, İlahi.

***

Ürəkdə şimşəklər çaxır,
bir qızın göz yaşları yuyur pəncərələri.
Çöldə isə günəş çıxıb.

***

Eşqimi soyunub gizlətmişəm sinəmdə,
ürək adlı daşın altında.
Həsrət yağışında islanmamaq üçün.

***

Üç nöqtədən bir müstəvi keçdiyini
öyrənmişdik həndəsə dərsində.
Odur ki, sevgi adlı üçüncü nöqtəni tapıb
həyat müstəvisini keçirtdik üstündən. .

***

Ey yolçu, baxdım sənin arxanca
gözdən itənəcən.
Səni itirdim, ancaq yolu itirmədim.

***
Əfv et bizi, Tanrım, əfv et.
Baş əyiriksə “büt”lərin önündə,
demək, özümüzü tapa bilməmişik sənin dinində.

***
Hələ kəşf olunmamış bir elm dəryasıyam,
baş vur dərinliyimə, oyrən məni, əzizim
Ancaq yamsılama dalğalarımın səsini.

***
Bu gün çillə axşamıdı
payızın ilməsini qışa hörən.
Qara günlərimdə ağ çıxan çillə qarpızı
bu gün necə çıxacaq görən?

***
Kim deyir soyuqdur torpağın üzü,
unudulur dünyadan köçənlər.
Yalandır, ağ yalan.
Torpağa köçən dərdin
hər il yaşını qeyd edir ürəyində insan.

***
Ey yağış, islatdın qızılgülün ləçəyini,
yuya bildinmi
göz yaşlarını bülbülün?

***
Ey yağış, bu nə çaşqınlıqdı?
Səhraları qoyub
niyə yağırsan dəryalara?

***
Göyü günəşli dünyam,
göyü yağışlı dünyam,
hansınız məni daha çox sevir?

***
Yenə yağış yağdı
islandı səma paltarım,
islandı torpaq libasım.
Sıxıb sərmişəm bir ömür günəş altında.

***
Səmanı geyinmişəm əynimə,
arzularımın dan üzündə
hər səhər. doğulur
hər axşam sinəmdəki dağların
arxasına çəkilən günəş.

## DƏNİZİN DƏNİZİ

Görən gözəl varmı bu gözəl qıztək,
Təbəssüm yaraşır bu ağ bənizə.
Dərin gözləri var mavi dəniztək,
Mecə də yaraşır Dəniz dənizə.
Dalğalı dəniztək hey coşub-daşır,
Suyla oynayanda ona xoş olur.
Balıqtək özünü atır dənizə,
Dəniz suya düşür, Dəniz yaş olur.
Həyatın sevinci, ömrün nazı san,
Bəxtinə su kimi çilənər dən-dən.
Soruşsan, sən kimin Dəniz qızısan,
Deyər ki, dənizin Dəniziyəm mən.

## GÖYLƏRƏ UCALARAM

Atamın həyatında
Yeni açılmış danam.
Hamının sevimlisi
Mən balaca Nurdanam.

Respublika günündə
Gəlmişəm bu dünyaya.
Bənzərəm bayrağımda
Qızıl ulduza, aya.

Işıqlı işlərimlə
Qaranlıqdan qaçaram.
Hər sabah günəş kimi
Aləmə nur saçaram.

Vətənin sabahında
Nurlu bir tac olaram.
Üçrəngli bayrağımtək
Göylərə ucalaram.

## NURDANIN MAHNISI

Hamının sevimlisi
Ağıllı bir qızam mən.
İşıqlı bir səhərəm,
Günəşli gündüzəm mən.
Bu gözəl dünyamıza
Baharda göz açmışam.
Özüm də günəş kimi
Aləmə nur saçmışam.
Bahar kimi səfalı,
Çiçəktək ətirliyəm.
Dostlarımın yanında

Hörmətli, xətirliyəm.
Qırmızı papağım var,
Qırmızı ayaqqabım.
Qırmızı çantamdadır
Qələm, dəftər, kitabım.
Şəkilli corablarım,
Güllü paltarım da var.
Dəsmalımda kəpənək
Çiçək üstünə qonar.
Atam nə desəm alır,
Istəyir ki, sevinəm.
Hədiyyələr gətirir
Bizə gələndə nənəm.
Oxuyub-oynayıram,
Deyirlər coşqun Kürəm.
Hamıdan artıq dəcəl
Qardaşımı sevirəm.
Anamın həyatına
Sevinc gətirən anam.
Atamın sevimlisi
Mən balaca Nurdanam.

# MƏHƏBBƏT,

# MƏHƏBBƏT,

# YENƏ MƏHƏBBƏT

## MƏNİM ŞEİRLƏRİM

Mənim şeirlərim sevgi şeiridi,
Dağı da, daşı da sevib yazıram.
Çiçəkli baharı sevdiyim kimi
Çovğunlu qışı da sevib yazıram.

Dağ yükü çəkərək dağlaşan anda
Dağılır başımdan dağların sisi.
Hər dəfə əlimə qələm alanda
Çağlayır qəlbimdə vətən sevgisi.

Yurdumun torpağın, daşın sevirəm,
Baharın sevirəm, qışın sevirəm.
Doğma anam kimi açıb sirrimi,
Vətənə yazıram sevgi şeirimi.

Sevgidən yoğrulub bədənim, ruhum,
Sevgidən yoğrulub sevincim, ahım.
Eşq ilə ölçülür savab-günahım,
Eşq ilə açılır, gülür sabahım.

Dünyanın, həyatın təzadı min-min,
Gündüztək oxşaram gecəsini də.
Doğmalar yaşayan doğma kəndimin
Sevirəm palçıqlı küçəsini də.

Həyatla vuruşum oldu heç-heçə,
Eşqimlə ömrümə artdı neçə yaş.

Yarın qədəmlərin öpən hər küçə
Ruhuma, qəlbimə olubdu sirdaş.

Hər gün eşq qapısın mələklər döyür,
Təki haqq yolunu azmayım keçim.
Gözəllər naz satıb cana-can deyir,
Necə sevgi şeiri yazmayım keçim.

Şeirdir yurdumun hər bir gözəli,
Məhəbbət yolunda tükənməz sözüm.
Sənə qələm çəkib tanrının əli,
Ən gözəl əsəri sənsən, əzizim.

Sevgi yollarında qoydum canımı,
Həsrətli günlərim saçımda dən-dən.
Kənarda axtarma qəhrəmanımı,
Məhəbbət şeirimin ünvanı sənsən.

Tanrı da eşq ilə ilhamə gəldi,
Aşiq bülbül kimi ötürəm dil-dil.
Nə qədər sən varsan, dünya gözəldi,
Sevgi şeirlərim tükənən deyil.

## SƏNİ UNUTMAĞA QOYMAYACAĞAM

Göylərdən güc alır bu eşq, bu istək.
Kəsmək asanmıdır? Bu əl, bu ətək. . .
Bitərəm qapında dəmirağacıtək,
Səni unutmağa qoymayacağam,
Məni unutmağa qoymayacağam.

Ən şirin təmastək yaxına gəlib,
Ən xəfif yel kimi yaxana gəlib,
Hər gecə eşq ilə yuxuna gəlib,
Səni unutmağa qoymayacağam,
Məni unutmağa qoymayacağam.

Tale göylərində şimşəktək çaxıb,
Buz kimi yandırıb, od kimi yaxıb,
Hər səhər, hər axşam yoluna çıxıb,
Səni unutmağa qoymayacağam,
Məni unutmağa qoymayacağam.

Yağsa da yoluna həsrətin qarı,
Unutma sevgidir dünyanın varı.
Tanrı bağışlamır unudanlari,
Səni unutmağa qoymayacağam,
Məni unutmağa qoymayacağam.

## MƏHƏBBƏT

Ömür karvanının köçündən keçir,
Min ildir əkindən, biçindən keçir.
Zülmət gecələrin içindən keçir
İşıqlı gündüzə, günə məhəbbət.
Məhəbbət, məhəbbət, yenə məhəbbət.

Kədəri sinədə dağ olub, demə,
Saflığı qəlbimə dağılıb, demə.
Mənimlə bir yerdə doğulub, demə,
Arzu-istəyimə ana məhəbbət.
Məhəbbət, məhəbbət, yenə məhəbbət

Keçilməz sədləri, yolları biçir,
Əbədi bir vəhdət şərabı içir.
Uca zirvələrin eşqindən keçir
Dumana məhəbbət, çənə məhəbbət.
Məhəbbət, məhəbbət, yenə məhəbbət

Arzumu, sözümü gəl dinlə, dindir,
İlahi, sən məni eşqinlə dindir.
Məhəbbət dünyada ən ali dindir,
Sığmayır ağıla, dinə məhəbbət.
Məhəbbət, məhəbbət, yenə məhəbbət

Gücüylə dünyanı hərlədər, əylər,
Gör nələr eyləyib, gör nələr eylər.
Mənzili ürəkdir, bir də ki göylər,
Qıymaz zirvələrdən enə məhəbbət.
Məhəbbət, məhəbbət, yenə məhəbbət

Səninlə bütövəm, səninlə, yarım,
Eşqin, qüdrətindir həmdəmim, yarım.
Ürəyim ən əngin səmadı, tanrım,
Qurubdu qəlbimdə binə məhəbbət.
Məhəbbət, məhəbbət, yenə məhəbbət

Sinəmdə alışan oddur, ocaqdır,
Sevgisi, sevinci qucaq-qucaqdır.
Məni bu dünyada yaşadacaqdır
Məhəbbət, məhəbbət, yenə məhəbbət.
Məhəbbət, məhəbbət, yenə məhəbbət

## KÖZƏM MƏN

Saf sevgilər haqq adında qorunub,
Niyyəti saf, alnı açıq üzəm mən.
Kül altinda saxlamışam qorumu,
Ocağından ayrı düşən közəm mən.

Yollarında izim qalıb eləcə,

Gözlərində gözüm qalıb eləcə.
Ürəyimdə sözüm qalıb eləcə,
Eşqi pünhan deyilməmiş sözəm mən.

Kim verəcək bu sevgimə qiyməti,
Hicran olub əzəl gündən qismətim.
Öz əlinlə kaş boğaydın həsrəti,
Ayrılığa söylə necə dözüm mən.

Eşq gələndə qanad verər söz sözə,
Alışmağa kömək eylər köz közə.
İlham Pərim, gəl dayanaq göz-gözə,
Qəlbimə bax, ilqarımda düzəm mən.

Gözlərini gizli-gizli süzginən,
Baxan olsun bu taleyi küskünə.
İstəyirəm sənin bu saf sevginə,
Bir əbədi təzə dastan yazam mən.

Eşqlə başlar bu dünyanın əzəli.
Bu vüsala imza ata öz əlin.
Eşq bağına çağır məni, gözəlim,
Fürsət ola, qismətimi üzəm mən.

## ZALIM

Həsrət ömrümüzü çapıb-talayir,
Fələyin qisası yamandı, zalım.
Məhəbbət qəlbimdə ocaq qalayıb,
Eşqimə cavab ver, amandı, zalım.

İllər saçımızda üşüyür dən-dən,
Həyatdan kam alar vüsala yetən.
Şikayət eyləmə taleyinizdən,
Vallah, sevilməli zamandı, zalım.

Çıxsaq da həyatın min sınağından,
Vaxt keçir, ötürük gənclik çağından.
Ürəklər döyünür hicran dağından,
Hələ ki yolumuz dumandı, zalım.

Eşqiylə böyükdür böyük yaradan,
Eşqlə, məhəbbətlə işıqlanır dan.
Heç nə ummasaq da dostluğumuzdan,
Ürəklər məhəbbət umandı, zalım.

Əcəl bardaş qurub illəri sayır,
Sevib-sevilməyə bir az vaxt ayır.
Kamal sahibisən, özün seç, ayır,
Demə ki, bu da bir gümandı, zalım.

## GÖZLƏRİNİN ŞƏKLİ

Gözəl, gözlərinin şəklini çəkdim,
Gözəl gözlərinin şəklini çəkdim.
Eşq ilə doluydy piyalə gözlər,
Necə yaraşırdı camala gözlər.
Qəlbimi saldı min xəyalə gözlər.
Məni bu dünyadan aldı, apardı,
Çəkdi imtahana, kamala gözlər.

Gördüm gözlərində neçə dünya var,
Tanrı nə çəkmişdi yoza bilmədim,
Tale nə çəkmişdi yaza bilmədim,
Mən də oz dünyamın şəklini çəkdim,
Sevgimin, sevdamın şəklini çəkdim.
Gözlərin necə də gözəl çəkildi,
Gözlərin necə də gözəldi, gözəl,
Görənlər dedilər gözəldi, gözəl.
Ancaq gözlərində bu nə naz idi,
Hər ədan, hər qəmzən bir söz deyirdi,
Bu lal baxışlara necə lal deyim?
Oğulsan bu naza bir döz deyirdi.

Baxmadı son bahar- payız yaşıma,
Ulduzlu gecətək ayaz yaşıma.
Saçımda ələnmiş dənə baxmadı,
Başımda dumana, çənə baxmadı.
Bu nazın çəkisi cahandan ağır,
Sevgisi vüsaldan, hicrandan ağır.
Ürək naz çəkdiyin bu ana sığmaz,
Nazın bu dövrana, zamana sığmaz.
Nazın bu məkana, cahana sığmaz.

Dünyanın nə qədər dərdini çəkdim,
Həyatın min cürə şərtini çəkdim,
Gözəlini çəkdim, mərdini çəkdim,
Ancaq ki bu nazı çəkə bilmədim.
Bu nazın şəklini çəkə bilmədim.

Gözəl, gözlərini şəklini çəkdim,
Gözəl gözlərinin şəklini çəkdim.
Heyif ki nazını çəkə bilmədim,
Heyif ki nazını çəkə bilmədim.

## KEÇMƏSƏM ÖLLƏM

“Baxsam öldürərlər, baxmasam öllәm”.
Qaracaoğlan

Ağlın zindanında eşqim sirr kimi,
Açsam öldürərlər, açmasam ölləm.
Bir gözəl doldurub eşq badəsini,

İçsəm öldürərlər, içməsəm ölləm.

Bəmbəyaz qardımı bahar gəlini?
Küləklər darayır qızıl telini.
Bir zəmi barlanıb, əyib belini,
Biçsəm öldürərlər, biçməsəm ölləm.

Qoynunda üzməyə bir göl çağırır,
Köynəyin soyunub bir gül çağırır.
Açıb qollarını "gəl-gəl" çağırır,
Qucsam öldürərlər, qucmasam ölləm.

Çəkilib dağların dumanı, sisi,
Göylər eşq yoluna çəkir hər kəsi.
Açılıb qarşımda vüsal körpüsü,
Keçsəm öldürərlər, keçməsəm ölləm.

## BİR EŞQ NƏĞMƏSİ OXU

Bir vüsal nəğməsi çal, pianino çalan gözəl,
Gülüşüntək can alsın şirmayı barmaqların.
Gözəlliyin eyləyib ömrümü talan, gözəl,
Məhəbbətdir, sevgiidir mənim dövlətim, varım.

Şirin bir nəvazişlə məni məndən alırsan,
Xəyalınla titrəyir ürəyimin telləri.
Sevdasız günlərimi yenə yada salırsan,
Ah, niyə boş keçirdim ötüb keçən illəri.

Bir eşq nəğməsi oxu, eşqinlə aşım- daşım,
Ruhun pianinonun dillərinə tökülsün.
Şirin bir nəğmə kimi vüsalına qovuşum,
Qoy dəli həsrətimin zindan bağrı sökülsün.

## BU GÜN AYRILIRSAN

Bu gün ayrılırsan, axan göz yaşın
Sevincə bürünmüş kədərdən ağır.
Vüsalın əl edir yol ayrıcında,
Həsrətin çədiyin qəhərdən ağır.

Eşqimi bəxtinin varı bilmisən,
Odumu ömrünün qoru bilmisən.
Gedirsən qəlbimi yarı bölmüsən,
Eşqin ürəyimdə qanla tən axır.

Bu acı həsrətin kökü dərində,
Bir vüsal bitmədi görüş yerində.
Ardınca gələrəm günün birində,
Məni edəcəksən vətəndən axır.

## GƏLMİŞƏM

Neçəsi gözünü yoluma dikmiş,
Mənsə üz tutmuşam sənə, gəlmişəm.
Tanrı min yol məni sınağa çəkmiş,
Yenə istəyirsən sına, gəlmişəm.

Salmısan özünü çox qeylü-qala,
Barı yaşamağa bir fürsət qala.
Ömür təndirinə ömür qat, qala,
Qoyma od-ocağım sönə, gəlmişəm.

Haqqın huşyar edən şərabın içib,
Min gözəl içindən tək səni seçib,
Neçə çay adlayıb, neçə yol keçib,
Gərib küləklərə sinə, gəlmişəm.

Bu eşq bir dəryadı –ömrü udası,
Sənsən xilas yolu –sevgi adası.
Səslənir göylərdə bir eşq sədası,
Qoşulub bu səsə, ünə, gəlmişəm.

Ürəyə dağ çəkən dağları gəzib,
Nə qədər qəm-kədər gölündə üzüb.
Bu dəli hicrana səbrlə dözüb,
Verdiyin vədəyə, günə gəlmişəm.

Haqqa ölçü eylə əyar eşqimi,
De səndən başqa kim duyar eşqimi?
Qorudum qəlbimdə bahar eşqimi,
Baxma saçımdakı dənə, gəlmişəm.

## ÇƏK QILINCI

Milyon ildi karvanımız haylanıb,
Taleyimiz qəm üstündə toylanıb.
Dan üzünə günəş kimi boylanıb,
Çiçəklərin göz yaşını silmişəm.

Qubar verər qəlbimizin göynəyi,
Soyunmasaq həsrətin dar köynəyin.
Hər ağrına, hər acına göynəyib,
Öz ömrümü sənin ömrün bilmişəm.

Sevgi varsa, taleyimiz yaz olar,
Qəm “sevirəm” kəlməsindən asılar.

Çox qalmayıb gözlədiyin vüsala,
Daş həsrəti mum eyləyib gülmüşəm.

Bəxt yazmağa qələm eylə qolumu,
Göz yaşların buza dönmüş dolumu?
Qəza gəlsə, əcəl kəssə yolumu,
Sanaram ki, eşq yolunda ölmüşəm.

Hörmətini uca tutub ismətin
Dadaq bu gün meyvəsini qismətin.
Daha bizə gücü çatmaz həsrətin,
Çək qılıncı, vüsalına gəlmişəm.

## İNDİ

Çiçəktək açılmısan
Qarşımda, gülüm, indi.
Bircə anda yox oldu
Çəkdiyim zülüm indi.

Demə sakit dur, otur,
İçimdə vulkan yatır.
Gözlərin ocaq çatır,
Eşq dadır külüm indi.

Düşmüşəm eşq oduna,
Əlini sal boynuma.
Qoy baş vurum qoynuna,
Qoynyndu gölüm indi.

Zirvədə çəni sevdim,
Sünbüldə dəni sevdim.
Bu yaşda səni sevdim,
De necə ölüm indi.

## MƏNƏ DƏRD GƏTİRDİ

Ürək, bu nə oddur, bu necə ocaq?
Yandın, külə döndün, qızmadım ancaq. .
Sevgi gözləyirdim mən qucaq-qucaq,
Mənə dərd gətirdi bu məhəbbətin.

Bu eşqin kədəri özündən böyük,
Arzusu, istəyi dözümdən böyük.
Çəkibdir yuxumu gözümdən bu yük,
Mənə dərd gətirdi bu məhəbbətin.

Ümüdüm cəlladın kötüyündədi,
Soruşan yoxdur ki, itiyin nədir?
Əllərim allahın ətəyindədir,
Mənə dərd gətirdi bu məhəbbətin.

O yanan anları qaytar gəl indi,
O uçan göylərə çatmır əl indi.
Dünən sevdiyin qız bu gün gəlindi,
Mənə dərd gətirdi bu məhəbbətin.

Həsrəti eşqimə rəva bilmirəm,
Onu xəyalımdan qova bilmirəm.
Bu dərdə olarmı dəva bilmirəm,
Mənə dərd gətirdi bu məhəbbətin.

## BU DOSTLUQDAN BARIN

Min ürəyi, min dünyanı,
Gəzib gəldim birəm-birəm.
Bir rəngim var, bir adım var,
Tanrı kimi birəm, birəm.

Tale bizə gəldi kələk,
Qəm ələdi ələk-ələk.
Yerdə gəzdik arxa, kömək,
Göydən gəldi bir ün, bir ün.

Qəlbimizi həsrət oyar,
Eşqimizə bu dünya dar.
Məndə mələk saflığı var,
Bu saflığa bürün, bürün.

Ötəridir, uyma vara,
Xoşbəxtliyi eşqdə ara.
Çox uyursan xəyallara,
Səmalardan bir en, bir en.

Gəl qarğıma bu dünyanı,
Necə pozaq bəxt yazanı?
Bu dostluğu, bu sevdanı
Unutmaram bir an, bir an.

Min hökmü var hər saatın,
Qəlbimdədir odun, adın.
Bu sevdadan barınmadın,
Bu dostluqdan barın, barın.

## TELEQRAFÇI QIZ

Nə vaxtdır istəyim qəlbimi didir,
Hicranın odunda yanıram yalqız.
Sizə həsr etdiyim sevgi şeirini
Necə ünvanlayım, teleqrqfçı qız.

Dedim səsimizi başqa tel çəkər,
Teleqraf xəttinə olmaz etibar.
Ürəkdən ürəyə gözlər yol çəkər,
Teleqraf xəttinə nə ehtiyac var.

Bir qəlbin məhəbbət yanğısıdır bu,
Hər ötən baxışdan uzağa qaç ta.
Etibar etmədim sevgi məktubun
Nə qatar, nə də ki AVİA-poçta.

Niyyətim düşməsin ağıza, sözə,
Qəlbi incimәsin, dedim, yarın da.
Eşqimi bildirmək istədim sizə
Durna qatarının qanadlarında.

Şirinsiz, balmı var diliniz altda?
Salmısız alova, közə dünyanı.
Bu dünya döyünür əliniz altda,
Hər kodu bəllidir sizə dünyanın.

Bir azca duyğusu vardır hər kəsin,
Çox vaxt danışırıq eşqin adından.
Tuta bilirsizmi eşqin nömrəsin,
Varmı xəbəriniz sevgi kodundan?

Dərd çəkən ürəyim qalıbdı darda,
Dərdimə məlhəmdi vüsalın xası.
Görən bilirsizmi döyünür harda
Sizi sevən gəncin ürək dünyası?

"Sevirəm" sözünə ehtiyacmı var?
Arzumu hiss elə baxışlarımdan.
Eşqi başımızda eyləyib çətir
Qorunaq taleyin yağışlarından.

Bir anlıq qayğısız, dərdsiz yaşamaq
Açar bəxtimizə düşən düyünü.
Cənnətdə keçirək, cənnətdə ancaq
Beş günlük dünyanın beşinci günün.

## FÜRSƏTİ VERMƏYƏK BADA

Nəhayət, görüşdük, bu mən, bu da sən,
Bir az vaxtımız var, verməyək bada.
Bəlkə, indiyədək yaşamamışıq,
Yaşayaq bu bir az vaxtı dünyada.

Ağıl hissimizi həmişə danlar,
Məhəbbət hər şeyi qoyar geridə.
Qorxu, həyacanla ötüşür anlar,
Tapılmır xəlvət bir görüş yeri də.

Bir şirin vüsalın həsrətindədir,
Ürəyim gör necə döyünür indi.
Keçilməz sədləri aşıb keçirik,
Bəxtimiz qalib tək öyünür indi.

Sənlə ilk görüşdə açıldı gözüm,
Qəlbimi açmaqsa olmadı asan.
Qara niqabını soyundu sözüm,
Sən qarabuğdayı qaraçuxamsan.

Məhəbbət gül açar açılsa dillər,
Gözəllər sevgidə dərin olurlar.
Qara kişmişmidir qara gözəllər,
Niyə kişmiş kimi şirin olurlar?

Səni ilk görüşdə sevdim, əzizim,
Məhəbbət önündə mən dili lalam.
Məğlub döyüşçütək bükülüb dizim,
Açılıb sərhədlər, tutulub qalam.

Vüsala yetməkçün döyünür ürək,
Sina dağı bildim sinə dağını.
Eşqin paytaxtını fəth eləyən tək
Sancmısan qəlbimə eşq bayrağını.

Hər an ömrümüzü alıb aparar,
Zanana etibar yoxdu dünyada.
Vüsala yetməkçün bir azca vaxt var,
Əzizim, fürsəti verməyək bada.

## BU DASTAN SEVGİ

Bütün yaranmışlar eşqlə yaranıb,
Dünyanın taleyin yazıb gedərəm.
Yayın od nəfəsi qışda yaranıb,
Qışın buz qatında qızıb gedərəm.

Eşq ilə böyükdür hər zərrə, gilə,
Dünyanı çiynimə götürəcəyəm.
Məni böyük edən böyük eşq ilə
İblisi imana gətirəcəyəm.

Eşqlə qanadlanar ürək də, quş da,
Ümman da eşq ilə çağlayar, coşar.
Sevgiylə yoğrulub insan da, daş da,
Odur ki, olublar taleyioxşar.

İşim gecə-gündüz dağ yarmaq olub,
İlahi sevgiyə həris olandan.
Dünyanı sevgiylə yaratmaq olub,

Məcnuna, Fərhada varis olandan.

Eşq ilə alışar ocaq da, köz də,
Ürək məhəbbətlə, eşq ilə dinər.
Sözüm nəğmə olar dildə, ağızda,
Sevgim bir ilahi dastana dönər.

Başımı qoyaram bir gün, ilahi,
Dünyanın müqəddəs qüds daşına.
Məni ziyarətə gəlib-gedənlər
Bu dastan sevgidən hədis danışar.

## SƏHİFƏLƏ MƏNİ

Göydən göndərilmiş imanam, dinəm,
Bir eşq kitabıtək səhifələ məni.
Ötən günlərinə sərf eyləmədin,
Gələn günlərinə sərf eylə məni.

Şairin ürəyi özünün deyil,
Qəlbini kimləsə bölmək üçündür.
Məcnun taleyidi şair taleyi,
Şair eşq yolunda ölmək üçündü.

Gördüyün yuxunu şairə yozdur,
Bizim gördüyümüz yuxu da çindir.
Şairdən başqa şey umma, əzizim,
Gözəllər dünyada sevilmək üçün,
Şairlər eləcə sevmək üçündür.

Sevgi badəsiyik bir xoş baxışa,
Bir xoş təbəssümlə aşıb-daşırıq.
Siztək gözəlləri tənha görəndə
Biz də təkləşirik, tənhalaşırıq.

Varmış soyuqluğun bəyazlığı da,
Bu ağlıq saçımı üşütdü dən-dən.
Soyuqluq dondurar yanar dağı da,
Bilmirəm nə olub, küsmüsən nədən?

Ya süzgün baxışın alıb ağlımı,
Ya bəlkə, gülüşün alıb ağlımı.
Bir az gözəlliyin alıb ağlımı,
Bir az dəcəlliyin alıb ağlımı,
Bilmədən yanında səhv eyləmişəm,
Tanrının verdiyi fürsət məqamı,
Bir baxış, bir gülüş ömrü qədər
Eşqimi mən sənə sərf eyləmişəm.

Bir baxış günahım olub yanında,

Üzündə, gözündə baxışım qalıb.
Axı gözəllərə gözəllik kimi
Baxmaq nə zamandan günah sayılıb.

Heyf, soyuqluğun yanar qəlbimi,
Şaxtatək doğradı, buz kimi kəsdi.
Demirəm səcdə et, başıma dolan,
Bircə baxışının salamı bəsdi.

Bircə baxışının salamı bəsdi
Ovutsun qəlbimin həyəcanını.
Qoy qəlbin qəbahət, günah sanmasın
Tanrının verdiyi fürsət anını.

Göydən göndərilmiş imanam, dinəm,
Bir eşq kitabıtək səhifələ məni.
Ötən günlərinə sərf eyləmədin,
Gələn günlərinə sərf eylə məni.

## QIYMADIN

Gəlmədin, yoluna dikildi gözüm,
Qalandı qəlbimdə qəm düzüm-düzüm.
Vüsal gözləyirdim səndən, əzizim,
Hicran ürəyimi yaxdı, qıymadın.

Dünya öz hökmündə, xeyir-şərində,
Çəkdiyim əzabın kökü dərində.
Tanrı bol eylədi dərdi verəndə,
Ancaq çiçək açan baxtı qıymadı.

Aşiqəm, çıxsam da dinin yolundan,
Çıxarar eşq məni çənin yolundan.
Mən canı qıyıram sənin yolunda,
Sən mənə bir azca vaxtı qıymadın.

## SEVDA

Sutək safdı, odtək isti
Aydan arı, duru sevda.
Eşqsiz insan quru sözdü,
Ürəklərin qoru- sevda.

Eşq ruhdu, ruhun canıdır,

Hər kəsi eşqi tanıdır.
Həyat bir ov meydanıdır,
Dünya-ovçu, toru- sevda.

Kim deyir ki, ov deyilik,
Alışmağa qov deyilik.
Sevgisiz bütöv deyilik,
Yarı canıq, yarı sevda. . .

## BU EŞQ

Adəmin saldığı cənnət bağının
Qönçədən açılmış gülüdü bu eşq.
Vulkanı püskürən hicran dağının
Bağrında alovun dilidi bu eşq.

Qorunu bəsləyib qarlı qışında,
İzini saxlayıb ocaq daşında.
Adəmdən Xatəmə qan yaddaşında
Haqqın bir dadımlıq külüdü bu eşq.

Qəmi sevinc dadır, acısı şirin,
Ən ulu məqamda görünür yeri.
Ümidi kəsilməz Xan Ağamirin
Tanrı ətəyində əlidi bu eşq.

## KİTAB İÇİNDƏ

Eşqinin odunda yananda ürək
Töküldün ovcuma sən ləçək-ləçək.
Mən səni iyləyib atmadım, çiçək,
Qoruyub saxladım kitab içində.

Ayrılıq qəlbimi sıxdı qəhərdən,
İllər saçlarıma dağıldı dən-dən.
İçi qəmlə dolu xatirələrdən
Bir kitab bağladım kitab içində.

Həsrət taleyimdən salandan köçün,
Qayğılar qəlbimdə yığıldı çin-çin.
Solmyş xatirəmi göyərtmək üçün
Həyattək çağladım kitab içində.

## GƏL GEDƏK

Çıxmısan öz yolundan,
Yoluma gəl, gəl gedək.
Qolum tutsun qolundan,
Qoluma gəl, gəl gedək.

Zəncir edib telini,
Bağlamısan “dəli”ni.
Tapammıram dilini,
Dilimə gəl, gəl gedək.

Haqtək olsam yanında,
Eşq qaynayar qanında.
Ölüm-dirim anında
Ölümə gəl, gəl gedək.

## SƏHV ELƏMƏ. . .

Ayaq açıb ayrılığa
Saxladın dincə sevgimi.
İncik salıb insələmə
İncədən-incə sevgimi.

Küy salıb həsrətin qəmi,
Gərilib qəlbimin simi.
Gecikmiş bir şagird kimi
Qoymusan küncə sevgimi.

Ömür yolun sanma asan,
Verdiyin dərd-qəmdən usan.
Səhv eləmə, tapammazsan
Bir də ölüncə sevgimi.

## GÖYLƏRƏ—GÖYLƏRƏ

Bu gözəllik alıb qatdı
Bizi göylərə-göylərə.
Həlqələyib kəmənd atdı
Sözü göylərə-göylərə.

Bu qız gedir hara, sığmır,
Xeyrə sığmır, şərə sığmır.
Ədası bu yerə sığmır,
Nazı göylərə-göylərə.

Həm bu eşqə şükür edirəm,
Həm bu hala fikir edirəm.
Səhər-axşam zikr edirəm
Üzü göylərə-göylərə.

## TUTMUŞAM SƏNİ

Eşqimlə alışan ocaqsan, gözəl,
Od kimi, qor kimi tutmuşam səni.
Ömrə işıq yayan çıraqsan, gözəl,
Yolumda nur kimi tutmuşam səni.

Bilinmir nədəndir kədərin, nəşən,
Gah qəmli olursan, gah da gülər, şən.
Tanrının əlindən sürüşüb düşən
Balıqsan, tor kimi tutmuşam səni.

Eşqimdən nur alıb üzü nur saçan,
Xəyalın quş kimi göylərdə uçan.
Dəli küləklərə qanadın açan
Yelkənsən, dor kimi tutmuşam səni.

Qönçəsi açılmış gül kimi tərsən,
Təzə şirələnmiş dəymiş bəhərsən.
Atsam dənə-dənə gilələnərsən,
Ovcumda nar kimi tutmuşam səni.

İçmək istədiyim bir ovuc susan,
Eşqin günahından demərəm usan.
Cənnətdə yetişən qızıl almasan,
Ən dadlı bar kimi tutmuşam səni.

Bir şirin nəğməsən çağlayan, coşan,
Hər səhər səsinlə işıqlanar dan.
Ürəyi titrədən, başı oynadan
Sinəmdə tar kimi tutmuşam səni.

Üzü bədrlənmiş aya çevrilən,
Hər sözü, söhbəti toya çevrilən.
Ovcumda əriyib suya çevrilən
Bəmbəyaz qar kimi tutmuşam səni.

Eşqimin oduyla bəslənən çiçək,
Açıldın sinəmdə sən ləçək-ləçək.
Ən varlı xəzinə tapan xəsistək
Qəlbimdə sirr kimi tutmuşam səni.

Ətrin, gözəlliyin gülə yapışıb,
Baldan şirinliyin dilə yapışıb.
Əlim ətəyindən elə yapışıb
Buraxmaz, kor kimi tutmuşam səni.

## DOLANA- DOLANA

Bu dünyada haqq gəzirəm,
Gülüm, dolana-dolana.
İcazə ver ünvanına
Gəlim dolana-dolana.

Baxma varıma, yoxuma,
Bir azca burax yaxına.
Çiçək olsun gül yaxana
Əlim dolana-dolana.

Zaman çəkir ömür köçün,
Arzularım olarmı çin?
Haqqı səndə tapıb, sənçün
Ölüm dolana-dolana.

## O GÖZLƏRDİ BAXDIĞIM

“ . . . o gözlərə baxmaram. ”
M. Araz

Çox sevdanın xülyasında boğuldum,
Çox həsrətin qəm-yasında boğuldum,
Çox gözlərin dəryasında boğuldum,
İnnən belə o gözlərdi baxdığım.

Ötən günün sevincinə gülmürəm,
Yazı haqdı, taleyimdən silmirəm.
Necə olub baxmamışam, bilmirəm,
İnnən belə o gözlərdi baxdığım.

Nə yaxşı ki o gözlərdə mən varam,
Məlhəmiylə sağalıbdır hər yaram.
Ta hər ötən baxışlara baxmaram,
İnnən belə o gözlərdi baxdığım.

Bostan bəxtim o gözlərlə əkilmiş,
Ürəyimdə eşq binası tikilmiş.
Baxışımdan yad baxışlar çəkilmiş,
İnnən belə o gözlərdi baxdığım.

Gözəlliyə təşnəymişəm, acmışam,

Riyalardan, yalanlardan qaçmışam.
Yanlışların ilməsini açmışam,
İnnən belə o gözlərdi baxdığım.

Dalğalara sinə gərən avardı,
Alıb məni səadətə apardı.
Bilməyirəm nə hikmətdi, nə vardı,
Innən belə o gözlərdi baxdığım.

Həqiqətim, din-imanım olubdur,
Son ümidim, son ünvanım olubdur.
Gündoğanım, günbatanım olubdur,
İnnən belə o gözlərdi baxdığım.

## MƏNDƏDİR

Eşqimlə oyanır dünya hər səhər,
Yer məndə, göy məndə, fələk məndədir.
Sözüm niqab altda gətirir bəhər,
Haqqı arıtmağa ələk məndədir.

Üz üzə dayanar, xal xalı dağlar,
Həyalı üzlərdə al xalı dağlar.
Haqqa arxa olar arxalı dağlar,
Dağlara tab edən kürək məndədir.

Sevsən, lal baxış da dinər, səs elər,
Bal dillə qəlbimi bal tək kəs elə.
Məni yaşatmağa bir söz bəs elər,
Səni yaşadacaq ürək məndədir.

## AD GÜNÜNƏ

Demə qocalmışam, qayğılarım çox,
Ömrümə min qayğı gətirib bu yaz.
Sevgisiz, sevdasız bircə anım yox,
Sevda unudulmaz, eşq unudulmaz.

Özümdə deyiləm, özümdə, gülüm,
Özümdən yüksəkdə gəzirəm hər an.
Deyəsən, bu eşqə verərək zülüm,
Məni imtahana çəkir Yaradan.

Ömür köhlənini çəkib aparır,
Bu qaynar çağımız, bu dəli anlar.
Hər gün yolumuzda tufan qoparır,
Heç vaxt unudulmaz sevdalı anlar.

Tanrı qismətisən, bəxtsən, yazısan,
Eşqin mehrabına uzanıb əlim.
Hər səhər doğulan dan ulduzusan,
Hər gün ad günündür mənimçün, gülüm.

## ŞƏKLİNİ ÇƏKMƏK İSTƏDİM

Gözlərinin şəklini çəkmək istədim,
Gördüm neçə dünya sığıb o gözlərə,
çəkmədim.
Çəkmək istədim sözlərinin şəklini,
Gördüm neçə ürək döyünür o sözlərdə,
çəkmədim.
Səsini dinlədim,
Düşdüm sehrinə, ahənginə möcüzə səsinin.
Səsindəki bu sirr nədir,
bu möcüzə, sehr nədir? Bilmədim.
Gördüm bu səsdə bir ah göynəyir,
bir qəm sızlayır.
Gördüm bir az kədər, bir az qəhər
gizlənib bu səsdə.
Gördüm bir haray var, hay var bu səsdə,
Həsrət dolu gün var, ay var bu səsdə.
Gördüm bu səsdə ancaq özünsən,
öz həsrətin, öz sevgin var.
Gördüm bu səsdə öz rəngin,
öz ritmin, öz ahəngin var.
Ömür uzun, ya qısa, nə fərqi?
Həyatın qanunudu,
vədə gəldi
ürək dayanacaq,
gözlər yumulacaq,
ancaq o səs yaşayacaq.
Səsinin şəklini çəkirəm,
səsinin şəklini.

## BƏNÖVŞƏ- 4

Həsrət qar ələyir başımın üstə,
Tələs ki. düşərsən qara, bənövşə.
İllər yaş ələyir yaşımın üstə,
Bilmirəm baxırsan hara, bənövşə.

Canı əsirgəmə Simurq quşundan,
Qoru ismətini bəxtin qışından.
Həsrət kəndirini çıxart başından,
Çəkmə ürəyimi dara, bənövşə.

Demə göylərini alıbdır bulud,
Qızın atəşimə, şaxtanı unut.
Vəfalı məşuqtək başını dik tut,
Baş əymə tikana, xara, bənövşə.

Sən Tanrı sevdalı göylər qızısan,
Ömrümün sevinci, dadı, duzusan.
Alnıma yazılmış bəxtsən, yazısan,
Eşqimlə gəlmisən yerə, bənövşə.

Uyğulu könlümü səslə, oyandır,
Həsrətin kədəri mənə əyandır.
Çətinə düşəndə telini yandır,
Ara Ağamiri, ara, bənövşə.

## EYLƏMƏ

Sevdim, ilk salamım cavabsız qaldı,
Mən nələr düşündüm? Sual eyləmə.
Qəlbində zəhər var, dilində baldı,
Acı sozlərini gəl bal eyləmə.

Nə qədər odlara qalandı ömrüm,
Dağa, daşa dəyib yalandı ömrüm.
Payız əllərinlə talandı ömrüm,
Qazancın oldumu? Xəyal eyləmə.

Həyat mum eyləyir daşı, dəmiri,
Neyləyim, beləymiş taleyin əmri.
Yolunda israfla xərclədim ömrü,
Hər sözün bir hiylə, bir al eyləmə.

Demirəm aç, söylə olanlarını,
Barı boğ qəlbində ilanlarını.
Halal eyləmirəm yalanlarını,
Sən də yalanımı halal eyləmə.

## EŞQİM ALLAHDANDIR

Dedin:dağ eylərəm ahı dağlara,
Dedim: çox çəkibdir ahı dağ dara.
Qıymadım çəkdiyin ahı dağlara,
Qəmə heykəl yapdım bu ahdan , gülüm.

Ömür sevgi adlı bir quru səsdi,
Həyat ehtirasdı, eşqdi, həvəsdi.
Məni dünənimdə arama, bəsdi,
Gəl məni soraqla sabahdan, gülüm.

Gələndə kəsmədik şərti dünyada,
Elə Məcnun gördük mərdi dünyada.
Nifrətim dərd verən dərdli dünyadan,
Eşqim Allahdandır, Allahhdan, gülüm.

## YANIM ATƏŞİNDƏ. . .

Sevgi ocağıtək alışıb sinəm,
İnam yox başqa bir imana, dinə.
Çırpıtək at məni eşq təndirinə,
Yanım atəşində bu dəli eşqin.

Vüsal arzusuyla çırpınır ürək,
Gəl çiçək sinəmə qon, ey kəpənək,
Həsrətin bağrına dağ üstə dağ çək,
Yanım atəşində bu dəli eşqin.

Közü köz üstə qoy, üfür alışsın,
Sözü söz üstə qoy , efir alışsın.
İmanlı alışsın, kafir alışsın. . .
Yanım atəşində bu dəli eşqin. .

Ömrə vəfa yoxdur, ömür bir əsim,
Vüsal nəğməsi öt, qoy gəlsin səsin.
Çap tale köhlənin, həyat kişnəsin,
Yanim atəşində bu dəli eşqin.

Mələyəm, uçuram göylə, əzizim,
Məni ağuşunda əylə, əzizim.
Bir azca dəlilik eylə, əzizim,

Yanım atəşində bu dəli eşqin.

## GÜN GƏLƏR…

Göz yaşların həsrətinin nişanı,
Bu taleyin kimlər atıb püşkünü?
Vüsal dadır səadətin hər anı,
Ömür elə bircə gündür – eşq günü.

Eşq günündə tanrı dedi "ol" sözün,
Dünya o gün ruha, cana qovuşdu.
Bir yandırır ocaq gözü, göz közü,
Ocaq qala, qəlbi yandır, alışdır.

O gün gələr, dünya gülər gözündə,
Gözlərini sevinc yaşı bürüyər.
İlahi bir sevgi gəzər üzündə,
İşığında həsrət buzu əriyər.

## SƏNİN PƏNCƏRƏNƏ BAXAN AĞACAM

Hər hicran gecəsi təsəlli kimi
Döyür pəncərəni dəmirağacı.
Ayrılıq, tənhalıq sıxır qəlbimi,
Xatirə qovurur ürəyin sacı.

Yandım eşq oduna, nə imiş suçum?
Bir bahar yağışı, su möhtacıyam.
Baxar eyvanına dəmirağacı,
Ömrünə boylanan eşq ağacıyam.

Durub qapınızda bitmişəm elə,
Yoluna boylanan dəmirağacıtək.
Dözərəm hər əsən küləyə, yelə,
Təki sən bu eşqə açasan ürək.

Bir eşq ağacıdı dəmirağacı,
Keçib budaqları biri-birinə.
Elə bil göylərə sancılıb ucu,
Eləcə işləyib kökü dərinə.

Mənim dostluğum da dəmir kimidi,
Eşqimə sadiqəm dəmirağacıtək.
Yanımdan laqeyd ötüb keçəndə
"Dözər bu möhnətə de hansı ürək?"

Ötüşür yanımdan min ağrı-acı,
Hər sözə, duyğuya sevgi qatıram.

Gülhanə parkının ceviz ağacı
Mavigöz Nazimi xatırladıram.

Nazimin fərqinə varan olmadı,
Fərqimə varırmı yoldan ötənlər?
Ayıra bildikmi doğmanı, yadı?
Zaman sərçə kimi günləri dənlər.

Şahanə bir eşqin başında tacam,
Etmə bu eşqimə tənə, nə var ki?
Sənin pəncərənə baxan ağacam,
"Sənin xəbərin yox, sənə nə var ki. "

## DƏYMƏZ

Qız ağacı—qoz ağacı,
Yaz ötməsə, sinə dəyməz.
Hər ötən bir selbə atar,
Mənim selbəm sənə dəyməz.

Tale belə verib əmri,
Eşq ilə yoğrulub xəmrim.
Sənsiz keçən günüm, ömrüm
Sənlə keçən ana dəyməz.

Kölgən altda bitən günüm—
Ölən günüm, itən günüm.
Məhəbbətsiz ötən günüm
Saçımda bir dənə dəyməz.

## SƏN GƏLƏN YOLLAR. . .

Sən gələn yola, Qaragilə, kölgə salaydım.
(xalq mahnısından)

Sən gələn yollar, Qaragilə, nə uzun oldu,
Bu yollar Saranın saçından uzun,
Adəmlə Həvvanın suçundan uzun,
Gülü açılmayıb hələ bu yazın,
Gözlərim yol çəkir, elə yol çəkir.

Sən gələn yolun, Qaragilə, daşını neylim?
Səma gözlərinin yaşını neylim?
Ceyran ayağını daşlarmı əzər?
Bəxtin payızını, qışını neylim?

Sən gələn yolda, Qaragilə, quşlar oxumaz,
Güllər gülümsəməz yar həsrətindən.
Bir vüsal nəğməsi oxusan bir az,
Bülbül boyun bükər xəcalətindən.

Sən gələn yoldadır, Qaragilə, xeyirim, şərim,
Mən içən suların quyusu dərin.
Sən gələn yollarda, Qaragilə, bitən ağacam,
Sən gələn yolların kölgəsi sərin.

## EŞQİM

Sevgidən qəlbimin kasəsi dolmuş,
Heyrətdən sellənir , daşdanır eşqim.
Üzümün müqəddəs sayəsi olmuş,
İçdə alov eşqim, dışda nur eşqim.

Sirrin möhkəm saxlar, qəm dağıdandı,
Həm ümman təşnəsi, həm dağ udandı.
Neçə sərt qayanı, sərt dağı dandı,
Kükrədi, çağladı, daşdı kür eşqim.

J ahil ağlı ilə imza qoyuldu,
Haqqı j ar çəkənlər darda soyuldu.
Məj nun zəmanədə məj nun sayıldı,
Dünən də, bu gün də daşlanır eşqim.

## CAN DEDİM, CAN DEDİN. . .

Canım boğazıma yığılıb, canım,
Can düşüb, candərdi yaşamaq çətin.
Canım cana gəlmiş, cəzanə gəlmiş,
Canı dişə tutub daşımaq çətin.

Cana can istəyib can səsləmişəm,
Canın qan eylədi, qan aldı getdi.
Canımı üzmüşəm, can bəsləmişəm,
Can alan baxışın can aldı getdi.

Canansan, canlara dəyən canımsan,
Can elə o candır, canın canımdır.
Canıma can verən canım, qanımsan,
Canın can məlhəmi, can dərmanımdır.

Cana qəcd eylədim, qədrin bilmədim,
Can da cana gəlib qana-qan deyir.
Canı can qorxusu tutub incidir,
Cana can istəyir, cana-can deyir.

Cana can istədim, yetirdi tanrım,
Canla canbir oldum, can-ciyər oldum.
Canım cana gəldi, canlandı birdən,
Canım təzələndi, təzə-tər oldum.

Can dedim, can dedin, canın bibəla,
Cana can deməyən can qıya bilməz.
Canı el yolunda fəda etməyən
Canan yolunda da can qoya bilməz.

## YAXALARSAN

Bir ömür yanırıq alovda, odda,
Gəzib axtarırıq hər şeyin xasın.
Görən elə adam varmı həyatda,
Bir dəli eşq ilə yaxalanmasın?

Sevinc düzüm-düzüm, qəm düzüm-düzüm,
Həyatda birini götürən nadan.
Qarışıb mizanım, gecəm-gündüzüm,
Bu sirli eşq ilə yaxalanandan.

Hər sabah eşq ilə açılır səhər,
Sevgi öpüş ilə verər bəhər, bar.
Sevirəm sözünü söyləməyənlər
Gedib ağızların yaxalasınlar.

Zamanın hökmündən ömür asılı,
Sevgi əbədidir, həyat bir yaşam.
Göylər göndəribdi ən pak qüsulun,
Eşqin leysanında yaxalanmışam.

Yaşamaq olmayır ömrü qədərsiz,
Keçirik içindən sevincin, yasın.
Ölüm də vaxtında olsun, vədəsiz
Gəlib ömrümüzü yaxalamasın.

Sevgidir qəlbləri yaxan odlara,
Yandırıb yaxası, yanıb yaxası.
Tutub boğazından çəkərəm dara,
Əlimə keçəndə dərdin yaxası.

Nə vaxtdır qəlbimdə yandırmışam şam,
Ziyarət etməyə varmı bir kəsim?
Eşqinlə, sevginlə yaxalanandan
Lal kimi gəzirəm kimsə bilməsin.

İlk vədə, ilk görüş olmayır asan,
Eşqin atəşiylə əriyən daşam.
Sən məni vaxtında yaxalamısan,
Mən səni vaxtında yaxalamışam.

Hər nisgil ürəkdə saxlayır bir iz,
Keçdik qırovundan dumanın, çənin.
Eşqə düşən anda Adəm babamız,
Yaxası bar verdi Həvva nənənin.

Eşq idi qaynayan onun qanında,
Eşqsiz ürəklər boranlı qışdır.
Allah da onları o eşq anında
Alma yeyən yerdə yaxalamışdı.

Bir ömür səadət sorağı ilə
Gəzdim uzaqları, duydum yaxını.
Bir vaxt oxuyurdum "yaxan düymələ",
İndi oxuyuram "aç, aç yaxanı".

İtmiş səadəti gəl özün ara,
Özün ol bəxtinin falabaxanı.
Qapını açıq qoy saf duyğulara,
Bir öpüş eşqinə aç, aç yaxanı.

Üzündən, gözündən məhəbbət yağır,
Lətafət duyuram zərif səsində.
Bir gizli baxışla gəl məni çağır,
Eşqi gəzirsənsə yer kürəsində.

Duyğusuz nə qanar məhəbbətimi,
Bir istək qaynayır ürəkdə, qanda.
Tutub yaxalarsan səadətini
Səni yaxalayıb qucduğum anda.

## AYIR SƏN

Eşqin qara yalan ağ ürəyində,
Deyəsən, qalmayıb yağ ürəyində.
Aran ürəyində, dağ ürəyində
Bir az məhəbbətə guşə ayır sən.

Yollar ütülənib, qırış qalmayıb,
Vədəli, vədəsiz görüş qalmayıb
Daha çalışmağa bir iş qalmayıb,
Özünə sevgidən peşə ayır sən.

Demə bu həsrətin kökü dərində,
Sənlə görüşərəm günün birində.
Bu eşq şəhərinin küçələrində
Mənə bircə addım köşə ayır sən.

## DƏR GÜLÜ

Hər gülün öz eşqi var,
Sevmək olmur hər gülü.
Hər çiçək bir qaladı,
Hər tərəfi hörgülü.

Qəlbi sutək saf olur,
Qazancı tərif olur,
O qədər zərif olur,
Dərmək olmur tər gülü.

Ağamir, ay, il ötür,
Gül sev, şəhdini götür.
Qoynunda tikan bitib,
Qanını ver, dər gülü.

## SƏNSİZLİK

Göylərimin sənsizliyi günəşsiz,
Gözlərimin sənsizliyi kölgəli.
Ocağımın sənsizliyi atəşsiz,
Sözlərimin sənsizliyi "bəlkə"li.

Dağlarımın sənsizliyi dumansız,
Bağlarımın sənsizliyi yağışsız.
Ümidimin sənsizliyi gümansız,
Taleyimin sənsizliyi naxışsız.

Əllərimin sənsizliyi köməksiz,
Zamanımın sənsizliyi mənsizlik.
İllərimin sənsizliyi gərəksiz.
İmanımın sənsizliyi dinsizlik.

## BİR ÖMÜR NAĞILI

Bir eşq üçün doğuldum,
Aya, günə dağıldım.
Bu tale yazısıdı,
Hər ömür bir nağıldı.

Ömrümün dan üzündə
Üzdüm eşq dənizində.
Hicran dağı yazıldı
Saçımın dən üzündə.

Qaradan, ağdan keçdim,
Sevincdən, ahdan keçdim.
Şeytanı suda boğdum,
Göydə Allahdan keçdim.

Bir ali dinə gəldim,
Bir səsə, ünə gəldim.
Bir eşq günündən çıxdım,
Bir eşq gününə gəldim.

Qəlblərə yol eylədim,
Yolları gül eylədim.
Sevgidən ocaq çatdım,
Odunu bol eylədim.

Qızınan gülə döndü,
Nəğməsi dilə döndü.
Bir gözəl qızınmadı,
Qaraldı külə döndü.

Taleyin ilməsi var,
Qəmi var, gülməsi var.
Toplaması, çıxması,
Vurması, bölməsi var.

Qəlbimə ilmə düşdü,
Bəxtimə bölmə düşdü.
Bir nağıldı danışdım,
Göydən üç alma düşdü.

Birisi mənə düşdü,
Birisi sənə düşdü.
Birisi gördüyümüz
Bu ana, günə düşdü.

## BU SEVGİNİN NAĞILI

Məhəbbətin zirvəsindən keçərik,
Alıb ələ eşq badəsin içərik.
Ömür bitər, biz dünyadan köçərik,
Bitməz heç vaxt bu sevginin nağılı.

Möcüzədir zirvəsinə ucalmaq,
Min sehrli tilsiminə açılmaq.
Hər sözünə göylər verər üç alma,
Bitməz heç vaxt bu sevginin nağılı.

Aşiqlikdi bu dünyaya sığmayan,
Məcnunluqdu günə, aya sığmayan.
Dahilikdi hər zəkaya sığmayan.
Bitməz heç vaxt bu sevginin nağılı.

Niyyəti saf, sözü düzdü bu eşqin,
Qəlbi daim yanan közdü bu eşqin.
Böyüklüyü bənzərsizdi bu eşqin,

Bitməz heç vaxt bu sevginin nağılı.

Aya dönər, ilə dönər, tükənməz,
Min obaya, elə dönər, tükənməz.
Yanar, yanar, külə dönər, tükənməz,
Bitməz heç vaxt bu sevginin nağılı.

Adəm-Həvva vüsalıdı mabədi,
Kədəri də sevincitək əbədi.
Ürəyimdi bu sevginin məbədi,
Bitməz heç vaxt bu sevginin nağılı.

## DƏRİNLİYİN QURBANI

Ən böyük, ən dərin dəryasan, gözəl,
Mən dayaz sularda üzə bilmirəm.
Məni dərinində qərq etməyə gəl,
Dərya həsrətinə dözə bilmirəm.

Qoyma uzun çəksin ayrılıq yenə,
Vüsal gəlirimdir, həsrət çıxarım.
Qəvvastək qoy üzüm dərinlliyinə,
Dərya ürəyindən gövhər çıxarım.

Eşqim dərgahına uzanan yoldu,
Özümü tapmışam bu ali dində.
Ya məni göylərin fövqünə qaldır,
Ya məni qərq elə dərinliyində.

Qalxdığım zirvələr səsini dinlər,
Qəlbim müdrikliyin heyranı oldu.
Qoy məndən sonra bu eldə desinlər,
O da dərinliyin qurbanı oldu.

## SƏNİN ALBOMUN

Hər ötən mahnıya çalmıram çəpik,
Səni düşündürməz bu söz, bu yozum.
Ömürdən bir gün də ziyan eylədik,
Dedim: dəftərinə bir şeir yazım.

Dəftərin olmadı şeir yazmağa,
Albomun olmadı şəklini çəkəm.
Sözündən sinəmə çəkilən dağa
Yalnız məlhəm etdi bu sadiq qələm.

Qələmi, varağı çətir eyləyib,

Çıxıram taleyin yağışlarından.
Sənin hər anına bir şeir yazıb,
Albom düzəldirəm baxışlarımdan.

## SƏNİN ŞƏKLİN

Heyrətdə qaldım, ey büt,
Heyrətdi sənin şəklin.
Min sirri nihan etmiş
Hikmətdi sənin şəklin.

Hüsnün ilahi bir sirr,
Hər rəsmə yaxın gəlmir.
Məndən məni almış bir
Qüdrətdi sənin şəklin.

Göz yoldadır, ey afət,
Bilməm nədir bu möhnət.
Vəhdətdi, nə də həsrət,
Xiffətdi sənin şəklin.

Fürsət uçağan bir quş,
Eşqin şərabın et nuş.
Köksümdə qərar tutmuş
Sərvətdi sənin şəklin.

Qəlbimdə bitən dənmiş,
Surətdə bütə tənmiş.
Eşqimlə dəyərlənmiş
Qiymətdi sənin şəklin.

## SƏNİN DİQQƏTİN

Yenə də qəlbimi heyrətdə qoydun,
Eşqdi, məhəbbətdi sənin diqqətin.
Ürəyin bulaqtək dumduru, aydın,
Ən pak ülviyyətdi sənin diqqətin.

Gəzib bu dünyanı haqqı arardım,
Ölkələr dolandım, qəlblərə vardım.
Sevən ürəyinə pənah apardım,
Tapdım, həqiqətdi sənin diqqətin.

Bir anda qaraldı saçımın dəni,
Qovdum yollarımdan dumanı, çəni.
Günəştək nurunda qızdırdın məni,
Oddu, hərarətdi sənin diqqətin.

Qədrini bilməsən bu can can deyil,
Qədirsiz nə canan, nə insan deyil.
Bir kiçik şeirlə qurtaran deyil,
Böyük hekayətdi sənin diqqətin.

## SƏNİN SOYUQLUĞUN

Sənin qəlbin soyuq, ürəyin soyuq,
De necə qızdırım, qız, əllərini?
Bu ömrü nə qədər çalışdımsa da,
İsidə bilmədim buz əllərini.

Qovuram yolumdan dumanı, çəni,
Deyirəm qış ötər, isti yay gələr.
Bu soyuq havalar öldürməz məni,
Sənin soyuqluğun məni öldürər.

## SƏNİN SAÇLARIN

Necə də gözəldir, gözəl, saçların,
Gözəl saç camalın gözəlliyidir.
Gözəllik dövlətim, gözəllik varım,
Gözəllik ruhumun göz dincliyidir.

Bəzən kəmənd atıb çəkər gözümü,
Eyləyər qəlbimi əsir saçların.
Bəzən də buludtək tutub üzünü
Arzu-istəyimi kəsir saçların.

Nə vaxtdır könlümü salıbdı bəndə
Ağ sinən üstündə qara hörüklər,
Burulub üzündə dönüb kəməndə
Çəkir ürəyimi dara hörüklər.

Hər kəsin ilahi qisməti vardır,
Saçından tel ayır, çal ömrün tarın.
Saçlı nənələrdən bir yadigardır,
Çiyninə səpilən gözəl saçların.

Nənələr saçları ismət biliblər,
Yuyub bəsləyiblər ipək saçları.
Onları kiməsə qismət biliblər,
Kimçünsə bəslənə gərək saçların.

Gözəl, saçlarına düşübdür gözüm,
Heyran kəsilmişəm inan bu sirrə.
Qoru saçlarını, kəsmə, əzizim,
Qorxuram bəxtin də düşə kəsirə.

## SƏNİN GÖZƏLLİYİN

Gözəl, əsl gözəllik ismətinə bürünür,
Gözəlliyin nur saçır, bəxtimi nurla dindir.
Kimə, nəyə baxıram gözəlliyin görünür,
Dünyanın gözəlliyi sənin gözəlliyindir.

Gözəlliyin- qürurun ayaqlarda sürünməz,

Hər əməlin gözəldir, bürüyüb yeri, göyü.
Bu dünya gözlərimə sənsiz gözəl görünməz,
Sənin gözəlliyindir dünyanın gözəlliyi.

## SƏNİN SƏSİN

İlahi, bu necə ilahi səsdir!
Bu səsin sehrinə düşmüşəm, Allah.
Bilmirəm düşdüyüm bu nə qəfəsdir,
Heyrətin fövqündə çaşmışam, Allah.

Kərəmtək atəşi sinə dağlayır,
Ürəyim elə bil tilsimə dəymiş.
Əslimi tellərin üstü ağlayır,
Mizrab simə dəymiş, sim simə dəymiş.

Bu səslə dolanır torpağım göyüm,
Ahəngi özümdən qoparır məni.
Bu səsin ardıyca düşən ürəyim,
İlahi aləmə aparır məni.

Bahar nəfəsinlə düşdüm həvəsə,
Səsim taleyimdə qoyubdur bir iz.
Göylərdə quşlartək ötək səs-səsə,
Açılsın səmaya azad sevgimiz.

Səs də ilahidən güc alır hər an,
Səsin sehri ilə söz hörürəm mən.
Eşqinin oduyla nalə qoparan,
Bülbül tək səsinə səs verirəm mən.

Dünyada min qəza, qəsddən keçmişəm,
Bu səsin tilsimi səsimi alıb.
Həyatda nə qədər səsdən keçmişəm.
Bu səs yaddaşımda yazılıb qalıb.

Sevgi dənizində qəvvas tək üzüm,
Təbim ümman kimi çağlaya, coşa.
Eşqinlə səsimə səs ver , əzizim,
Səsin daim gəlsin səsimlə qoşa.

## SƏNİN BARMAQLAQLARIN

Eşqin libasını nazik geyinib,
Deyirlər, tez solar bu zərif çiçək.
Bu gün barmaqların üzük geyinib,
Deyə də bilmirəm sənə mübarək

Çox sevdim, oxşadım, o bar vermədi,
Kiminsə eşqinə nübar gətirib.
Nizamı səhv saldın, haqqı görmədin,
Ürəyim həsrətdən qubar gətirib.

Çəkmişdim bir dünya dərdi-sərini,
Öz dünyam bilmişdim könül varını.
Bircə mən bilirdim ölçülərini,
Ovcunda gizlənən barmaqlarının.

Onun ölçüsünü kimlər götürdü,
De necə icazə verdin özün bəs?
İmanı itirdin, haqqı itirdin,
De hardan yarandı səndə bu həvəs?

İtirdin dünyaca etibarını,
Ən ağır yükünü daşıyır zaman.
Harda qızdırarsan barmaqlarını,
Soyuq baxışlardan üşüyən zaman.

Adsız barmağında vurur ürəyin.
Bu tale bəxtinə yazılıb qalıb,
Üzükdür, yoxsa kı ölüm ilgəyi ?
Barmaq boğazından asılıb qalıb.

Ürək arzularım yandı qorunda,
Qəbimdə bir ovuc qəm külü qaldı.
Soyuq barmaqların könül tarımda,
Bir ömür ayrılıq havası çaldı.

Daşı da əridər urək göynəyim,
Ömrüm ayrılıqlar obası olmuş.
Adsız barmağının nişan köynəyi,
Acı həsrətimin libası olmuş.

Sevgi ürəklərdə bəslər qorunu,
Eşqin yollarını üşüdəndə çən.
Niyə gizlədirsən barmaqlarını?
Axı icazəsin özün vermisən.

Söylə bu həsrəti mən necə gərim?
Bu ilk müqavilə sonuncu şərtdi.
Sənin barmağını kim geyindirib,
Soyuna bilmirsən bu necə dərddir.

Eşqin libasını nazik geyinib,
Deyirlər tez olar bu zərif çiçək.
Bu gün barmaqların üzük geyinib,
Deyə də bilmirəm sənə mübarək.

## SƏNİN DÜNYAN

Sənsən haqqım, həqiqətim.
Sözüm, ruhum, canım, dünyam.
Bölünməyən məhəbbətim,
Qarışmayan qanım, dünyam.

Yol olmusan, din olmusan,
Ürəyimlə tən olmusan.
Saçlarımda dən olmusan,
Dağlarımda çənim, dünyam.

Bəd ayaqda bilək dostu,
Kimdir arzu, dilək dostu.
Haqq sevənə ürək dostu,
Allahsıza qənim dünyam.

Ayrılığa gərib sinə
Gəl dönməyək Ayla Günə.
Bu eşqi çox görmə mənə,
Sən imanım, dinim, dünyam.

Bir döyünür bu ruh, bu can,
Bir dünyayıq ayrılmayan.
Mənim dünyam –sənin dünyan,
Sənin dünyan –mənim dünyam.

## QƏZƏLLƏR

## SÖZ

Ən böyük bir ərmağandır Tanrıdan insanə söz,
Kainata ruh veribdir, gətiribdir canə söz.

Haqq ilə çağlar bulaqtək, görsə gər haqsızlığı,
Dözməyib tufan qopardar, bənzəyir ümmanə söz.

Dünyamız qanla, silahla çıxmaybdır xoş günə,
Bir inam var hər şeyi bir gün salar səhmanə söz.

Bil ki, şair, hər kəs öz dövranının övladıdır,
Eylə söz söylə yaraşsın sürdüuün dövranə söz.

Tanrıya eşq ilə bağlıdır könül azadlığı,
Eşqini dərk etməyən şəxsi salar zindanə söz.

Sözlə ünsiyyət yaratdı tanrımız insan ilə,
Allahın dərk eyləyənlər söyləməz əfsanə söz.

Ey Ağamir, baş vurub qəvvas kimi dəryalara,
Dürr çıxart dərya dibindən, söylə dürr, dürdanə söz.

## AHƏSTƏ – AHƏSTƏ

Ötər günlər, qatar bağlar ilim ahəstə-ahəstə,
Çəkər ömrün təmənnasın ölüm ahəsta-ahəstə.

Min illərdir yanıb gəlmiş ocaq könlüm çalın-çarpaz,
Közün gizlər, qorun saxlar külüm ahəstə-ahəstə.

Vüsal yoxsa, nə sızlarsan gəzib qəmlər diyarında,
Nə hikmətdir çəkər könlüm zülüm ahəstə-ahəstə.

Suyum yanmış, havam yanmış, ruhum göylərdə pərvazdır,

Bu atəşdən yanır indi gilim ahəstə-ahəstə.

Ocaq çatmış dönük bəxtim aşıb çarpaz sinəm dağın,
Keçib min yol gəzər mənsəb selim ahəstə-ahəstə.

Yayım ötmüş, payız fəslim gəzir hər gün xəzan dövrün,
Sığal gözlər nübar görmüş telim ahəstə-ahəstə.

Ürək dürrün nihan etmiş bir ümmandır səmalartək,
Gərək qəvvas olub sirrin bilim ahəstə-ahəstə.

Sevinc ötmüş baharımla, qəm üstündə bəmim göynər,
Düşüb kökdən fəğan eylər zilim ahəstə-ahəstə.

Bir eşq adlı əzan verdim, vəfasızlar nə anlar ki,
Baxıb ötdü dəyərbilməz elim ahəstə-ahəstə.

Nə sevdadır coşub-çağlar, bu eşq sərhəd, hasar bilməz,
Divanın haqdı, qur, ya rəb, gəlim ahəstə-ahəstə.

Keçir günlər, Ağamir can, ötən ömrün hər anın bir
Həyat görmüş həqiqətlə bölüm ahəstə-ahəstə.

## QİSMƏTDİR MƏNƏ

Dünyasını vaxtsız dəyişmiş şair dostum
Yusif Əliyevə ithaf edirəm.

Açdığın qəm süfrəsi, dünya, ziyafətdir mənə.
Verdiyin eşq badəsi ən dadlı nemətdir mənə.

Dərd alıb qəm satmaz oldum, qəm bazarım qəmdədir,
Kim qəmə qiymət veribdir hökmü hikmətdir mənə.

Dövranın bir fikri qəmdir, ölçüsün qəmnən qurub,
Qurmuşam haqqın mizanın, bu qiyamətdir mənə.

Haqqı sevdim, haqq yolunda canımı qurban dedim,
İstəyim hasil olarsa, bu inayətdir mənə.

Bağrıma dağ basmış həsrət, dərd dadan hicran dadı
Bar verib kirpikdə dən-dən, bu ki zinətdir mənə.

Eşq elə dərd artırar, bəsdir şikayət eylədin,
Dözməsən dərdə əgər, eşqin şikayətdir mənə.

Haqq yolunda kamil oldun, qəm dadıb dərd anladın,
Dərdi dərk etmişsə könlüm, bu hidayətdir mənə.

Bixəbərlər laf edib sanmasın asan dərdimi,
Ən böyük aşiqlərin eşq dərdi nisbətdir mənə.

Hər kəsə qismət deyildir, ey Ağamir, arif ol,
Bir saf eşq uğrunda ölmək bil ki, qismətdir mənə.

## QƏM YEMƏ

Eşq şövqündən coşub can canə gəlmiş, qəm yemə,
Canı verməkçün könül cananə gəlmiş, qəm yemə.

Hər yarın bir dərdi vardır, hər qəmin öz çarəsi,
Həsrəti məhv etməyə dərmanə gəlmiş, qəm yemə.

Müjdəsi bağrım başında çatmış oddan bir ocaq,
Dağ çəkib eşqiylə hər hicranə gəlmiş, qəm yemə.

Tanrı eşqin yollarında aşiqin var eyləmiş,
Düşsə də Yusif kimi zindanə, gəlmiş, qəm yemə.

Söyləməzlər bir daha Məcnunun eşq əfsanəsin,
El yayıbdır bir yeni əfsanə, gəlmiş, qəm yemə.

Eşqini dərk eyləyənlər tərk edər arifliyin,
Yar yarın dərgahına divanə gəlmiş, qəm yemə.

Hər yarın dərgahı var, hər dərgahın öz aşiqi,
Salmış öz dərgahını səhmanə gəlmiş qəm yemə.

Çəkmiş eşqin yollarında min əziyyət, min bəla,
Qəlbi düşmüş Nuh kimi tufanə, gəlmiş, qəm yemə.

Aşiq olmuşdurAğamir, bir daha səhv eyləməz,
Tövbə etmiş, and içib Quranə, gəlmiş, qəm yemə.

## ƏYAN OLDU

Əqlin alışan şövqü hikmətdə əyan oldu,
Pünhan bulunan xaliq xilqətdə əyan oldu.

Qəlbində işıq varsa, hər işdə gözəllik var,
Dünyanı sevən aşiq heyrətdə əyan oldu.

Hörmət qazanar hər kim mərdlik qapısın açsa,
Mərdanəliyi mərdin qeyrətdə əyan oldu.

Gəldik nə qazanc etdik getsək qalacaq burda,
Tale nə qədər yazsa, qismətdə əyan oldu.

Hər şey bölünür, ancaq eşqi bölə bilməzsən,
Hər kim nə qazanmışsa, nisbətdə əyan oldu.

Pislik eləyən hər kəs şeytansifət adlanmış,
İblisə uyan insan xislətdə əyan oldu.

Hər dərdini ram etsən, dünya verəcək varın,
Daddın nə ki var nemət ləzzətdə əyan oldu.

Aydın görünən hər şey bətnində sual gizlər,
Məchul görünən çox vaxt zülmətdə əyan oldu.

Hər bir gözəlin sirdir, hər sirdə gözəllik var,
Cananda gözəlliklər ismətdə əyan oldu.

Haqqın yoluna düşdün, gəzdin elə dünyanı,
Yurdunda bitən sevda qürbətdə əyan oldu.

Hər gördüyünə uyma, bil ki, babamız Adəm
Dadmışdı gözəl nemət cənnətdə, əyan oldu.

Şərt şumda kəsilmişsə, sakit ötəcək xırman,
Xırmanda kəsilmiş şərt qiymətdə əyan oldu.

Aşkarda dinən surət xəlvət eləmiş sirrin,
Xəlvətdə susan batin surətdə əyan oldu.

Sevdası bəsit kəslər saf eşqə dəyər verməz,
Məşuqə olan eşqin diqqətdə əyan oldu.

Gəl eşqini çox öymə, aşiq əməlin öyməz,
Eşqin, Ağamir, haqqa xidmətdə əyan oldu.

## EYLƏMİSƏN

Mənə çox xoşdu, gözəl, əğyara lağ eyləmisən,
Eşqimə meydan açıb köksünü bağ eyləmisən,

Gecə zülmət kimi çökmüşdü qərib taleyimə,
Yolumun üstə yanıb ömrü çıraq eyləmisən,

Fələyin rüzgarı tökmüşdü üzə saçlarımı,
Əlini üz-gözümə güzgü-daraq eyləmisən.

Səni pak niyyət ilə sevdim, elə paksan ki,

Saflığınla rəqibin bağrını dağ eyləmisən.

Batırıb göz yaşına ağ lələyin taleyimin,
Eşqini yazmaq üçün qəlbi varaq eyləmisən,

Üşüyürdüm qarın üstündə gəzən körpə kimi,
Mənə öz ağuşunu isti ocaq eyləmisən.

Çox uzatma, tərifin ölçüsü var, ölçünü bil,
Deməsinlər, Ağamir, sən də lap ağ eyləmisən.

## DOĞULUR

Gün gedir, yer dolanır, ay doğulur, il doğulur.
Hər gələn eşqə düşüb odda yanır, kül doğulur.

Hər gecə ulduz axır, ömrü bitir bir çiçəyin,
Hər səhər dünya bağında yeni bir gül doğulur.

Gündə qırx sirkə verir qan sovuran bit-birələr,
Amma ki yeddi ilə bircə ədəd fil doğulur.

Sözünü zirvəyə de, zirvə verir əks-səda,
Sükutun bağrı yanır, bəm doğulur, zil doğulur.

Bar verən leysan olub torpağa yağ, dəryaya yağ,
Hər sədəf leysan içib dür yaradır, ləl doğulur.

Günü-gündən çoxalır qəlbi xain nadanlar,
Qırıb atsaq da alaq otlarını, gəl doğulur.

Ay Ağamir, yarananlar yaranıb torpaqdan,
Canlı-cansız yaşayan hər şey ölür, gil doğulur.

## BİLMƏZ

Köz düşməsə köz üstə ocaq yandıra bilməz,
Hər söz bu böyük eşqimi canlandıra bilməz.

Min söz qoşub aşiqlik edir eşqə yananlar,

Sevda oduna yansa ürək yan dura bilməz.

Cum dəryaya min ləl çıxar dərya dibindən,
Eşq olmasa nadanları söz qandıra bilməz.

Gözlər nə yaman iz buraxıb yaddaşımızda,
Hər odlu baxış gözlərini andıra bilməz.

Döndün elə baxdın ki, canım yandı, alışdı,
Həsrət oxunu atma, gözəl, can dura bilməz.

Ruhum da yanır, atəşimə səpmə soyuq su,
Nuh tufanı da eşq odumu söndürə bilməz.

Daş qəlbləri mum eyləyəcək aşiq Ağamir,
Haqq aşiqi heç vaxt könül sındıra bilməz.

## GÖTÜR GƏL

Ey gül, səni tarı, bir içim badə götür gəl,
Vəhdət gecəsi bizləri sal yadə, götür gəl.

Süz badəni, nuş eyləyək, ilhamə gətirsin,
Bir busəyə gəlsin damağım dadə, götür gəl.

Min dağ çəkilib qəlbimizə nadan əlindən,
Tapşırma bizi anlamayan yadə, götür gəl.

Göz yaşım axıb qəlbimə bir dərya yaratmış,
Hər kim üzə bilməz belə dəryada, göyür gəl.

Məcnunluğunun şiddəti artmaqdadı, qıyma,
Getsin Ağamir həsrət ilə badə, götür gəl.

## BİLMƏYİR

“Min qəmim vardır, birin mindən bir adəm bilməyir. ”
“Həm bu bir qəm ki, min adəmdən biri qəm bilməyir. ” *

Dünyanın qəm qatına kimlər girib arif odur,
Dərdi bölmüş dərd bilənlə, nemətin kəm bilməyir.

Hər kəsin öz dərdi vardır, dünya almır eyninə,
Toplayır min dərdi dərd üstə, heyf cəm bilməyir.

Fərqi yox dünyamıza kimlər gəlib, kimlər gedib,
Hər məzardan gül bitir hər il dəmadəm, bilməyir.

Hər qəmində bir sevinc var, hər sevincdə bir kədər,
Bilməyir qəm bilməyən zövqü-səfa, dəm, bilməyir.

Gah enir, gah şahə qalxır, yer gəzir ahənginə,
Haqqın öz ahəngi var, zil bilməyir, bəm bilməyir.

Dadmışıq min bir təamın dadını dünyamızın,
Son məqamda hansı xoşdur, ağzımız təm bilməyir.

Eşqini dərk etməyən dünya bilərmi qəm nədir?
Məzmunu haqdan gələn kamil kitabəm, bilməyir.

Hər sevən bir qəmli dünya, hər müxalif bir sevən,
Eşqi aləmdən böyük mən də bir adəm bilməyir.

Hər əzab bir imtahan, haqqın yolunda bir sınaq,
Hər əzabda bəxt gəzəndən gözlərim nəm bilməyir.

Haqq yolunda aşiqəm, Qeysi ötüb Məcnunluğum,
Eşqə vardım haqqı bildim, bildim aləm bilməyir.

Şam kimi yandın, Ağamir, eşqini nur eylədin,
Paylayır ətrafına nurun, fəqət şəm bilməyir.

------------

Qəzəlin birinci beytinin birinci misrası Məşədi Azərin, ikinci misrası Əliağa Vahidindir.

## QƏZƏL

Klassik və müasir şeirimizin gözəl bilicisi,
mühasib dostum Əlihüseyn Mirzəbaba oğluna

Gün kimi şölə saçır hər tərəf, hər yanə qəzəl,
Hökm edir sehri ilə təxti-Süleymanə qəzəl.

Hər sözün musiqisində nəfəsi var Məsihin,
Verərək cismimizə ruh, gətirir canə qəzəl.

Gədalar dərk eləməz hikmətini hər kəlamın,
Oxşayar arif olan qəlbləri ürfanə qəzəl.

Yaşadar hər sətirində həyatın hikmətini,
Baş vurar asimana, baş vurar ümmanə qəzəl.

Vəsf edər Ləhni-Davudla Rəsulallah kəlamın,
Yol açar hikmət ilə sanki hər insanə qəzəl.

Od saçar, arif olan hər sətirindən nur alar,
Təsir etməz kor olan cahilə, nadanə qəzəl.

İthaf et bu qəzəli Əlihüseynə, arifdir,
Ay Ağamir, yaraşır çün belə oğlanə qəzəl.

## QƏBUL ETSİN

Qurban kəsirik, Tanrı qurbanı qəbul etsin,
Kəssin hər axan qanı, bu qanı qəbul etsin.

Ən ali ibadətdi Haqqa verilən qurban,
Qurbanlığa bu cismi, bu canı qəbul etsin.

Haqq sevgisi hər qəlbdə iman ocağı çatsın,
Hər kimdə məhəbbət var imanı qəbul etsin.

Hər ayəsi bir fateh, hər surəsi bir ordu,
Yekdillə bütün dünya Quranı qəbul etsin.

Qəlbimdə inam vardır, İblis yaxına gəlməz,
Qoymaz ürəyim bir də Şeytanı qəbul etsin.

Həsrət yolu qəm-möhnət, hər eşqi sınaq eylər,
Varmı elə bir aşiq hicranı qəbul etsin?

Oğluyla dəyər vermiş eşqinə Xəlilullah,
Haqq aşiqi kimdirsə, bu anı qəbul etsin.

Dərk eyləyə bu rəmzi, qurban edə ac nəfsin,
Onda düşünər İblis insanı qəbul etsin.

Çox dözmüsən, Ağamir, bir müjdə edib Tanrı
Versin sənə də hər cür imkanı, qəbul etsin.

## AZMA, AMANDIR

Allahı anıb arzuları adlayan andı,
Ağzımdan azalmaz atamın allaha andı.

Qeyrət qəbulumdursa, qana qan qəbulumdur,
Qanun qapısında qana-qan, qanmaza qandı.

Xaliq xəyalı xilqətə xas, xaliqə xoşdu,
Xalis xanımın xidməti xas, xisləti xandı.

Gəl, gül, günəşimsən, gözəlim, gözləri gülgün,
Gözlər gözünü gizli görüb, gülləbarandı.

Dərdin dilə düşdü, dağılıb dağ dağa dəydi,
Dərdin –dəvə dərdi, dəvənin dərdini dandı.

Yadla yaramaz yarlığımız, yaddaşa yaddı,
Yandı yada yurdum, yaramın yaddaşı yandı.

Şahanələrin şövqü, şəkər-şəhdidi şair,
Şairliyinin şöhrəti şahənşaha şandı.

Səs sal sənətin səltənətində, sözə sahib
Sevdikcə sənə sayə salıb, sevgili sandı.

Canan coşaraq cilvələnib, can cəzalanmış,
Canan cana candırsa, canım canana candı.

Bil, bilməcələr bilsə, bilər bölgünü, bəlkə,
Baş başdı başa, başçı başa başçı babandı.

Allahın adından ad alıbsan, ay Ağamir,
Aşiqliyi artanlar azır, azma, amandı.

## VAR MƏNİM

Mizanım düzdü, dəqiq haqq tərəzim var mənim,
Deməz Allahı sevənlər qərəzim var mənim.

Ümidim eşqə tapınmış, daha yox başqa nicat,
Sevən andan ürəyim bir mərəzim var mənim.

Hələ minüzlülərin qeybəti tüğyan eləyir,
Qara niyyətdən uzaq pak bir üzüm var mənim.

Çəkisi başdan ağır, hikməti sığmaz cahana,
Dilə gəlmiş qələmim, bil ki, sözüm var mənim.

Neçə illər qorumu bəsləmişəm qəlbimdə,
Yanmağa bir himə bənddir ki, közüm var mənim.

Ey Ağamir, qələmin gəzdiyi qəm dağına qalx,
Görəcəksən o güzərgəhdə izim var mənim.

## HƏSRƏT

Can dağlayan oddan da betər yamandı həsrət,
Eşqin yoluna pərdə çəkən dumandı həsrət.

Min şübhə səpər qəlblərin ünvanına bir-bir,
Hər qəlbə açar yol, ürəyə damandı həsrət.

Söz-söhbəti min qəm gətirər qəlbərə daim,
Haqdan uzaq olmuş qara bir gümandı həsrət.

Adəm babaya oz dağını çəkmiş ilk dəfə,
Cənnətdən uzaqlaşmış uzaq zamandı həsrət.

Min hiylə qurub, buğda verib saldı tamaha,
Həvva nənəyə dil çıxaran ilandı həsrət.

Sevməklə sevilməklə taparsan hər inamı, Düşmə, Ağamir, haqdan uzaq, yalandı həsrət.

## ELƏSİN

Qasida, namə apar yarə məni yad eləsin,
Hicrdən xəstə düşən cismimə imdad eləsin.

Eşqinə düşdüyüm andan bəri qəm məhbusuyam,
Bəlkə insafa gəlib məhbusu azad eləsin.

İstəyir canımı alsın, səri-kuyində ölüm,
Sonra Məcnunsayağı eşqimi bünyad eləsin.

Mən ki haqq aşiqiyəm çəkmişəm əl canımdan,
Həqqi dərk eyləməyən qoy mənə irad eləsin.

Ya Ağamir Cavadı dərdi ilə öldürsün,
Ya da bir busə ilə könlünü abad eləsin.

## GÖRDÜM YENƏ. . .

Gördüm yenə o yarı, baxdım, günah oldu,
Vardı elə bir ahım, döndü min ah oldu.

Arzum çəkilib darə, yandım necə odlarə,
Bəxtimi edən qarə o zülfi-siyah oldu.

Sıxdı məni min ağrı, bilməm kim idi doğru,
Mən daima bir oğru, o daima şah oldu.

Göndərdi yerə ayə, bu eşqimə sərmayə,
Saldı mənə bir sayə Tanrım pənah oldu.

İçdi Ağamir badə, gəldi damağı dadə,
Yar verdi ona vədə, axşamı sabah oldu.

## ÇAĞIRIR

Çağırır insafa qəlbim səni, canan, canan.
Eylərəm vəslin üçün canımı qurban, qurban.

Baxışın qan eləyib bağrımı, ey vah, ey vah,
Gözlərim yol sulayır gör necə leysan-leysan.

Vəslinin yolları bağlı, hava tutqun-tutqun,
Bölmüşəm həsrətinə qəlbimi zindan-zindan.

Gəldi qəm-qüssə könül yurduma ləşkər-ləşkər,
Eşqimin bağçasını eylədi viran-viran.

Leyli-Məcnun dolanan səhraya bir gəl, bir gəl,
Gör necə üzmədədir qəlbimi hicran, hicran.

Başımın üstə dolanmaqdadı quşlar, quşlar,
Mənlə dostluq diləyir gör neçə ceyran, ceyran.

Ağamir bəsləmək istər səni, ey gül, ey gül,
Tapa bilməzsən onuntək elə bağban, bağban.

## KİTABIN İÇİNDƏKİLƏR

### DÜNYANIN HAVASI

Tərcümeyi-hal
Salam, 50 yaşım
Dünyanın havası
Yanmış budaq üstə oxuyan bülbül
Nə vaxtsa
Qatığın rəngi
Dünyanı ədalət tutacaq
Payızın xatunu dəmirağacı
Nə yaxşı
Sənin qalxdığın zirvə
Ey vəfasız
Daşam
Göyərsin
Qiyamətin özü
Həyatın qanunu
Bir günü çəkirəm

Eşqdir
Od yaşayar
Sən –mən
“Dünyaya düz dedik
“İllər ana dönüb”
Riyaziyyatçı, şair N. Şaya üçün
Üstədi
Gör nə gündədi
Yeri buraxmısan
Ürəyin necə dözür
Dözmürəm
Kim hördü
İrəli
Dünyam
İlk dəfə
Donsun yerində zaman
Üz tutub gedirəm
Özünə bağlanan qapı
Saman çöpü
Hər şeyin rəngi var
Bu köhnə sözlər içində
“Ömür yollarında”
Qış içində
Üzü qibləyə
Yolu azsam
Buludlar
Səmada
Qəfəs içində
Ağla belə, gül belə
Payız düşüncələri
Elə gəldim
Bilmədim
Nə gəzirsən
Daş damır
Cinayətkar mələk kimi
Di vur yumruğunu
Aldandım elə
Könüləm mən
Kiçildin
Eşqimin adı altında
Ay dərd
Gülasım
Halaldır
Gələr
Səndən
Üzün nur alıbdır
Haqq üçün
Yanılma
Gəldim
Şair
Sən kiminsən
Nə vaxt
Qədrimi bilmədin

Xeyirlə şər arasında
Şeytana salam vermədim
Baxmır
M. Abdullahın 50 yaşına
Oğul
Dediyin kimiyəm
Allaha yaxın
"İsti bir ocaq oldum"
Bu yolu düz gedək
Keçim keçməyim
Üzünü mənə tut
Həsrətin hikməti
Həyat var içimdə
Olmadın
Ruhum göyərər
Tanı
Bu nisbi həyatda
Yağışa düşən qərib
Sığmaz
Öldürər
Yox imiş
Buna bax e
Seçdi
Bütövlük
Ömrü verməyək bada
Bu mənim qapımdı
Sizsiniz
Sözün ağası
Dünya
Bu bahar
Elə daşıyıram bu qoşa eşqi
Yazıb
Göylərin
"Ana kənd sovqatı göndərirsən"
"Bir qış günündə"
"Gah sevinci gah qəmli"
Yandırır
Eylədin
Bütün sözləri eyni hərflə başlayan şeirlər
Q. . .
Y. . . .
D. . . .
S. . . .
Yatmaq olub adəti
Sabah adamı
Bir nəfəsə misralanmış duyğular
Dənizin dənizi
Göylərə ucalaram
Nurdanın mahnısı

MƏHƏBBƏT, MƏHƏBBƏT, YENƏ MƏHƏBBƏT

Mənim şeirlərim

Səni unutmağa qoyayacağam
Məhəbbət
Közəm mən
Zalım
Gözlərinin şəkli
Keçməsəm ölləm
Bir eşq nəğməsi oxu
Bu gün ayrılırsan
Gəlmişəm
Çək qılıncı
Indi
Mənə dərd gətirdi
Bu dostluqdan barın
Teleqrafçı qız
Fürsəti verməyək bada
Bu dastan sevgi
Səhifələ məni
Qıymadın
Sevda
Bu eşq
Kitab içində
Gəl gedək
Səhf eləmə
Göylərə göylərə
Tutmuşam səni
Dolana-dolana
O gözlərdi baxdığım
Məndədir

Ad gününə
Şəklini çəkmək istədim
Bənövşə-4
Eyləmə
Eşqim allahdandır
Yanım atəşində
Gün gələr
Sənin pəncərənə baxan ağacam
Dəyməz
Sən gələn yollar
Eşqim
Can dedim, can dedin
Yaxalarsan
Ayır sən
Dər gülü
Sənsizlik
Bir ömür nağılı
Bu sevginin nağılı
Dərinliyin qurbanı
Sənin albomun
Sənin şəklin
Sənin diqqətin
Sənin soyuqluğun
Sənin saçların

Sənin gözəlliyin
Sənin səsin
Sənin barmaqların
Sənin dunyan

## QƏZƏLLƏR

Söz
Ahəstə-ahəstə
Qismətdir mənə
Qəm yemə
Əyan oldu
Eyləmisən
Doğular
Bilməz
Götür gəl
Bilməyir
Qəzəl
Qəbul etsin
Azma amandır
Var mənim
Həsrət
Eləsin
Gördün yenə
Çağırır